# ELÇİN

***Seçilmiş***

***əsərləri*** 4

Redaktor:
**Dilsuz**

**ELÇİN**

E46 **«Seçilmiş əsərləri» (10 cilddə), 4-cü cild.** Bakı, **«ÇİNAR-ÇAP»** nəşriyyatı, 2005, – 589 səh.

E $\frac{4702060200}{122}$

© «ÇİNAR-ÇAP», 2005

# PYESLƏR



# TAUN YAŞAYIR

*(Bir həyatın xronikası)*

***İyirmi altı şəkil və epiloqdan ibarət iki hissəli dram***



## İŞTİRAK EDƏNLƏR

Müəllif.
Xosrov.
Xosrovun birinci arvadı.
Xosrovun ikinci arvadı.
Mir Cəfər Bağırov.
Ələsgər.
Firuzə.
Arzu (kiçik).
Arzu (böyük).
Əflatun.
Xıdır Qafarzadə.
Əbdül Qafarzadə.
Sevil.
Lev Zilber.
Murad İldırımlı.
Firidun.
Firidunun arvadı.
Əlibala.
Kələntər.
Kələntərin arvadı.
Cümşüdlü.
Ələkbərov.
Qırmızı Yaqub.
Komissar (Xalq Daxili İşlər komissarı).
Manafov.
Filosof.
Şair.
Artist.
Ostaşkov.
Burun (Soltan Murad)
Professor.
Kazımlı.
Nəcəf Ağayeviç.
Roza.
Nastya.
Faytonçu.
Faytonçunun köməkçisi.
Ağabala.
Molla Əsədulla.
Ağabala
Balaniyaz.
Zabit.
Keşikçi.
Kapitan.
Katibə.
Rus əsgəri.
Birinci əsgər.
İkinci əsgər.
Üçüncü əsgər.
Birinci dustaq.
İkinci dustaq.
Birinci kişi.
İkinci kişi.
Üçüncü kişi.
Birinci qadın.
İkinci qadın.
Üçüncü qadın.
Dördüncü qadın.
Beşinci qadın.
Əsgərlər, dustaqlar, məhəllə adamları.

Zaman – 1929-cu il, 1939-cu il, 1964-cü il, 1978-ci il.
Məkan – Hadrut, Bakı, Narım.

**Qeyd.** Parterdə, tamaşaçıların arasında oturmuş Müəllif yerindən durub səhnəyə qalxır və sol küncdə, səhnənin lap kənarında dayanır. Bundan sonra o, söz demək istəyəndə, bütün tamaşa boyu eyni yerə çıxır, sözlərini bitirdikdən sonra parterdəki yerinə qayıdır. Müəllif danışdıqca, yeri gəldikdə onun söylədiklərinin pantomima ilə səhnə illyüstrasiyasını vermək mümkündür.

# BİRİNCİ HİSSƏ

## BİRİNCİ ŞƏKİL

M ü ə l l i f, F a y t o n ç u, F a y t o n ç u n u n k ö m ə k ç i s i , X o s r o v, A r v a d.

1929-cu il. Hadrut. Sübh tezdəndir. Quşların səsi, qoyun-quzunun mələşməsi eşidilir. Səhnənin küncündə qoca bir kişi – F a y t o n ç u , yanında cavan bir oğlan – F a y t o n ç u n u n k ö m ə k ç i s i , yerdə çöməlib çörək yeyirlər.

M ü ə l l i f. Elçin. «Taun yaşayır». Bir həyatın xronikası.

F a y t o n ç u *(çağırır).* Xosrov müəllim, ay Xosrov müəllim, gün günortanı keçdi ki... Tez ol bir az... Müsəlmanın adətidir də... Qonşu kəndə gedəndə də, evdən elə ayrılır, elə bil dünyanın o başına gedir... Ay uçitel, tez ol bir az... *(Oğlana)* Günortayacan gərək Şuşaya çatım... Axşama geri qayıtmalıyam. Sən çörəyini ye... Şuşalının gərək yeməyinin vaxtı keçməsin. *(Gülür.)* Bu Xosrov müəllim ki var e, çox qənimət adamdı... Bütün fikri-zikri məktəbnəndir... Rus dili müəllimidi... Yaxşı hörməti var Hadrutda... Kimin nə dərdi-səri olsa, onun yanına qaçır, yuxarılara ərizələrini ona yazdırır... Heç kimdən köməyini əsirgəmir... O gün olsun ki, sən də belə bir alim uçitel olasan! *(Qışqırır.)* Ay uçitel, sən Allah, tərpən! *(Oğlana)* Özü də, görürsən, kimsə çox sağ ol üçün, hörmət üçün Allahın olanından, nə bilim, yumurtadan, motaldan, yağdan, qaymaqdan gətirib vermək istəyir... Ömründə qəbul etməz!.. Ə, tövbə! Heç nə götürmür, deyir, guya, bunların hamısı müəllimin borcudu... Kişi görür də!.. Görür ki, camaat it günündə yaşayır! Bu bolşeviklərə, vallah, nə deyim mən?! *(Özü öz sözlərindən ürkür.)* Ə, birdən gedib orda-burda ağzını Allah yolunda qoyarsan ha!.. Sən çalış, bax, bu uçitel kimi bir adam ol! İndi Şuşaya gedir, müəllimlərin, deyir, orda böyük yığıncağıdı... Bakıdan, Gəncədən, İrəvandan da gələcəklər... *(Qışqırır.)* Uçitel, ay uçitel!..

Xosrov, əlində çamadan, evdən çıxır. Arxadan uşaqların səsi gəlir. Arvadı, qucağında körpə uşaq, onun ardınca çıxır.

Ay Xosrov müəllim, gəl çıx də... (*Yanındakı oğlana*) Sən qaç faytonu rahla.

Faytonçunun köməkçisi cəld qalxıb gedir. Faytonçu süfrəni yığışdırır.

Ay uçitel, yazıq dəllək öldü də... Bildin?!

Xosrov *(diksinir)*. Dəllək?!.

Faytonçu. Hə... Dünən gecə... Sağlam adam idi... Ayağı sınmışdı... Damı düzəldəndə yıxılmışdı... Balnisanın baş həkimi Xudyakov doktor yaman hirslənib... Mənimlə qonşudur axı... Bütün günü balnisadadır... Dəllək dördüncü adamdır ki, öldü balnisada... Özü də, dördü də cavan adam... Hə, Xudyakov doktor yaman özündən çıxıb!..

Xosrov *(nigarançılıqla)*. Mən də dünən məktəbdə nəsə xəstəxana ilə bağlı bir söhbət eşitdim...

Faytonçu. Əşşi, uçitel, Allah deyən olacaq! Gedək!

Faytonçu səhnədən çıxır. At kişnəməsi eşidilir. Xosrov arvadına baxır, körpəyə baxır. Birdən arvad körpəni ona verib tələsik evə keçir. İçəridən uşaqların səsi eşidilir.

– Ata, sağ ol!..
– Ata, tez gəl!..
– Ata!..
– Ata!..

Xosrov *(evə tərəf qışqırır)*. Siz durmayın yerinizdən! Yatın!

Arvad, əlində su, geri qayıdır. Körpəni Xosrovdan alır və ərinin ardınca su atır.

İşıq sönür.

## İKİNCİ ŞƏKİL

Lev Zilber.
Bakı. Qaranlıqda telefon zəngi. Səhnənin bir küncü işıqlanır.

L e v  Z i l b e r dəstəyi qaldırır.

T e l e f o n  s ə s i. Professor Zilber?! Qovorit sekretar Narodnoqo Komissariata Zdravoxraneniya! Seyças s vami budet qovorit tovariş komissar.

Pauza.

Alo! Tovariş Zilber?

Z i l b e r. Ya vas sluşayu, tovariş komissar!

T e l e f o n  s ə s i *(həyəcanlı)*. Tovariş Baqirov prosit vas nemedlenno priyexat k nemu! Maşina za vami uje vıyexala! Vı slışete menya, Lev Aleksandroviç? Tovariş Baqirov sam liçno pozvonil! Vıyezjayte nemedlenno!

Qırıq-qırıq telefon səsi.

Z i l b e r *(telefonun dəstəyini asaraq, yavaşdan)*. Menya vızıvayut v ÇK?!.

İ ş ı q  s ö n ü r.

## ÜÇÜNCÜ ŞƏKİL

M i r  C ə f ə r  B a ğ ı r o v, L e v  Z i l b e r, Z a b i t.

Səhnənin o biri küncündə işıq yanır. Bakı. Azərbaycan Sovet Sosialist Respublikası Baş Siyasi İdarəsinin rəisi M i r  C ə f ə r  B a ğ ı r o v bir dəstə karandaşı iki əli arasında qarışdıra-qarışdıra öz kabinetində gəzişir. M i r  C ə f ə r  B a ğ ı r o v u n gözlərində girdə və qalın şüşəli eynək var. L e v  Z i l b e r və onu müşayiət edən Z a b i t kabinetə daxil olur.

Z i l b e r. Zdravstvuyte, tovariş Baqirov!

B a ğ ı r o v *(onun salamına əhəmiyyət vermədən, eləcə gəzişə-gəzişə)*. Mı poluçili s Qadruta ot tovarişa Marqulina teleqrammu. V Qadrute epidemiya çumı.

Pauza.

No, vozmojno eto ne çuma... *(Bir anlıq ayaq saxlayır.)*

Z a b i t *(mil kimi dayanmış vəziyyətdə).* Ne mojet bıt, çtobı na naşey zameçatelnoy zemle zavelas takaya qadost!

M i r  C ə f ə r  B a ğ ı r o v girdə və qalın şüşəli eynəyinin arxasından tərs-tərs Z a b i t ə baxır və bu zəhmli baxışlar altında Z a b i t daha da mil dayanır.

B a ğ ı r o v *(Lev Zilberə).* Sroçno, siyu je minutu vı doljnı vıyexat v Qadrut! S vami poyedut bakterioloqiçeskaya qruppa, krome nix eşo tri tovarişa. Vse otçetı, vsya qrafika, vse diaqnozı, vse spravki peredavat im v sroçnom poryadke! V Qadrute vam budet pomoqat mestnıy predstavitel Qlavnoqo politupravleniya! Vse! Seyças je vıyezjayte!

L e v  Z i l b e r getmək istəyir.

Smotrite, professor, mı sledim za vsem xodom sobıtiy! A vas mı toje xoroşo znayem! İmeyte eto v vidu!

Pauza.

İ ne zabıvayte konsperatsiyu! Konsperatsiya obyazatelno!

İ ş ı q  s ö n ü r .

**DÖRDÜNCÜ ŞƏKİL**

L e v  Z i l b e r, M u r a d  İ l d ı r ı m l ı, M ü ə l l i f.
Səhnənin əks küncündə işıq yanır. Hadrut. M u r a d  İ l d ı r ı m l ı L e v  Z i l b e r ə yaxınlaşır.

İ l d ı r ı m l ı *(əlini uzadaraq).* Baş Siyasi İdarənin müvəkkili Murad İldırımlı.

Z i l b e r *(onunla əllə görüşür).* Mənə dedilər ki, sizinlə işləyəcəyik... Eşidirəm.

İ l d ı r ı m l ı. Məsələ belədir. Tauna tutulmuş ilk adam yaxınlıqdakı erməni kəndindən idi. Xəstəxananın baş həkimi Xudyakov onu ümumi palataya qoydu və bundan sonra da taun Hadrutda fironluq etməyə başlayıb. Əvvəlcə elə o cavan oğlanla bir palatada yatan dəllək, sonra feldşer, sonra da o biri xəstələr yoluxub

öldülər. Xudyakovun özü də öldü. Amma o zaman hələ bizim ağlımıza gəlmirdi ki, bu, taundur. Biz sonradan bildik.

Z i l b e r. Necə yəni sonradan? Bəs kim qərar çıxartdı ki, söhbət taundan gedir?

İ l d ı r ı m l ı. Xudyakov xəstələnəndən sonra, özü yaxınlıqdakı hərbi bölmənin həkimi Lev Morqolinə xəbər verib, taunu Morqolin müəyyən etdi. O saat da Bakıya teleqram vurdu. Mən onun siyasi sayıqlığına inanıram!

Z i l b e r. Kimin siyasi sayıqlığına?

İ l d ı r ı m l ı. Morqolin həkimin!

Z i l b e r *(dərindən nəfəs dərir).* Mən indi həkim Morqolini görə bilərəm?

İ l d ı r ı m l ı. Xeyr! Morqolin də tauna tutulub. Xəstəliyini hiss edəndən sonra, otağına heç kimi buraxmadı. Hərbçilərlə bütün əlaqəsini kəsdi. İki gündən sonra, görəndə ki, xəstəliyi şiddətlənir, gecə otağının qapısını qıfılla bağlayıb hərbi hissədən çıxıb. Hara gedib, bilinmir. İstəməyib ki, xəstəliyi başqalarına yoluxsun. Buyurun. *(Cibindən zərf çıxarır.)* Morqolinin məktubudur. Bunu hərbi hissənin komandiri verdi ki, sizə çatdırım.

Z i l b e r *(oxuyur).* «Əziz yoldaşlar, hərarətim 39,5-dir. Buradan gedirəm ki, başqalarını yoluxdurmayım. Gedirəm ki, sakit ölüm. Sosializm cəmiyyətinin nikbin və sağlam quruculları kimi salamat qalın! Əlvida, Lev Morqolin.»

Pauza.

Neçə yaşı var idi?

İ l d ı r ı m l ı. Mənimlə yaşıd idi.

Z i l b e r. Sizin neçə yaşınız var?

İ l d ı r ı m l ı. İyirmi dörd.

Z i l b e r. Yazıq...

İ l d ı r ı m l ı. Yazıq? Kim idi yazıq?

Z i l b e r. Doktor Morqolin...

İ l d ı r ı m l ı. Niyə? O bütün varlığı ilə sosializm cəmiyyətinə inanırdı, professor, nə üçün yazıq?

Pauza.

O yazıq deyildi, əsl bolşevik idi!

Pauza.

Siz partiyanın üzvü deyilsiz?

Z i l b e r. Xeyr.

İ l d ı r ı m l ı. Aydındır...

Pauza.

Alınmış məlumata görə düşmənlər taundan ölmüş meyitlərin qəbrini açır, bədən üzvlərini kəsib camaatın içində xəstəlik yayırlar.

Z i l b e r *(dəhşətlə).* Nə?

İ l d ı r ı m l ı. Bəli!

Z i l b e r. Mən sizi başa düşmədim.

İ l d ı r ı m l ı *(kəskin).* Yoldaş bitərəf professor! Əgər belə bir vaxtda, şəxsən yoldaş Mir Cəfər Bağırov sizi Hadruta göndəribsə, deməli, yaxşı professorsunuz! Ancaq xalq düşmənlərinin nəyə qadir olduğunu bilmirsiniz! Bütün bunlar kulakların işidir! Bütün bunların arxasında ingilislər dayanıb! Hadrutdakı taun təbii fəlakət deyil! Sinfi təxribatdır!

Arxa planda ağ geyimli, üzləri əleyhqazla bağlı adamlar ətrafı yoxlayır, haranı isə göstərir, nəyə isə işarə edir.

Z i l b e r. Bu ola bilməz! Siz nə danışırsız?! Sizin dedikləriniz həqiqətə uyğun deyil! Sizin dedikləriniz... cəfəngiyyatdır! *(Özünü ələ alaraq)* Bağışlayın...

İ l d ı r ı m l ı *(eyni qətiyyətlə).* Yoldaş professor, taunu Hadruta Sovet İttifaqının düşmənləri gətirib! Bu işdə xarici agenturanın, onların yerli əlaltılarının, qolçomaqların əli var!

Z i l b e r. Siz heç bilirsiniz nə danışırsınız?! Bu, xəstəlikdir, bu... elmdir, tibbdir. Özü də, cavan oğlan, siz də təhlükəsizlik tədbiri görün! Əlcək geyin, zərdab qəbul edin, tənzif taxın.

İ l d ı r ı m l ı. Qorxmayın, professor, düşmənlərin yaydığı xəstəlik «Çeka»ya heç nə edə bilməz! Siz elmdən danışırsınız. Amma mən deyirəm ki, bu, düşmənlərin işidir. Meyitlərin bədən üzvlərini kəsib camaat içində taunu yayırlar. İnanmırsınız, gəlin baxın!

M u r a d İ l d ı r ı m l ı sürətlə kənardakı qəbirlərdən birinə yaxınlaşır və var gücü ilə onun daşını qaldırır.

Z i l b e r *(həyəcanla).* Nə edirsiniz?! Oranı açmaq olmaz! Dayanın, yoldaş... e-e-e... yoldaş İldırımlı!
İ l d ı r ı m l ı. Buyurun, baxın! Hamısının bədən üzvlərində yara var. Bıçaq yarası!

L e v Z i l b e r heyrətlə qəbirə baxır.

Diqqətlə baxın! O birisinin qarnına, bu birisinin döş qəfəsinə baxın! Görün mən düz deyirəm, ya yox?!
Z i l b e r *(şaşırmış halda).* Heç nə başa düşmürəm! Mən belə bir şeyi nə elmi ədəbiyyatda oxumuşam, nə də özüm belə bir hadisəyə rast gəlmişəm!
İ l d ı r ı m l ı. Oxumamısız... Rast gəlməmisiz... Əlbəttə! Çünki bunlar insan deyillər! Bunların arxasında ingilislər, müsavatçılar, pantürkistlər, daşnaklar, sərhəddi keçib gələn monarxist ünsürlər, zəhmətkeş xalqların qəddar düşməni beynəlxalq kapitalizm dayanıb!
Z i l b e r. Axı...
M ü ə l l i f. Professor Lev Zilber Murad İldırımlını başa salmağa çalışdıqca, hiss edirdi ki, müvəkkilin onunla bağlı şübhələri daha da artır. Və bundan sonra, professor Lev Zilber xəstələri müayinə edərkən, bakterioloji analizlər apararkən, Murad İldırımlı gəlib onun yanında dayanırdı, diqqətlə baxırdı və əlbəttə, bunun özündə də, bir nəzarət var idi. Gecələrdən birində professor Lev Zilberi və onun həmkarlarını sarsıdan, hətta, taundan da dəhşətli hadisə bu oldu ki, qəbirdən çıxarılan dördüncü meyitin – bu, beş gün əvvəl taundan həlak olmuş Faytonçu kişinin meyiti idi – döş qəfəsində bıçaq yarası tapıldı. Professor Lev Zilber səhər saat beşdə gəlib Hadrutda qaldığı otağa çatdı. Amma heç beşcə dəqiqə də yata bilmədi. Bakıdan, Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetindən teleqram gəldi. Onu təcili Bakıya çağırırdılar. Baş Siyasi İdarənin müvəkkilinin Bakıya göndərdiyi teleqram öz işini görmüşdü. Hadrutla bağlı ətraf rayonlarda cürbəcür şayiələr gəzirdi. Şuşaya də xəbər yayılmışdı ki, Hadrutu bağlayıblar. Xosrov müəllimin bütün fikri maarif işçilərinin Şuşada keçirilən seminarının gedişatında idi. Və o, əvvəlcə bu şayiələrə

inanmırdı, amma elə ki, Xosrov müəllim daha Şuşada bazar başında Faytonçu kişini görmədi, elə ki, Hadrutla bütün əlaqələr doğrudan da kəsildi, Xosrov müəllimin ürəyində, sızıltısını bütün ömrü boyu unutmayacağı bir nigarançılıq baş qaldırdı. Və həmin nigarançılıq onu seminarın işini yarımçıq buraxmağa, heç bir icazə almadan Hadruta qayıtmağa məcbur etdi.

Z i l b e r *(öz-özünə).* Heç inanılası iş deyil! Əgər, doğrudan da, hər şey o müvəkkil deyən kimidirsə, onda axı, gərək bu meyitləri kəsənlərin özləri də tauna yoluxaydılar!..

İ ş ı q   s ö n ü r.

## BEŞİNCİ ŞƏKİL

X o s r o v, Ə l ə s g ə r, B i r i n c i   ə s g ə r,
Ü ç ü n c ü   ə s g ə r, ə s g ə r l ə r.
İşıq yenə də səhnənin əks tərəfində yanır. Hadrutun ətrafı.
Ə s g ə r l ə r heç kimi Hadruta tərəf buraxmırlar.

X o s r o v *(bir-bir əsgərlərə yaxınlaşır).* Mən Hadrutdanam. Burdanam. Müəlliməm. Şuşaya seminara getmişdim. Orada eşitdim ki, Hadrutu bağlayıblar. Seminarı yarımçıq qoyub gəlmişəm.

B i r i n c i   ə s g ə r. Hadruta olmaz!

X o s r o v. Axı, niyə olmaz?

B i r i n c i   ə s g ə r. Olmaz!

X o s r o v *(İkinci əsgərə yaxınlaşır).* Niyə?.. Niyə axı?..

İ k i n c i   ə s g ə r *(pıçıltıyla).* Bir dəstə düşmən ifşa olunub. Kollektivləşdirməyə qarşı ziyançılıq işləri ilə məşğul imişlər. İndi onların bütün rayon üzrə istintaqı gedir.

X o s r o v. Mənim düşmən kimi ifşa olunası heç kimim yoxdur, üç uşağım var, bir də arvadım...

Ü ç ü n c ü   ə s g ə r. Hadrut bağlıdır. Getmək olmaz!

X o s r o v. Necə olmaz?! Axı, mənim...

B i r i n c i   ə s g ə r. Hadruta olmaz!

M ü ə l l i f. Eləydi... Xosrov müəllimin Hadrutda ifşa ediləsi bir adamı yox idi: altı yaşlı Cəfər idi, dörd yaşlı Aslan idi, iki yaşlı Azər idi, bir də ki, Şirin idi və Azərbaycanda doqquz il idi So-

vet hakimiyyəti qurulmuşdu. Hələ ki, altı yaşında, dörd yaşında, iki yaşında düşmən ifşa olunmamışdı.

Əsgərlər tüfəngin qundağı ilə Xosrovu
səhnədən çıxarır.

İşıq sönür.

## ALTINCI ŞƏKİL

Mir Cəfər Bağırov, Lev Zilber.
İşıq səhnənin o biri küncündə yanır.
Bakı. Azərbaycan Sovet Sosialist Respublikası Baş Siyasi İdarəsinin rəisi Mir Cəfər Bağırovun kabineti. Mir Cəfər Bağırov iki əli arasında tutduğu bir dəstə karandaşı bir-birinə sürtə-sürtə otaqda var-gəl edir. Ayaq üstə dayanmış Lev Zilber məlumat verir.

Zilber. Mən, həkim Morqolinin məlumatlarını təsdiq edirəm. Hadrutu taun bürüyüb. Xəstəlik əvvəlcə erməni kəndlərində sürətlə yayılmağa başlayıb...

Bağırov. Nə üçün?

Zilber. Ona görə ki, kənd camaatı arasındakı türkəçarəçilər meyitləri açıb, bıçaqla zədələyirmişlər ki, güya xəstəlik həmin bıçaqdan qorxub çəkiləcək. Bu da o erməni kəndlərinə baha başa gəlib. Özləri meyitlərdən yoluxub həlak olublar. Əvvəlcə sizin müvəkkil elə bilirdi ki, bunu sovet hökumətinin düşmənləri qəsdən edirlər.

Bağırov *(ayaq saxlayaraq, girdə və qalın şüşəli eynəyinin arxasından diqqətlə Zilberə baxır).* Siz düşmənlərdən belə şeylər gözləmirsiz?

Zilber *(özünü itirmiş halda).* Mən... Bilirsiz...

Bağırov *(yenə var-gəl edərək onun sözünü kəsir).* Hadrutdakı taun epidemiyasını gizli saxlamaq lazımdır! Konsperasiya üçün, bütün rəsmi xəbərlərdə, məlumatlarda «taun» sözü «filiz» kimi yazılmalıdır! Qeyri-rəsmi, yəni şəxsi məktublaşmada isə bu barədə bir söz demək qəti qadağandır! Aydındır?

Zilber. Bəli!

Bağırov. Davam edin!

Z i l b e r. İndi xəstəlik azərbaycanlıların yaşadıqları kəndlərə də yayılıb. Hadrutun özü də taun içindədir...

B a ğ ı r o v. Nə etmək lazımdır?

Z i l b e r. Birinci, bütün rayon ordu ilə əhatə olunmalıdır ki, kimsə taunu yoluxdura biləcək bir şeyi Hadrut ərazisindən çıxara bilməsin! Hadrut özü də, əlavə olaraq, ikiqat mühasirəyə alınmalıdır! İkinci, bütün meyitlər yandırılmalıdır!

Pauza.

B a ğ ı r o v. Davam edin!

Z i l b e r. Üçüncü, bütün rayon əhalisi üçün isti çadırlar və alt paltarından tutmuş üst paltarına, ayaqqabıyacan, tam geyim komplekti göndərilməlidir! *(Get-gedə daha sürətlə danışaraq)* Dördüncü, bütün əhali çılpaq soyunmalı, göndərilmiş paltarları geyinməlidirlər. Məcburi olaraq hamı öz evindən çadıra köçürülməlidir. Bu əməliyyat ciddi nəzarət altında olmalıdır ki, heç kim təzə paltarına taunlu paltarların mikrobunu keçirməsin. Onların əynindən çıxarılmış paltarların hamısı həmin şəxslərin öz evində qalmalıdır! Beşinci, evlərdən çadırlara köçürülmə zamanı taunlu xəstələrlə birinci dərəcəli və ikinci dərəcəli təmasda olan şəxslərin hamısının təcrid edilməsi təmin olunmalıdır.

B a ğ ı r o v. Dərəcələri kim müəyyənləşdirir?

Z i l b e r. Biz sizin adamlara təlimat vermişik.

B a ğ ı r o v *(gəzişə-gəzişə)*. Davam edin!

Z i l b e r. Altıncı, epidemiya yayılmış əraziyə kimyəvi dəstələr göndərilməlidir...

B a ğ ı r o v *(səbrsiz)*. Nə üçün?

Z i l b e r. Onlar bütün binaları, tikintiləri, xlorpikrinlə dezinfeksiya etməlidir. Xlorpikrin taun zamanı ən yaxşı dezinfeksiya vasitələrindən biridir. Taun mikrobunun bitlərini, gəmiriciləri məhv edir. Nəhayət, epidemiya baş vermiş rayona həkim-gigiyena dəstəsi göndərilməlidir!

Pauza.

M i r C ə f ə r B a ğ ı r o v L e v Z i l b e r ə yanaşaraq, düz onun gözlərinin içinə baxır.

B a ğ ı r o v. Siz niyə indiyə kimi partiyaya daxil olmaq üçün ərizə verməmisiniz?

Z i l b e r *(şaşırmış halda).* Mən... həkiməm, siyasətçi deyiləm...

Pauza.

B a ğ ı r o v. Biz bu bəladan qurtara biləcəyik?

Z i l b e r. Dediklərimi eləyə bilsək... qurtararıq.

M i r  C ə f ə r  B a ğ ı r o v keçib stolun başında dayanır.

B a ğ ı r o v *(əlindəki karandaşları stolun üstünə çırparaq qışqırır).* Hadrut yandırılmalıdır!

İ ş ı q  s ö n ü r.

## YEDDİNCİ ŞƏKİL

X o s r o v, R u s  ə s g ə r i, Q ı r m ı z ı Y a q u b, L e v  Z i l b e r, M ü ə l l i f, ə s g ə r l ə r.

Hadrutun ətrafı. Alovun şölələri altında səhnə işıqlanır. Ə s g ə r l ə r Hadrutu ikiqat mühasirəyə alıb. X o s r o v qaçaraq Rus əsgərinə yanaşır.

R u s  ə s g ə r i. V Qadrut nelzya!

X o s r o v. Ya je tam jivu, tam moya semya, moi deti, moya jena...

R u s  ə s g ə r i. Nelzya!

X o s r o v. Poçemu?! Poçemu nelzya?! Xot obyasnite!

R u s  ə s g ə r i. Nelzya!

X o s r o v. Posluşayte, ya uçitel. Prepadayu russkiy yazık. Sprosite zdes lyuboqo. Vse znayut menya. Pozvonite v ispolkom! Pozvonite rukovoditelyam rayona, vse menya znayut...

R u s  ə s g ə r i. Nelzya! Nelzya! V Qadrut nelzya!

X o s r o v. No poçemu?! Poçemu nelzya?! V çem priçina?! Mojet ya moqu bıt poleznım?! Ya je prepodavatel ruskoqo yazıka!..

R u s  ə s g ə r i. Nelzya!

X o s r o v *(birdən Qırmızı Yaqubu görür. Qışqırır).* Yaqub yoldaş, Yaqub yoldaş, mənəm də, Yaqub yoldaş, tanımadın məni?! Xosrov müəlliməm də, uçiteləm...

Q ı r m ı z ı  Y a q u b. Niyə tanımadım?!.

X o s r o v. Tanıdın?! Bəs niyə buraxdırmırsan məni? Axı, sən də rütbəli adamsan!

Q ı r m ı z ı  Y a q u b. Getmə, uçitel! Getməli yer deyil Hadrut!...

X o s r o v. Niyə?

Q ı r m ı z ı  Y a q u b. Soruşma, uçitel!..

X o s r o v. Nə olub axı?!..

Q ı r m ı z ı  Y a q u b. Başını götür get, qaç, qaç, uçitel, qaç buralardan!.. Bir də ömründə heç vaxt bu tərəflərə gəlmə!..

X o s r o v  Q ı r m ı z ı  Y a q u b u n  yaxasından yapışır. Onu silkələyir. Sonra yavaş-yavaş diz üstə yerə çökür.

X o s r o v. Necə qaç? Necə getmə? Axı, mənim orada üç balam var!.. Ailəm var!..

Q ı r m ı z ı  Y a q u b. Yoxdur... uçitel... sənin... orada... daha... heç... kimin... yoxdur... Apardı, taun apardı hamını!..

X o s r o v  eləcə diz üstə, altdan yuxarı dəhşətlə Q ı r m ı z ı  Y a q u b a  baxır. L e v  Z i l b e r  onlara yanaşır.

Z i l b e r *(Xosrova baxaraq).* Kto etot nesçastnıy?!..

X o s r o v  diz üstə tonqala baxa-baxa it kimi zingildəyir.

Q ı r m ı z ı  Y a q u b. Etot çelovek... uçitel... russkiy yazık... dayet v şkole... tri malenkix sına... poqibli... tri sına... malenkix... jena... toje poqibla! Sam zdes ne bıl!

Z i l b e r. A kak on oçutilsa zdes? Kak prorvalsya v Qadrut? Ves Qadrut ved okrujen?!

Q ı r m ı z ı  Y a q u b. Ne znayu! Kak ptisa! Kak ptisa! Kak ptisa!

M ü ə l l i f. Və Qırmızı Yaqubun gözləri doldu. Azərbaycanda, sovet hakimiyyəti qurulandan sonra, 9 il ərzində başqalarını ağladan bu adam, bu bolşevik, bu «Qırmızı» ləqəbli milis işçisi, indi özü uşaq kimi içini çəkə-çəkə ağlamağa başladı. Professor Lev Zilber də, Qırmızı Yaqub da, dizləri üstə çöküb xəstə bir parıltı ilə işıldayan gözlərini tonqala zilləyərək xırıltılı səslə it kimi

qırıq-qırıq zingildəyən Xosrov müəllimə baxırdılar. Həmin gecəyarısı Hadrutdakı o tonqal eləcə yandı, sonra o alov zəiflədi, söndü. O yerləri yenə də gecənin qaranlığı aldı. Tamam sakitlik çökdü. İndi bu yerlər tamam bomboş idi. Bir azdan səhər açılacaqdı. Sonra günlər, aylar, illər ötəcəkdi və o zaman o tonqal yerinin izi-sorağı da qalmayacaqdı, o tonqal yerində çiçəklər açacaqdı. Sosializm, kommunizm qurulacaqdı. Kapital dünyası məhv ediləcəkdi, bütün dünya proletariatı azad olacaqdı.

İşıq sönür.

## SƏKKİZİNCİ ŞƏKİL

Ələsgər, Əflatun, Cümşüdlü.
1939-cu il. Bakı. Məktəb. Məktəbin direktoru Ələsgər müəllimin kabineti. Məktəbin partiya təşkilatının sədri Əflatun müəllim hövlnak Ələsgər müəllimin kabinetinə daxil olur.

Əflatun. Görürsünüz, bu maskalanmış düşmənləri, Ələsgər məllim?! Kirovu, o adı nədir, şey... Mij... Mej... Menj... Menjinskini, Kuybışevi, Qorkinin yazıq oğlunu, Qorkinin özünü bu şpionlar necə öldürdülər?!. Svoluşlar, Molotovu, Kaqanoviçi, Voroşilovu, hətta, hətta... o adı nədir, şey, adamın dili də gəlmir desin, hətta əziz atamız Stalin yoldaşı öldürmək istəyirmişlər... Ay siz öləsiz!.. Qoymarıq!.. Biz, o adı nədir, şey, sayıq dayanmışıq keşikdə!.. Svoluşlar!.. Ancaq, Ələsgər müəllim, biz hələ bir dənə də olsun buxarinçini, əclaf rıkovçunu ifşa eləməmişik. Mən elə bilirəm ki, Ələsgər müəllim, bu bizim üçün, o adı nədir, şey, pazordur...

Ələsgər. Ay Əflatun müəllim, sən, axı, humanist adamsan, xeyirxahsan, hamıya yaxşılıq eləmək istəyirsən, tələsmə... ancaq tələsmə...

Əflatun *(son ümidlə)*. Onda gəlin, bizim məktəb, o adı nədir, şey, məsələ qaldırsın, Təzə Piri söksünlər, Təzə Pir dayanıb camaatın gözünün qabağında, o adı nədir, şey, dini təbliğ eləyir...

Pauza.

Ələsgər *(güclə özünə gəlir)*. Hə, bax, bu yaxşı fikirdir, Əflatun müəllim!.. Ancaq sən tələsmə... hələ tələsmə...

Ə f l a t u n. Keçən dəfə... o adı nədir, şey, getmişdim 5 nömrəli məktəbə. Bilirsən necə qabaqlayıblar bizi?! Orda «izhari-nifrət» mitinqində çıxış edən məllimlər, şagirdlər xalq düşmənləri Əhməd Cavada, Abbas Mirzə Şərifzadəyə, Salman Mümtaza, daha kimlərə, o adı nədir, şey, nifrətlərini izhar edirdilər. Şagirdlər həbs edilmiş atalarını lənətləyib, o adı nədir, şey, deyirdilər: «Mən bilirdim ki, atam belə əclafdır». Bax, onda, Ələsgər məllim, mənim, o adı nədir, şey, siyasi keşikdə dayanmaq, şey, ehtirasım coşurdu!.. O şagirdlərə qulaq asırdım, malades onlara, əsl komsomolçu, əsl pionerdilər də, Ələsgər məllim, ancaq biz isə, o adı nədir, şey, dayanmışıq bir kənarda...

Ə l ə s g ə r. Sən tələsmə, Əflatun müəllim, yüz ölç, bir biç...

Ə f l a t u n. Bəs, raykom, Ələsgər məllim? Məndən, o adı nədir, şey, tələb edirlər axı?! Deyirlər, niyə xalq düşməni ifşa etmirsən? Məni bura niyə göndəriblər?

Ə l ə s g ə r. Raykomda da hamısı alicənab adamlardı da, ay Əflatun müəllim... Hamısı xeyirxah, sənin kimi təmiz adamlardı da!..

Ə f l a t u n. Bilirəm də, ancaq... *(Qətiyyətlə)* Növbəti partiya iclasında, o adı nədir, şey, Xosrov məllimin məsələsini müzakirə etmək lazımdı!

Ə l ə s g ə r *(daxili bir həyəcanla).* Ay Əflatun müəllim, o yazıqdan da xalq düşməni olar?! Görmürsən, qaragünün biridi, dərdin-sərin içindədi?..

Ə f l a t u n. Elə məsələ də bundadı da, Ələsgər məllim, nəyin dərdini çəkir o, hə?! Nəyin?!. Niyə öz şəxsi, o adı, nədir, şey, kədərini ictimai işlərdən üstün tutur?! Biz bu cür xoşbəxt həyat qurmuşuq, sosializm təntənəsi içindəyik, yoldaş Stalinlə bir dövrdə yaşayırıq, onun o, adı nədir, şey, nəfəs aldığı hava ilə nəfəs alırıq, ancaq bu, o adı nədir, şey, dərd çəkir! Bəlkə, elə sosializmin təntənəsinin dərdini çəkir, hə?!

Ə l ə s g ə r. Yox, yox, elə deyil, Əflatun müəllim... Sən özün insan psixologiyasının gözəl bilicisisən, elə deyil?

Ə f l a t u n *(bilmir nə desin).* Mən... Şey...

Ə l ə s g ə r. Elədi, əlbəttə, elədi...Ona görə də mən sənin xətrini yerlə göy qədər istəyirəm! Özün yaxşı bilirsən, hərənin bir xasiyyəti olur, bu Xosrov da belə adamdı də...

Ə f l a t u n. İnanın mənə, Ələsgər məllim, Xosrov gizlin, o adı

nədir, şey, trotskiçidi, ya da, o adı nədir, şey, zinovyevçidi! Gözlərindən görürəm!

Ə l ə s g ə r. Düz adamsan də!.. Sənin bu cürə sayıq olmağın əla işdir, amma tələsmə, Əflatun müəllim, yüz ölç, bir biç, xəstə tələsər, armud vaxtında dəyər. Vallah, görərsən, sən elə bir xalq düşməni ifşa edəcəksən ki, hamı sənə əhsən deyəcək! Amma tələsmə... İndi məni bağışla, yaman yorulmuşam, mən gedim... Qar da, deyəsən, bərkiyir, sağ ol. Sağ ol, özün də tələsmə, Əflatun müəllim, tələsmə...

İkisi də otaqdan çıxır. Ə l ə s g ə r m ü ə l l i m tələsik səhnədən gedir. Bu an əks tərəfdən rayon partiya komitəsinin şöbə müdiri C ü m ş ü d l ü görünür. Ə f l a t u n m ü ə l l i m cəld ona yaxınlaşır.

Ə f l a t u n. Yoldaş Cümşüdlü, mənim sizə sözüm var.

C ü m ş ü d l ü. Eşidirəm.

Ə f l a t u n. Siz özünüz bilirsiz ki, mən, o adı nədir, şey, partiyaçıyam. Əziz atamız Stalin yoldaşın kollekti... şey... kollektivləşdirmə siyasətinin şərəfinə oğlumun adını «Kolxoz» qoymuşam. Partiya iclaslarından tutmuş pioner toplantılarına qədər, bütün iclaslarda çıxış edirəm. Hamını da, o adı nədir, şey, xalq düşmənlərinin əhatəsində həmişə sayıq olmağa çağırıram, şübhəli adamlar haqqında, o adı nədir, şey, materiallar toplayıram... *(Ora-bura baxaraq, pıçıltıyla)* Lazımi yerlərə siqnallar verirəm... Amma məktəb müdiri Ələsgər məllim liberallıq edir. Mən özüm tramvay sürənlikdən gəlib partiya təşkilatının katibi olmuşam. Hələ tramvay parkında işləyəndə, bir konduktoru, iki tramvaysürəni zinovyevçi kimi, trotskiçi kimi ifşa etmişəm... Amma burada Ələsgər məllim... *(Ehtiyatla)* Mən də hamı kimi bilirəm ki, o qubalıdı, yoldaş Mir Cəfər Bağırovun yerlisidi, onu şəxsən tanıyır, uşaqlıqları bir yerdə keçib... Amma Ələsgər məllimin liberallığı...

C ü m ş ü d l ü *(qəzəblə)*. Məni provakasiyaya çəkmək istəyirsən?! Məndən söz almaq istəyirsən?!. Sənin kimilərini mən çox görmüşəm!.. Əlindən başqa bir iş gəlmir, istəyirsən provakasiya edəsən?! O qədər ifşa etməyə adam var ki, gör gəlib kimdən pıçıldayır raykomun qulağına?! Maymaq oğlu maymaq! Get kollektivdə xalq düşməni tap, ifşa elə!

Ə f l a t u n. Qoymur axı...

C ü m ş ü d l ü. Qoymur?!

Ə f l a t u n. Hə, o adı nədir, şey...

C ü m ş ü d l ü. Onda sənin özünü xalq düşməni kimi ifşa edərik!

C ü m ş ü d l ü iti addımlarla səhnədən çıxır. Ə f l a t u n onun ardınca baxır, sonra yenə də ona tərəf qaçır.

İ ş ı q s ö n ü r.

## DOQQUZUNCU ŞƏKİL

Ə l ə s g ə r, F i r u z ə, A r z u, F i r i d u n, X ı d ı r, K ə l ə n t ə r, K ə l ə n t ə r i n a r v a d ı, X o s r o v, X o s r o v u n a r v a d ı, Ə l i b a l a, M ü ə l l i f.

Bakı. Ə l ə s g ə r m ü ə l l i m i n evi. Sadə bir otaq. Ə l ə s g ə r m ü ə l l i m i n arvadı F i r u z ə x a n ı m stolu bəzəyir. Divarda S t a l i n i n balaca bir qızla şəkli, «Şahsənəm», «Koroğlu» və o dövrün başqa tamaşalarının afişaları asılıb. Ə l ə s g ə r m ü ə l l i m əllərini silə-silə otağa daxil olur.

F i r u z ə. Bəs niyə belə gec gəldin?

Ə l ə s g ə r. Əşi, o Əflatun müəllimin əlindən güclə qurtarıb gəlmişəm. Pay atonnan! İnsan necə mərdimazar olarmış! O zalım oğluna imkan versən...

F i r u z ə. O tramvaysürəni görüm elə tramvay altında qalsın! Onu görüm qara torpağa girsin!

Ə l ə s g ə r. Qarğış eləmə. O da adamdı də, insandı, uşaqları var...

F i r u z ə. Başqaları bəs adam deyil?! Başqalarının uşağı yoxdu?! Yazıq Əvəz bəy, gör o ağsaqqal kişinin başına nə oyunlar açıblar ki, deyib, Türkiyə şpionuyam... Fransada oxuyub, heç olmasa, boynuna qoyaydılar ki, fransız şpionudur. Bədbəxt oğlu bədbəxt... Arvadını, qızını da sürgün ediblər Qazaxıstana...

Ə l ə s g ə r. Bir az yavaş danış...

F i r u z ə. Day bundan da yavaş necə danışım, ürəyim partlayır axı! Bir məmləkətdə ki, tramvaysürəni birdən-birə məktəbdə partiya təşkilatının katibi qoyalar, onda belə olar də...

Ə l ə s g ə r *(söhbəti dəyişir).* Yaxşı, nə kömək edim sənə?

F i r u z ə. Sağlığın! Dincəl bir az. Özün də darıxma, Allah qoysa, yaxşı qonaqlıq olacaq.

M ü ə l l i f. Qəribədir, həmişə belə bir gözlənilməz soyuq düşəndə, qar yağanda, Ələsgər müəllimin içini bir narahatlıq bürüyürdü, amma bugünkü soyuq, bu qar, indi bu adamın ürəyinə sovet hakimiyyəti qurulandan bəri hiss etmədiyi bir coşğunluq, bir ruh yüksəkliyi, hətta ağlasığmaz olsa da, bir hərarət gətirmişdi. Qəribədir, qar və hərarət! Elə bil lopa-lopa yağan o ağ qar, daha dünyanın qara yox, ağ günlərindən xəbər verirdi... Bu gün yeganə qızının ad günü idi, bəlkə ona görə belə idi? Amma... amma lap dərində, o dərinə ki, ora yol çox uzaq idi, qarın o hərarəti elə bil ki, gedib ora çata bilmirdi və orada yenə də... yenə də nəsə bir narahatlıq qalmaqda idi.

F i r u z ə *(gülümsəyir).* Sən elə həmişə narahatsan də... Bir yerə gedəndə, neçə saat əvvəl hazırlaşıb oturursan. Kislavodskiyə gedəndə, yayda, qatarın tərpənməyinə üç saat qalmış bizi vağzala aparırdın... Eh, hayıf deyildi o sakit günlər!.. Qədrini bilmirmişik!

Ə l ə s g ə r. Bir şey almaq lazım deyil?

F i r u z ə. Yox, hər şey var, narahat olma.

Ə l ə s g ə r. Çörək az deyil?

F i r u z ə. Yox, yox, sən narahat olma də, hər şey var. *(Otaqdan çıxır.)*

Ə l ə s g ə r *(pəncərəyə yaxınlaşır).* Amma bu gözəl qardan olmaz ha!..

F i r u z ə *(yenidən otağa daxil olur).* Maşallah, Arzunun əlindən evdə albuxara qalmır, bunları gizlədib saxlamışdım bu gün üçün. Bu da Ordubad ləpəsi!.. *(Əlindəkiləri mizin üstünə düzə-düzə, yavaşdan)* Ay Ələsgər, bilmirəm niyə, amma səhərdən bəri, Allah qəni-qəni rəhmət eləsin, professor Fazil Ziya yadıma düşüb. Necə deyərdi? «Tez-tez teatra gedin, plov yeyin, üzünüz gülsün həmişə!..» Yazıq kişiyə, bütün Bakının tanıyıb hörmət etdiyi bir həkimə necə də «pantürkist» adı qoyub, güllələdilər!.. *(Daha da yavaşdan)* Allah sizə lənət eləsin! Gördüyünüz işlər öz başınıza gəlsin!

Ə l ə s g ə r. Nə isə, belə bir gündə bu sayaq işləri yada salmaq, fikirləşmək lazım deyil.

A r z u otağa daxil olur.

A r z u . Ata, Əvəz bəy də gələcək bu gün?

Ə l ə s g ə r. Sən daha Əvəz babanın adını çəkmə.

A r z u . Niyə?

Ə l ə s g ə r. Belə məsləhətdi.

A r z u . Niyə belə məsləhətdi?

F i r u z ə . Qızım, get paltarını dəyiş, təzə donunu geyin. İndicə qonaqlarımız gələcək.

A r z u o biri otağa keçir.

Ə l ə s g ə r *(qızın ardınca baxaraq)*. Məktəbdə Pavlik Morozovçular dəstəsinin ən fəal üzvüdü, dünən arakəsmədə dayanıb baxıram ki, dəstənin divar qəzetində Hüseyn Cavidi pionerlərin düşməni kimi ifşa edib...

F i r u z ə. Ələsgər, hələ başa düşmür... uşaqdır də... Uşaqdır, başa salarsan, gedər ağzından bir söz qaçırar... Allah iraq eləsin!

Ə l ə s g ə r *(az qala pıçıltı ilə)*. O boyda bir insanı, Cavid əfəndini deyirəm, necə də məhv etdilər?! Vallah, fikirləşəndə ürəyimdən qapqara qanlar axır! Məsələ müsəlmanlıqda, xristianlıqda deyil! Bunların mayasında sökmək, dağıtmaq, kor qoymaq, yerlə yeksan etmək, ocaqları söndürmək var! Bunların etiqadı şeytanadır! Oğul atanı satır, qardaş qardaşı ifşa edir, qız anadan imtina edir, arvad ərindən Partiya təşkilatına şikayət ərizəsi yazır, bacı bacıdan casusluq edir, məscidlər, kilsələr dağıdılır... Adam arvadı ilə danışanda da qorxur ki, siyasi səhv buraxar! Bunun axırı nə olacaq?! Bu necə zəmanədir, necə quruluşdur?! Hansı dövrdə, hansı quruluşda bu qədər qorxu olub?!

F i r u z ə. Özün demədin ki, bu gün gərək bunlar barədə fikirləşməyək? Qanını qaraltma, indi qonaqlar gələcək...

Ə l ə s g ə r *(heç cürə özünü ələ ala bilmir, tamam pərişan)*. Adam özü özündən ehtiyat edir... *(Divardakı tamaşa afişalarını göstərir.)* İndi o adam ki, bu əlifba ilə yox, ərəb əlifbası ilə oxuyur, deməli, xalq düşmənidir! Belə də zülm olar?!

F i r u z ə x a n ı m S t a l i n i n divardan asılmış portretinə tərəf çevrilib iki əli ilə də ona kül qoyur.

F i r u z ə. Ala e!..

Ə l ə s g ə r. Axı, ay başınıza dönüm, bu ərəb əlifbası ilə bu

bədbəxt xalq min ildi ki, yazıb oxuyur! Evində ərəb əlifbası ilə kitab varsa, deməli, sən sovet hökumətinin düşmənisən, Müsavatın agentisən, millətçisən, panislamistsən, pantürkistsən?! Kimə başa salasan ki, bu əlifba ilə Füzuli yazıb, Vaqif yazıb!

F i r u z ə. Eh, tək kitabdır bəyəm?! Bunlar daşlarla da düşmənçilik edirlər. Bibiheybəti, o gözəl məscidi, görmədin, yerlə yeksan etdilər?!.

Ə l ə s g ə r. Dünyanın ən günahsız yeri qəbiristanlıqdır, ora da əl atırlar, məqbərələri dağıdırlar, orada da bəd əməllər axtarırlar. Yaxşı, ay əclaflar, ay vicdansızlar, ay nankorlar, ay adını yeni həyat qurucusu qoyub həyatı dağıdanlar, yaxşı, deyək ki, məscidlər müsəlmanınkıdır, bəs, Bakının ən gözəl yerindəki o nəhəng Aleksandr kilsəsinin niyə daşını daş üstə qoymadız, uçurtduz, yox etdiz?!

F i r u z ə. Sakit ol, qoy cəhənnəm olsunlar, bəsdir...

Pauza.

Kimləri çağırmısan?

Ə l ə s g ə r. Özün bilirsən də... Əlibala müəllimdi, Firudin müəllimdi, Kələntər müəllimdi, bir də... Xıdır müəllimi çağırdım...

F i r u z ə. O idman müəllimini?

Ə l ə s g ə r. Neyləyim? O da mərdimazarın biridir, istəmirəm tramvayçıyla birləşib camaatın başına müsibət açsın!.. Xosrov müəllimdi...

F i r u z ə. Xosrov müəllim arvadı ilə gələcək?

Ə l ə s g ə r. Hə, yəqin ki... Demişəm, ikiniz gəlin.

F i r u z ə. Sən görməmisən onun arvadını?

Ə l ə s g ə r. Yox, harada görəcəyəm ki?...

F i r u z ə. Yaxşı adamdır Xosrov müəllim, torpağı sanı yaşasın, rəhmətlik dədəmə oxşayır, dindirməsən, dinən deyil. Yaxşı etdi, evləndi, heç olmasa, bir gün görər. Elə deyil, sən Allah?!

Ə l ə s g ə r. Təki elə olsun, fağır adamdır.

F i r u z ə. Kaş Xosrov müəllimin arvadı özünə layiq çıxsın.

Ə l ə s g ə r. Layiq olar, niyə olmasın? Bəyənib ərə gedibsə, yaxşı olar, uşaq deyillər ki...

F i r u z ə. O yazıq paltosunun düymələrini özü tikirdi. Bizdə çıxarıb asanda görmüşdüm. İndi, heç olmasa, fağır, bir gün görər... Ay Ələsgər, amma bir az havalı adama oxşayır e, Xosrov müəllim...

Ə l ə s g ə r. Mən elə bir şey hiss etməmişəm. Düzdü, hərdən elə bil ki, heç nə eşitmir, heç nə görmür, hansısa, tamam başqa bir aləmin içindədi. Bir də görürsən, rəngi ağardı... Hərdən içində kimləsə danışır... Nə bilim, insandır də...

F i r u z ə. Eh, hərənin yüz cürə dərdi-səri var. Amma yaxşı adamdı, priliçni adamdır ey, priliçni, abırlı, həyalıdı. Allah bilir, başı nələr çəkib?! Deyirlər, qabaq ailəsi varmış, hamsı da birdən qırılıb, hə, bədbəxtin, ay Ələsgər?

Ə l ə s g ə r. Belə danışırlar. Vallah, nə bilim, dəhşətdir...

F i r u z ə. Dəhşət olmayanda, bəs nədir?!

A r z u otağa daxil olur. F i r u z ə söhbəti dəyişir.

Oy, bu don sənə necə yaraşır?!

Ə l ə s g ə r. Mübarəkdi!

A r z u. Bundan sonra, evdə həftədə bir dəfə divar qəzeti çıxaracağam!

F i r u z ə. A-a-a... evdə də divar qəzeti olar?

A r z u. Olar! Mən çıxaracağam, siz də baxacaqsız! Sizə deməyə sözlərim var!

F i r u z ə. O sözləri elə ağzınla de, biz də qulaq asaq də...

A r z u. Yox, onları divar qəzetində yazacağam! Baş məqalədə sizi tənqid edəcəyəm!

Ə l ə s g ə r. Bizi?!

A r z u. Hə, sizi! «Koroğlu» operasını da tənqid edəcəyəm!

F i r u z ə. A-a-a... Bəs, o operadan xoşun gəlirdi?! Neçə dəfə baxmışdın, məni də dartıb aparmışdın ora?!

A r z u. Əvvəllər xoşum gəlirdi. Bəstəkar bizim gözümüzə kül üfürüb, indi başa düşürəm! Bəstəkar Üzeyir Hacıbəyov ona görə «Koroğlu»nu yazıb ki, müasir mövzuda opera yazmasın! Bəstəkar müasir mövzudan qaçıb! O opera, gərək kolxozdan olaydı! İndi xan, padşah yoxdur. Koroğlu, gərək qolçomaqlara qarşı mübarizə aparaydı! Kitabxanada pioner disputu keçirəcəyik. Mən bu barədə məruzə edəcəyəm, bəstəkarı da çağıracayıq ki, nəticə çıxarsın!

Ə l ə s g ə r. Tarix bəyəm bizim deyil?! Koroğlu qəhrəman olub, xalqın azadlığı uğrunda xanlarla, sultanlarla döyüşə girib...

A r z u. Bəs Pavlik Morozov?!

Ə l ə s g ə r. O da qəhrəmandır. Mən bir söz demirəm ki...

A r z u. Koroğlu xanlara qarşı vuruşub, Pavlik Morozov isə qol-

çomaqlara qarşı. Hətta atasını da, babasını da ifşa edib! Hansı vacibdir?! «Koroğlu» operası gərək müasir mövzuda olaydı.

Ə l ə s g ə r. Axı, hər mövzunun öz yeri var də...

Pauza.

A r z u *(diqqətlə atasına baxaraq)*. Sən müasir mövzunun əleyhinəsən?

Ə l ə s g ə r *(hürkmüş)*. Yox, əleyhinə deyiləm...

A r z u. Qurtardı getdi! *(Əlindəki kağızı göstərir.)* Bu, sorğu anketidir, pioner baş dəstə rəhbərimiz paylayıb. Beş sual var burda, hamısına cavab yazmışam, qulaq asın! *(Əlindəki kağızı oxuyur.)* Birinci sual – «Ən çox sevdiyin insan?» Cavab – «İosif Vissarionoviç Stalin!» *(Ələsgər müəllimə)* Guya ki, başqa cavab ola bilər?..

Ə l ə s g ə r. Hə də!..

A r z u *(oxuyur)*. İkinci sual – «Sənə ən doğma adam?» Cavab – «İosif Vissarionoviç Stalin!» *(Firuzəyə)* Düzdü?

F i r u z ə. Vallah...

Ə l ə s g ə r *(tələsik arvadının sözünü kəsir)*. Əlbəttə, düzdü!

A r z u *(oxuyur)*. Üçüncü sual – «Ən çox sevdiyin ədəbi qəhrəman?» Cavab – «Pavlik Morozov!» Dördüncü sual – «Ən çox sevdiyin yazıçı?» Cavab – «Sevimli qəhrəman Pavlik Marozov haqqında əsər yazmış Vitaliy Qubarev!» Beşinci sual – «Kimə nifrət edirsən?» Cavab – «Hüseyn Cavidə, Əhməd Cavada, Abbas Mirzə Şərifzadəyə, Mikayıl Müşfiqə, Ülvi Rəcəbə və bütün başqa alçaq faşistlərə! Çünki onlar sovet pionerlərinin xoşbəxt həyatını məhv etmək istəyirdilər!» Necədir?

Pauza.

Hə?

Ə l ə s g ə r. Yaxşıdır...

A r z u *(Stalinlə ona gül verən balaca qızın divardan asılmış şəklini göstərir)*. O şəklin də, bude, balacasını almışam. *(Göstərir.)* Divar qəzetinin ortasına yapışdıracağam. Bu, qəzetin daimi materialı olacaq! Çünki, Stalin baba ilə qucaqlaşan o qız, dünyanın ən bəxtəvər qızı Gelya Markizovadır. Stalin baba onu qucaqlayıb öpür. Gerya Markizova ən xoşbəxt sovet qızıdır. *(Şəkli öpür və otaqdan çıxır.)*

Ələsgər məəttəl qalır.

F i r u z ə. Arzuya dil yetirmək çətin məsələdi. Zəmanə uşağıdı də, qoy belə də olsun, diribaş olsun. Qız uşağıdı... Biz ömrü boyu onun yanında olmayacayıq ki, günlərin bir günü köçüb gedəcəyik bu dünyadan. Qoy, Arzu öz haqqını tələb etməyi bacarsın. İndiki zəmanə ki, Əflatun kimi adamları yetişdirib, qoy Arzu həmin adamlarla danışmağı bacarsın!

Ə l ə s g ə r. Nə deyim, vallah...

M ü ə l l i f. Əlbəttə, Arzunun xəbəri yox idi ki, indi, bu gün, bax, bu qış günü o balaca qız, həmin o Gelya Markizova Qazaxıstanda sürgündədir. Bu qızın atası Buryat Muxtar Sovet Respublikasını yaradanlardan biri, görkəmli buryat bolşeviki Ərdan Markizov 1937-ci ildə xalq düşməni kimi ifşa olunub və onu yapon casusu kimi güllələyiblər. Gelyanın anasını həbs ediblər. Gelya, özündən iki yaş böyük qardaşı ilə tək qalıb, ata yox, ana yox, Stalinin Kremldə o balaca buryat qızına bağışladığı bir patefonla, bax, o şəkil isə onlara yadigar qalıb...

F i r u z ə. Hə, zəmanə uşağıdır. Qoy, belə də olsun. Belə olmasa, Əflatun kimi nadürüstlərlə bir ölkədə yaşamaq çətin olar.

Qapı döyülür və ər-arvad bu qəfil qapı döyüntüsündən
ürküb bir-birinə baxır.

Pauza.

A r z u *(qaça-qaça gəlir).* Qonaqlar gəldi...

Ə l ə s g ə r  m ü ə l l i m gedib qapını açır. F i r i d u n  m ü ə l l i m
arvadı ilə daxil olur.

Ə l ə s g ə r. Xoş gəlmisiniz! Buyurun!

F i r u z ə. Xoş gəlmisiniz! Keçin!

F i r i d u n . Axşamınız xeyir! Xoş günlərə gələk. Əcəb qar yağır.

Ə l ə s g ə r. Hə, tərtəmiz, ağappaq... Soyunun, buyurun!

F i r i d u n. Səni təbrik edirik! Böyük qız olasan! Xoşbəxt olasan!

A r z u. Sağ olun! Mən onsuz da xoşbəxt sovet pioneriyəm!

F i r i d u n *(gülür).* Sən bir bunun dilinə bax e!..

F i r i d u n u n  a r v a d ı . Zəmanə uşağıdır də!

X ı d ı r  m ü ə l l i m daxil olur. Sonra K ə l ə n t ə r  m ü ə l l i m arvadı ilə gəlir. Görüşürlər.

K ə l ə n t ə r *(mizə baxaraq).* Əla! Əla! Mənim bəxtim lap əvvəldən gətirib. Yeddi qız atası olanda, nə olar?! Bizim arvad yarımca kilo ətdən o qədər çoxlu, özü də dadlı xörək bişirir ki, yeyib qurtara bilmirik! Heç nədən bir şey bişirir! Allaha and olsun! Qarın da ki, tox oldu, vəssalam, deməli, işlər əladır, kimyanı da uşaqlara yaxşı öyrədəcəksən!

Qapı döyülür. Ə l i b a l a  m ü ə l l i m  və X ı d ı r  Q a f a r z a d ə gəlirlər. Görüşürlər.

Ə l ə s g ə r. Yenə vurmusan?

Ə l i b a l a *(qulağına).* Əşşi, vurmayım, nə edim?! Görmürsən, nə qayırırlar, köpəyuşağı?! Mən də köhnə kommunistəm də, biz belə demişdik bəyəm?! *(Bərkdən)* Bizim Sofya Kovalevskayamızın bu gün on üç yaşı tamam olur. İndi bunu ancaq biz qeyd edirik. Gələcək yubileylərini isə, bütün elmi ictimaiyyət qeyd edəcək! Görərsiniz! Riyaziyyatda bu qızın istedadına söz yoxdur!

Yenə qapı döyülür. X o s r o v  m ü ə l l i m arvadı ilə daxil olur. Hamı stolun arxasında əyləşir.

Ə l ə s g ə r. Gəlin, Kələntər müəllimi masabəyi seçək!

Səs-küy.

– Əla!

– Çox gözəl!

– Mübarək olsun!

K ə l ə n t ə r *(ayağa qalxır).* Onda badələri, qədəhləri doldurun, mənə də konyak süzün!..

Ə l ə s g ə r qədəhləri doldurur.

*(Arzuya baxaraq).* Əziz dostlar, bu gün bizim bu gözəl qızımızın...

X ı d ı r  Q a f a r z a d ə *(ayağa qalxaraq onun sözünü kəsir).* Bir dəqiqə! Bir dəqiqə, yoldaşlar! İcazə verin, bu gözəl gündə ilk

sözü mən deyim! Mən bir söz deyim, ondan sonra Kələntər müəllim nə qədər istəyir, söz desin! Ürəyimdə sözüm var, yoldaşlar! Onu gərək deyim! Gəlin bü gözəl axşamda ilk qədəhləri atamız, rəhbərimiz, əziz Stalin yoldaşın sağlığına içək! Yaşasın! Min il yaşasın İosif Vissarionoviç Stalin! Tarixin ən müdrik adamıdır yoldaş Stalin! Təsadüfi deyildir ki, yoldaş Stalin yetmiş iki dil bilir! *(Qədəhi başına çəkir, sonra boş qədəhi tərsinə stolun üstünə qoyur.)*

Pauza.

Ə l ə s g ə r *(cəld ayağa qalxır).* Gözəl sağlıqdır! Qalxın ayağa, dostlar!

Hamı ayağa qalxır.

Xıdır müəllim ürəyimizdən xəbər verdi! Əziz Stalin yoldaşın sağlığına!

X o s r o v *(arvadına).* Sənin sağlığına!

Hamı içir və yenə sakitlik çökür.

İ ş ı q s ö n ü r .

## ONUNCU ŞƏKİL

M i r C ə f ə r B a ğ ı r o v, O s t a ş k o v.
Səhnənin o biri tərəfində işıq yanır. Bakı. İstintaq otağı. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Birinci katibi M i r C ə f ə r B a ğ ı r o v u n eynəyinin girdə və qalın şüşələri işıqda parlayır. Üzgözü qançır içində olan O s t a ş k o v dizləri üstə M i r C ə f ə r B a ğ ı r o v u n qarşısındadır.

O s t a ş k o v . Kak xoroşo çto vı prişli!.. Kak xoroşo çto vı prişli!.. Tovariş Baqirov, eto ya... Ostaşkov... Bıvşiy sekretar Bakinskoqo Komiteta Partii... Ostaşkov... tovariş Baqirov... Vaş soratnik!.. Vı niçeqo ne znayete o koşmarax v NKVD, tovariş Baqirov!.. Eto ujas... Vı ne mojete sebe daje predstavit, tovariş Baqirov!.. Kak xoroşo çto vı prişli... U menya vımoqayut priznaniye v kontrevolyusionnıx prestupleniyax... Vı je znayete menya... Men-

ya znayet tovariş Stalin!.. Kakoy je ya kontrevolyusioner?! Kak xoroşo çto vı prişli!.. Tut fabrikuyut delo na rukovoditeley partii, pravitelstvo, na soratnikov tovarişa Stalina!.. Pomoqite... Pomoqite... Tovariş Baqirov!.. Ya je vmeste s tovarişem Stalinım vel podpolnuyu rabotu v tsarskoy Rossii... V Baku... Vı je znayete eto, tovariş Baqirov! Ya je bıl ryadom s vami... mı je s vami vmeste uniçtojali nastoyaşix vraqov sovetskoqo stroya!.. Pomoqite, tovariş Baqirov!..

Mir Cəfər Bağırov əsəbi halda təpiyi ilə vurub onu yerə sərir və sürətlə səhnədən çıxır.

İşıq sönür.

## ON BİRİNCİ ŞƏKİL

Ələsgər, Firuzə, Kələntər, Kələntərin arvadı, Xıdır Qafarzadə, Xosrov, Xosrovun ikinci arvadı, Əlibala, Arzu.
Yenə səhnənin o biri küncündə işıq yanır. Ələsgər müəllimin evində qonaqlıq davam edir. Kələntər müəllim yenə ayağa qalxır.

Kələntər. Qədəhləri doldurun! Bax, belə!.. Əlibala müəllim, elə-belə söz deyən deyil!.. Bax *(Arzuya baxır.)*, bizim bu gözəl qızımıza deyir ki, Sofya Kovalevskaya olacaq! Mən lap yüz faiz inanıram buna! Ona görə də, bu qədəhləri içək...

Xıdır Qafarzadə *(hövlnak ayağa qalxaraq)*. Əziz dostlar, tamadadan min dəfə üzr istəyirəm ki, onu afsaytda qoyuram. Ancaq ürəyimə bir gözəl sağlıq gəlib ki, onu da mən bu gözəl məclisdə deməliyəm. Bu qədəhləri qaldıraq yoldaş Stalinin yaxın silahdaşı və tələbəsi, Azərbaycan zəhmətkeşlərinin qayğıkeş atası, əziz Mir Cəfər Bağırov yoldaşın sağlığına! Yaşasın, min yaşasın yoldaş Mir Cəfər Bağırov!

Pauza.

Xıdır Qafarzadə əvvəlcə əlindəki qədəhi başına çəkmək istəyir, sonra dayanır və yavaş-yavaş qəzəbə keçən bir təəccüblə bir-bir

məclis əhlinə baxır. X o s r o v  m ü ə l l i m  onun o baxışları altında ayağa qalxır.

X o s r o v *(əsəbi)*. Mir Cəfər Bağırov yoldaş bizim rəhbərimizdir. Düzdür. Amma niyə qoymursuz səhərdən bəri, bu gözəl qızın sağlığına içək?! Bu gözəl qızı təbrik edək?!

Pauza.

Hamı şaşırıb. Ə l ə s g ə r  m ü ə l l i m  özünə gələrək ayağa qalxır.

Ə l ə s g ə r. Bir dəqiqə, Xosrov müəllim, bir dəqiqə! Arzu qaçmır ki, buradadır, özümüzünküdür, sağlığına da içəcəyik, sözümüzü də deyəcəyik. Ancaq bu qədəhləri qaldıraq Xıdır müəllim deyən sağlığa! Doğrusu, bizi qabaqladı Xıdır müəllim. Yaxşı da etdi! Sağ olsun! Yoldaş Mir Cəfər Bağırovun sağlığına! O böyük insan başımızın üstündən əskik olmasın! Yoldaş Stalinin sevimli şagirdi və silahdaşı kimi, həmişə bizə bu cür müdrik rəhbərlik eləsin! Həmişə bizə belə yol göstərsin!

Hamı ayağa qalxıb qədəhləri içir.

İndi isə Arzudan xahiş edək, bizə bir şer desin.

A r z u  səhnənin ortasına gəlir.

A r z u *(sinəsini irəli verərək əzbər söyləyir)*.

Bəşər dühasının sönməz ulduzu,
Əziz rəhbərimiz, atamız Stalin!
Ürəyimiz, sevgimizin sonsuzu
Bil ki, əzəl gündən sənindir, sənin!
Ey bütün ellərin şöhrəti, şanı,
Aparırsan bizi zəfərlərə sən!
Əməlin qərq edib nura cahanı!
Bir nəğmə çağlayır mənim sinəmdən:
Eşq olsun Stalinə!
Yaşasın Stalin!
Həyatın mənası,
Məzmunudur o!

Ə l ə s g ə r  m ü ə l l i m  canfəşanlıqla əl çalır. Qonaqlar da ona baxıb əl çalırlar. Amma səhnədə açıq-aşkar bir pərtlik var. F i r u z ə  patefonu işə salır. Heç kim dinmir.

K ə l ə n t ə r. Yaxşı məclis keçirtdik! Hayıf ki, mən tez getməliyəm. O gün olsun ki... Arzu balanın iyirmi illiyini keçirək...

F i r u z ə. Çox sağ olun...

K ə l ə n t ə r. Firuzə xanımın da süfrəsinə söz ola bilməz...

O biri qonaqlar da qalxırlar. Geyinirlər.

Ə l i b a l a . Çox yaxşı keçdi məclis!.. *(Ələsgərin qulağına)* Ancaq... bu zalım oğlu zalım... Xosrov müəllimin başına Allah bir az ağıl qoysun!..

Ə l ə s g ə r. Fikir vermə, keçdi getdi... Bu barədə nə qədər az söz-söhbət olsa, bir elə yaxşıdı... Heç nə olmayıb, üstünü vurma...

K ə l ə n t ə r *(həyəcanla pıçıldayır).* Qorxuram!.. Qorxuram!.. Yeddi qız atasıyam!..

Ə l ə s g ə r. Sakit ol, əşşi, nə olacaq sənə?! Sənə nə dəxli var?!.

Qonaqlar görüşüb otaqdan çıxırlar. K ə l ə n t ə r l ə Ə l ə s g ə r qalır.

Sakit ol, qazan qaynasa, o bədbəxt oğlu Xosrovun başında qaynayacaq...

K ə l ə n t ə r *(yavaşdan).* Deyirsən, yəni mənə bir şey olmayacaq ki?!

Ə l ə s g ə r. Nə olacaq?.. Heç nə...

K ə l ə n t ə r . Bəs sənə?!

Ə l ə s g ə r *(təlaşla).* Mənə?.. Mənə də, sənin kimi... dəxli yoxdur!

K ə l ə n t ə r . Axı, sənin evində olub?!

Ə l ə s g ə r *(daha artıq bir təlaşla).* Nə olsun?.. Deyirsən yəni, o köpəyoğlu Xıdır gedib xəbər verəcək?!

K ə l ə n t ə r . Mən özüm köhnə bakılıyam... Bu Xıdırgil... Bunlar nəsillikcə pis adam olublar! Bunun atası hambal Orduxan bir kasa bozbaşdan ötrü hazırmış bütün Bakını sata! Allaha təvəkkül!.. Yaxşı, xudahafiz...

K ə l ə n t ə r çıxır. F i r u z ə mizi yığışdırır. A r z u qonaqların ardınca baxır. Ə l ə s g ə r şəstlə A r z u y a .

Ə l ə s g ə r. Hə, Arzu, necə oldu?! Gördün, sənin ad gününü necə keçirtdik?!

A r z u *(eləcə qapıya tərəf baxaraq).* Divar qəzetində Xosrov müəllimi tənqid edəcəyəm!

Ə l ə s g ə r. Niyə?

A r z u. Bəs görmədin?!

Ə l ə s g ə r. Nəyi?..

A r z u. Xosrov müəllim Stalin babanın sevimli şagirdi Mir Cəfər Bağırovun sağlığına içmədi!

Ə l ə s g ə r *(özünü saxlaya bilmir).* Ay qız... Siz necə adamsınız?!. Bəs o, sənin sağlığına içmək istəyirdi də!..

A r z u. Nə olsun? Sən özün dedin ki, mənim sağlığıma həmişə içmək olar. Ancaq rəhbərin sağlığına birinci içmək lazımdır! Sən də bir şeyi düz eləmədin!

Ə l ə s g ə r. Mən?! Nəyi?..

A r z u. Sən dedin, Arzu özümüzünküdür, onun sağlığına sonra içərik. Belə çıxır ki, rəhbərlər özümüzünkü deyil?!

Ə l ə s g ə r *(mat qalıb.)* Mənim daha sənə heç bir sözüm yoxdu...

A r z u. Nədi, düz demirəm?!

Ə l ə s g ə r *(özünü ələ alır).* Özümüzünküdü, əlbəttə... Ola bilsin ki, mən fikrimi düzgün çatdırmamışam... Amma sən də... Xosrov müəllimi düz başa düşməmisən... Xosrov müəllim o cür demək istəmirdi...

A r z u. Bəs nə cür demək istəyirdi?!

Ə l ə s g ə r. Demək istəyirdi ki... Bilirsən, elə şeylər var ki... sən hələ balacasan, başa düşmürsən...

A r z u. Başa düşmürəm?!

Ə l ə s g ə r. Başa düşmürsən... Sən ağıllı qızsan... Amma elə şeylər var ki...

A r z u. Çox yaxşı... Onda, bizim divar qəzetində sən mənə cavab yazarsan!

Ə l ə s g ə r. Belə şeyləri yazmaq olmaz...

A r z u. Niyə?

Pauza.

Arzu otaqdan çıxır.

Ə l ə s g ə r *(özünü sakitləşdirir).* Heç nə olmaz... *(Firuzəyə baxır.)* Sən... sən niyə ağlayırsan?

F i r u z ə *(hıçqıra-hıçqıra).* Görmədin?.. Qorxuram...

Ə l ə s g ə r. Heç nə olmaz! Nə olacaq axı?.. Lap gözəl keçdi qonaqlıq... Bir söz idi... dedi də... sonrası yaxşı oldu... Hər şeyi yuyub apardı... Stalinin də sağlığına içdik, bizimkinin də... Heç nə olmaz...

İ ş ı q s ö n ü r .

## ON İKİNCİ ŞƏKİL

F i r i d u n, Ə l ə s g ə r, Ə l i b a l a, X o s r o v, M ü ə l l i f, X ı d ı r Q a f a r z a d ə.
İşıq yenə səhnənin əks tərəfində yanır. Bakı. Məktəb.

F i r i d u n . O əclafı görürsən?!

Ə l ə s g ə r. Kimi söyürsən? Nə olub axı, sizə? Kimi deyirsən?

F i r i d u n . Necə kimi? Xıdırı! İndicə yaxınlaşıb məndən soruşur ki, dünənki hadisəni bu gün partiya bürosunun iclasına qoyacaqsan, ya yox?! Özü də elə-belə soruşmur ey, hədə ilə soruşur...

Ə l ə s g ə r. Vay, sənin imanına tüpürüm!..

F i r i d u n. Sən də belə adamı məclisə çağırırsan!..

Ə l ə s g ə r. Sizə görə çağırırdım də! Deyirdim ki, o imansızın sizlərlə işi olmasın!.. Mən nə bilim ki, Allah Xosrovun ağlını başından alıb... Nə bilim, qanadıma baxmışdım?!

Ə l i b a l a səhnəyə daxil olur. F i r i d u n gedir.

Ə l i b a l a . Salam.

Ə l ə s g ə r. Salam.

Ə l i b a l a . Nə var, nə yox?

Ə l ə s g ə r. Nə olacaq, sağlığın.

Ə l i b a l a . Bilirsən, nə var?! Dünən içməyimə baxma, araq tutmurdu məni... Bütün gecəni fikirləşmişəm... İyirmi ilin partiyaçısıyam! Uşaq deyiləm mən! Sinəmi qabağa verib Xosrovu müdafiə edəcəyəm! Mən hələ bolşevik vicdanımı itirməmişəm! Amma çoxları itirib!... Mən...

Ə l ə s g ə r. Əşşi, hələ bir dayan görək... Nə olub?..

Ə l i b a l a . Necə, nə olub?! Ay kişi yatmısan?! Bütün mək-

təb soruşur ki, dünən Ələsgər müəllimgildə nə hadisə baş verib? Xıdır yayıb hamıya. Kimi görür, deyir ki, baxarsız nə oyun açacağam o uzun biqeyrətin başına! Xosrovu deyir...

Ə l ə s g ə r. Nə alçaq imiş ə, bu?!.

X o s r o v səhnəyə daxil olur. Ə l i b a l a gedir.

Ə l ə s g ə r. Əşşi, Xosrov müəllim... Sənə nə olacaqdı... onun... o... onun sağlığına içsəydin... hə?.. İstəmirsən, ürəyində başqa sağlığa iç də... Sənin ürəyinə girən var?! Uşaqsan sən?! Bu qədər müddətdir, sən bu zırıltını görmürsən?! İndi nə sarını udmusan?

X o s r o v. Bilmirəm... Vallah bilmirəm... necə oldu... O sözlər ağzımdan çıxdı... Sizi də pis vəziyyətdə qoydum... Mən cəhənnəm, qorxuram sizə də söz gələr...

Ə l ə s g ə r *(təşvişlə)*. Bizə niyə?!... Biz nə etmişik ki?!.

X o s r o v. Nə bilim?.. Adamın ürəyinə hər şey gəlir...

Ə l ə s g ə r. O Xıdırı görmürdün orada sən, ay bədbəxt oğlu?.. Başına söz qəhət idi sənin?! Özün də təzə-təzə bədliyin daşını atmısan... Təzə ailə qurmusan...

X ı d ı r Q a f a r z a d ə daxil olur. X o s r o v gedir.

X ı d ı r Q a f a r z a d ə *(qəzəblə Xosrovun ardınca baxaraq)*. Ələsgər müəllim, bu cür düşməni qanad altına almaq olmaz! Ancaq siz onu... Elə bilirsiz ki, dünən başa düşmədim, siz niyə təzədən Mir Cəfər Bağırov yoldaşın haqqında sağlıq dediz?! Ona görə ki, o düşmənin hərəkətini ört-basdır etmək istəyirdiz! Belə zaşitaya keçməklə, mənim vicdanımı susdura bilməzsiz! Mən açıq adamam... Rinqdə də həmişə açıq vuruşmuşam! Məsləhət görürəm sizə ki, o düşmənə qəyyumluq etməyəsiz! Özünüzə pis olar! Mən bu işi, belə qoymayacağam! Lap Mir Cəfər Bağırovun özünün qəbuluna gedib çıxacağam.

Səhnə yavaş-yavaş qaranlıqlaşır. İşıq yalnız X ı d ı r
Q a f a r z a d ə n i n üzərinə düşür.

M ü ə l l i f. Hücuma keçmək lazımdır, hücuma! Futboldakı kimi! Xıdır Orduxan oğlu Qafarzadə nə vaxta qədər dayanıb gözləyəcəkdi?! Nə vaxta qədər adi bir məktəbdə adi idman müəllimi

olacaqdı?! Hücuma keçmək lazımdır! Xıdır bütün gecəni yatmamışdı, səhərə kimi fikirləşmişdi. Hücum olmasa, qələbə də olmayacaq! Bir qara qəpiyə dəyməyən adamlar, görürsən ki, sayıqlıq edir! Hücuma keçir! Xosrov müəllim kimilərini ifşa edir! Yüksək mərtəbələrə qalxır! Lap nazir müavini olur! Bəs Xıdır? Xıdırın onlardan nəyi əskikdir?! Xıdırın bir barmağı ilə qaldırdığı daşı, onlar iki əli ilə də hıqqına-hıqqına qaldıra bilməz! Özü də zəhmətkeş ailəsindən çıxıb! Bu hökumət Xıdırın hökuməti deyil?! Bu quruluş zəhmətkeş quruluşu deyil? Kim Azərbaycan idmanına Xıdırdan yaxşı rəhbərlik edə bilər?! İdmanı beş barmağı kimi bilir! İdmançıların hamısını tanıyır! Amma Xıdırı heç kim tanımır. Çünki Xıdır həyatdan geri qalır! Xıdırın qorxmazlığı, Xıdırın kişiliyi, Xıdırın gücü bütün Azərbaycan idmanına lazımdır! Bu qeyrətsiz, vicdansız Xosrovun ifşası Xıdır üçün məşq olmalıdır! Bu məşqdən sonra böyük oyunlar başlayacaq! Xıdır xalq düşmənlərini ifşa edəcək! Özü də bu ölüvay Əflatun kimi yox! «O adı nədir, şey»dən başqa heç nə bilmir, amma tramvaysürəndən gətirib məktəbin partiya təşkilatının katibi eləyiblər. Qabağa düşəcək, bir-ikisini də burada düşmən kimi ifşa edəcək, sabah da aparıb qoyacaqlar maarif müdiri! Yox, Xıdır bu fürsətdən istifadə etməlidir! Xıdır Azərbaycan idmanına rəhbərlik edəcək! Xıdır öz arzusunu güclü əzələləri ilə həyatın boğazından dartıb çıxardacaq! İstədiyinə nail olacaq! Tribunada partiya və sovet rəhbərləri ilə bir yerdə dayanıb, idmançıların paradını qəbul edəcək! Mir Cəfər Bağırov Xıdırı şəxsən tanıyacaq! Lap... Lap sovet idmanında xidmətlərinə görə Mixail İvanoviç Kalinin Xıdıra orden də verəcək! Niyə olmur?! Xıdır buna layiqdir! Bəlkə... Bəlkə elə yoldaş Stalin özü də Xıdırın adını eşidəcək. Axı, yoldaş Stalin sovet idmançılarının ən birinci dostudur! Hücuma keçmək lazımdır, hücuma!..

İşıq yenə güclənir və X ı d ı r  Q a f a r z a d ə bayaqkı kimi yenə Ə l ə s g ə r  m ü ə l l i m l ə üz-üzə dayanıb.

M ü ə l l i f. Xıdır müəllim, əlbəttə, indicə gedib lazımi orqanlara xəbər verəcəkdi. Xosrov müəllimin dünənki hərəkətini şeytanlayacaqdı və Xıdırın gözlərinin içinə baxan Ələsgər müəllimin buna daha heç bir şübhəsi yox idi...

Pauza.

Bu alçaq Xıdır müəllim camaatı bədbəxt edəcəkdi...

Pauza.

Hamını bədbəxt edəcəkdi!.. Hamını!.. Firudin müəllimi də, Kələntər müəllimi də, Əlibala müəllimi də... O, Allah ağlını almış Xosrov müəllimi də...

Pauza.

Ələsgərin özünü də...

Ə l ə s g ə r *(birdən diksinir).* Məni niyə?! Məni niyə?!

Səhnə qaranlıqlaşır.
İşıq yalnız Ə l ə s g ə r  m ü ə l l i m i n  üzərinə düşür.

M ü ə l l i f *(qaranlıqdan).* Bu hökumət şeytan əməlidir... Bu hökumətin Allaha dəxli yoxdu... Bədbəxtin birinin bir sözündən ötrü bu qədər camaat güdaza gedəcək...

Ə l ə s g ə r  m ü ə l l i m , elə bil ki, boğulur, havası çatışmır, həyəcanla yaxasının düymələrini açır.

Pauza.

Heç nə etmək mümkün deyil... Onda... onda elə Ələsgərin özü raykoma zəng edib xəbər versin...

Ə l ə s g ə r  m ü ə l l i m  telefona yaxınlaşır.

Pauza.

Ə l ə s g ə r *(titrəyən əli ilə telefonun dəstəyini götürüb, nömrəni yıxır).* Alo... Yoldaş Cümşüdlü, sizsiz?

İkinci işıq telefon dəstəyini qulağına tutmuş
C ü m ş ü d l ü n ü n  üzərinə düşür.

C ü m ş ü d l ü. Eşidirəm sizi!

İşıqlar sönür, sonra səhnə tam işıqlanır. Ə l ə s g ə r  m ü ə l l i m ,  əlində portfel, bir tərəfdə dayanaraq başını aşağı salıb. Səhnənin dərinliyində xüsusi bir həvəslə idman edən X ı d ı r  Q a f a r z a d ə  görünür.

M ü ə l l i f. Ancaq indi Xıdırın da, Ələsgər müəllimin də ağlına gəlmirdi ki, çox az vaxt keçəcəkdi və Xıdırın özünü də on dəqiqəlik məhkəmədə xalq düşməni kimi mühakimə edəcəkdilər, qərar çıxaracaqdılar, elə həmin gecə də onu güllələyəcəkdilər.

İ ş ı q s ö n ü r.

## ON ÜÇÜNCÜ ŞƏKİL

M i r C ə f ə r B a ğ ı r o v, X a l q D a x i l i İ ş l ə r k o m i s s a r ı, M ü ə l l i f.
Bakı. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi M i r C ə f ə r B a ğ ı r o v u n iş kabineti. M i r C ə f ə r B a ğ ı r o v küçəyə baxan pəncərənin qarşısında dayanıb. Azərbaycan Sovet Sosialist Respublikasının Xalq Daxili İşlər komissarı içəri daxil olur.

Pauza.

K o m i s s a r . Salam, Mir Cəfər Abbasoviç!
B a ğ ı r o v *(eləcə pəncərədən baxaraq)*. Keç otur...

K o m i s s a r mizin qarşısına gələrək oturmağa cəsarət etmir.

Bayırda hava soyuqdur?..

Pauza.

Sən də maşınla gəzirsən... *(Çönüb komissara baxır. Əlləri arasındakı bir dəstə karandaşı qarışdıra-qarışdıra kabinetdə var-gəl edir.)* Otur...

K o m i s s a r eləcə ayaq üstə dayanıb.

*(Var-gəl edə-edə Stalinin divardan asılmış şəklinin qarşısında dayanır, sonra o şəklə işarə edərək)* Necə şəkildir?..
K o m i s s a r *(özünü itirmiş)*. Bəli, Mir Cəfər Abbasoviç?..
B a ğ ı r o v. Necə şəkildir?
K o m i s s a r *(tərəddüdlə)*. Yaxşı şəkildir!..
B a ğ ı r o v *(altdan yuxarı diqqətlə şəkilə baxaraq)*. Yaxşıdır

deyirsən? Təzə əsərdir. Rəssam Vazgen Ağacanyan çəkib, mənə hədiyyə göndərib. Yoldaş Stalini sevir, ona görə? Bəlkə Mir Cəfər Bağırovu çox istəyir, ona görə?

Pauza.

*(Yenə var-gəl edə-edə)* Yoxsa tutulmaqdan qorxur, ona görə? *(Komissara)* Hə?

Pauza.

K o m i s s a r özünü tamam itirib.

Yaxşı... Otur... *(Eləcə var-gəl edərək)* Təzə nə var?

K o m i s s a r . Bu gün, bir nəfər xalq düşməni həbs olunub...

B a ğ ı r o v *(ayaq saxlayıb, təəccüblə komissara baxır).* Nə olsun ki, bir nəfər xalq düşməni həbs olunub?

K o m i s s a r . O... Sizlə... Sizi...

B a ğ ı r o v. Nədir?! Söyüb məni?

K o m i s s a r *(tələsik).* Yox, yox... Sizin sağlığınıza içməkdən imtina edib...

B a ğ ı r o v. Kim?

K o m i s s a r . Müəllimdir... Xosrov Ələkbərli...

B a ğ ı r o v. Haradandır?

K o m i s s a r . Əsli Hadrutdandır, özü indi Bakıda yaşayır.

B a ğ ı r o v. Hadrutdan?

K o m i s s a r . Bəli!

B a ğ ı r o v *(var-gəl edərək).* Bu cür düşmənlər idi Hadrutda taunu yayan! Harada olub bu əhvalat?

K o m i s s a r . Dünən axşam, məktəb müdirinin qızının ad günündə.

B a ğ ı r o v. Kim çatdırıb?

K o m i s s a r . Bu gün məktəb müdirinin özü zəng edib, rayon Partiya Komitəsinə xəbər verib.

B a ğ ı r o v. Yaxşı də, nə cəzası var, verin. Bunu nə üçün mənə xüsusi məruzə edirsiz?

K o m i s s a r . Məktəb müdiri, Mir Cəfər Abbasoviç... deyirlər... guya, sizin tanışınızdır... Fikirləşdim ki, bəlkə nəsə tapşırığınız olacaq...

B a ğ ı r o v *(ayaq saxlayır).* Familiyası?
K o m i s s a r . Familyası Babazadədir, yoldaş Bağırov..
B a ğ ı r o v. Babazadə?
K o m i s s a r . Bəli, yoldaş Bağırov!

Pauza.

B a ğ ı r o v. Ələsgər Babazadə?
K o m i s s a r . Bəli, yoldaş Bağırov!
M ü ə l l i f. Bu gün qəribə bir gün idi... Mir Cəfər Bağırov səhər yerindən durandan bəri cürbəcür uşaqlıq xatirələri qəflətən gəlib onun fikrinə qonurdu və onu həmişəki kimi fikrini cəmləməyə, həmişəki kimi bütün varlığıyla işə girişməyə qoymurdu. Babazadə... Ələsgər Babazadə... Yenə birdən-birə o uzaq uşaqlıq çağları yoldaş Bağırovun gözlərinin qabağına gəldi və yoldaş Bağırov «Don Kixot» kitabının bütün bu illər ərzində unudulub getməmiş təsirini, amma həmişəlik, əbədi bir keçmişdə qalmış təsirini birdən-birə yenidən hiss etdi. Bu hissiyyatda bir nisgil var idi... Nə idi o nisgil? Nədən deyirdi? Həyətdəki almalığın bir küncünə qısılıb hərisliklə o kitabı oxuyan uşaq Mir Cəfər Bağırovun gözlərinin qabağına gəldi. Düzdür, Mir Cəfər Bağırov heç vaxt özünü tənha hiss etmirdi, çünki o sovet Azərbaycanının rifahı naminə çalışırdı, o, gecə-gündüz bilmədən işıqlı kommunizm ideallları uğrunda işləyirdi, yoldaş Stalinin etimadını doğruldurdu və onun bu cür hisslərə qapılmağa heç vaxtı da yox idi. Amma hərdən uşaqlıq çağlarını xatırlayanda, bütün içinə bir həsrət yayılırdı və illər keçdikcə, bu həsrət elə bil ki, daha da artırdı: o gözəl, o qayğısız uşaqlıq çağları, bir də heç vaxt geri qayıtmayacaqdı, çünki, əbədi bir keçmişdə qalmışdı... O «Don Kixot» kitabını Ələsgərdən almışdı. Ələsgər... Ələsgər Babazadə... Yoldaş Bağırovdan üç-dörd yaş böyük idi... Qubada qonşuydular... Həmişə hamını barışdırırdı... Amma zəhmətkeş sinif vecinə deyildi... Onun üçün bəy oğlu ilə, fəhlə balasının fərqi yox idi... Təki öz başı ağrımasın...
B a ğ ı r o v. Özü raykoma zəng edib deyib?
K o m i s s a r . Bəli, yoldaş Bağırov! Yoldaşlar onu çox yaxşı xarakterizə edirlər...
B a ğ ı r o v *(gülümsəyir).* Ələsgər Babazadə ona görə raykoma xəbər verməyib ki, yoldaş Bağırovun sağlığına içməmək onu

qəzəbləndirib... Ona görə xəbər verib ki, qorxub! Qorxub ki, başqa biri onu qabaqlayar, başı ağrıyar... Deyirsən, məktəb müdiridir?

K o m i s s a r . Bəli, yoldaş Bağırov!

B a ğ ı r o v. O necə məktəb müdiridir ki, terrorçuları evinə yığır?!

Pauza.

K o m i s s a r . Düzdür, Mir Cəfər Abbasoviç...

B a ğ ı r o v *(əsəbi halda mizin arxasındakı yerində oturur).* Əsl təqsir yoldaş Bağırovun sağlığına içməyəndə deyil, terroristləri başına yığandadır!

K o m i s s a r . Aydındır, yoldaş Bağırov!

M ü ə l l i f. Sovet İttifaqında 1 dekabr 1934-cü ildə qəbul olunmuş qanuna görə terrorçuluğun təşkilində təqsirləndirilən adamlar dərhal güllələnməlidir! Onların müdafiə olunmağa ixtiyarı yoxdur!..

İ ş ı q s ö n ü r .

## ON DÖRDÜNCÜ ŞƏKİL

B i r i n c i D u s t a q, Ş a i r, Ə l ə k b ə r o v, X o s r o v, A r t i s t, F i l o s o f, M a n a f o v, K e ş i k ç i, İ k i n c i d u s t a q, M ü ə l l i f, d u s t a q l a r.
Bakı. Daxili İşlər Komissarlığının kamerası. Paralel olaraq səhnənin sağ küncündə müstəntiq otağı.
Kamerada dustaqlar. Qapı açılır. İki keşikçi içəri girir.

K e ş i k ç i *(bərkdən).* Manafov!

Familiyası çağırılan dustaq qaçıb çarpayının altına girir. Keşikçilər onu güclə dartıb çıxarırlar.

M a n a f o v . Mənim vicdanım təmizdir! Mən casus deyiləm! Yaşasın yoldaş Stalin! *(Çarpayıdan, dustaqların ayaqlarından yapışır, dırnaqları ilə sement döşəməni cırmaqlayır.).* Yox!.. Döyməyin məni!..

Keşikçilər onu güclə süpürləyib kameradan çıxarırlar. Bu vaxt üz-gözü qan içində, döyülüb əldən düşmüş başqa bir dustağı kameraya atırlar. Qapı bağlanır.

Ş a i r *(diqqətlə döşəməyə sərilmiş yeni dustağa baxır).* Bu ki, Hamletdir!

Səhnənin sağ güncündə stolüstü lampa yanır. Müstəntiq Ə l ə k - b ə r o v üz-gözü, bədəni qançır içində olan X o s r o v u dindirir.

Ə l ə k b ə r o v. Deməli, belə... Hadrutda rus dilində ərizələr yazmağını boynuna alırsan?! Boynuna alırsan ki, Hadrutda rus dilində ərizələr yazırdın?!

X o s r o v. Yazırdım...

Ə l ə k b ə r o v. Kimə yazırdın?

X o s r o v. Camaat xahiş edirdi, mən də yazırdım...

Ə l ə k b ə r o v. Yox, yox, bir dəqiqə dayan! Bilmirsən ki, məni aldatmaq mümkün deyil?! Mən Ələkbərovam, başa düşdün?! Müstəntiq Ələkbərov! Başa düşdün, yoxsa yox?! Mən səndən soruşuram ki, o ərizələri kimin adına yazırdın? Sualıma cavab ver!

X o s r o v. Rəhbərlərin adına.

Ə l ə k b ə r o v. Buxarinin adına yazırdın?

X o s r o v. Nə bilim?

Ə l ə k b ə r o v. Hə, yoxsa yox?

X o s r o v. Bəlkə də...

Ə l ə k b ə r o v. Bəlkəni əkiblər, əvəzində noxud bitib! Bəlkə olmaz! Hə, yoxsa yox? Cavab ver! *(Xosrovu vurur.)*

Paralel kamerada işıq çoxalır.

Ş a i r . Sakit olun! Bilirsiz Hamlet nə deyir?

A r t i s t . Olum, ya ölüm... Budur məsələ! Hankı daha şərəflidir?! Düşmən qəzanın ağır tokatlarına dayanmaq və ya fəna silabinin coşğun dalğalarına qarşı qoyub onu qorutmaq, əzmək... Yer üzündən qaldırmaq... ölmək, uyumaq, bu qədər... Qəlbin iztirablarını, yaranmışların nəsibi olan minlərlə əzabları bir yuxu ilə bitirmək... Belə bir son istənilməzmi?!

İşıq müstəntiqin otağında çoxalır.

X o s r o v. Ola bilər...

Ə l ə k b ə r o v. Deməli, Rıkovun da adına ərizə yazırdın?

X o s r o v. Camaat xahiş edirdi, hərənin bir dərdi-səri var... Xahiş edirdilər... Rıkov o vaxt sovet hökumətinin sədri idi də... Mən də yazırdım...

Ə l ə k b ə r o v. Bax belə... Gör nə açılır iç üzün sənin?! Adamı belə danışdırarlar. Müstəntiq Ələkbərovdan heç nə gizlətmək mümkün deyil! Deməli, Buxarindən, Rıkovdan kömək istəyirdin, hə? Zəhmətkeşlər arasında təbliğat aparırdın ki, Buxarin, Rıkov sizə kömək edəcək, hə? Cavab ver!

X o s r o v. Axı, axı, yoldaş Stalinin də adına ərizələr yazırdım. Ən çox yoldaş Stalinin adına ərizələr yazırdım!

Ə l ə k b ə r o v. Əclaf oğlu, əclaf, məni provakasiyaya çəkmək istəyirsən?! *(Onu vurur.)*

Kamerada işıq çoxalır.

A r t i s t. Ölmək... Uyumaq... Uyumaq?.. Bəlkə də röyalar görmək?! Budur iştə məsələnin çətin yeri... Həyatın, boranları keçdikdən sonra, bu ölüm yuxusunda biz nələr görəcəyik? Budur yolun keçidini kəsdirən! Budur bizi uzun həyatın sürüntülərinə məcbur edən! Buna görədir ki, fəlakət bu qədər sürəklidir.

Müstəntiqin otağında işıq çoxalır.

Ə l ə k b ə r o v. Deməli, belə?! Bu kitab sənindir?

X o s r o v. Bəli...

Ə l ə k b ə r o v. Əlbəttə, sənindir. Bunu necə danasan, hə?!

X o s r o v. Mən danmıram ki...

Ə l ə k b ə r o v. Dana da bilməzsən!

X o s r o v. Bəli, mənimdir! Mənim kitabımdır! Danmıram!

Ə l ə k b ə r o v. İstintaqa kömək etmək istəyirsən?! Ona görə danmırsan? Xeyr. Ona görə boynuna alırsan ki, başqa əlacın yoxdur. Müstəntiq Ələkbərov səni divara dirəyib! Oxumusan bu kitabı? Neçə dəfə oxumusan?

X o s r o v. Bir dəfə.

Ə l ə k b ə r o v. Düzünü de!

X o s r o v. Düzünü deyirəm də!

Ə l ə k b ə r o v. Sən dedin, müstəntiq Ələkbərov da inandı, hə?! Cəmi bir dəfə oxumusan, hə?

X o s r o v. Bəli...

Ə l ə k b ə r o v. Danmaq istəyirsən, hə? İstintaqı səhv yola yönəltmək istəyirsən, hə? Baxarıq! Haradandır səndə bu kitab?

X o s r o v. Bağışlayıblar.

Ə l ə k b ə r o v. Kim bağışlayıb?

M ü ə l l i f. Professor Zilberin kiçik qardaşı Beniamin Kaverin o vaxt gənc yazıçı idi, Moskvada yeni kitabı çıxmışdı: «Xazanın sonu»...

X o s r o v. Professor Zilber o kitabı özü ilə... Hadruta gətirmişdi...

M ü ə l l i f. Və professor Zilber o kitabı özü ilə Hadruta gətirmişdi. O zaman professor Zilber bir quş olub Hadruta girə bilmiş Xosrov müəllimə baxdı. Professor Zilber bütün ailəsini taun aparmış bu insana nə isə bir şey eləmək, bir yardım göstərmək istəyirdi. Professor Zilber bu adama baxırdı və elə bil ki, onun qarşısında vicdan əzabı çəkirdi. O, ikinci dəfə idi ki, bu adamı görürdü: bir dəfə dünən gecə, Hadruta girmək istəyəndə, bir də ki, indi, ştabda. Bu adam necə gəlib bura çıxmışdı? Ona nə etmək olardı? Heç nə!.. Professor Zilber öz həyatında ilk dəfə idi ki, bu dərəcədə bir dərd altına düşmüş adama rast gəlirdi. Zilber Xosrov müəllimə baxdı, sonra yazı mizinin arxasına keçdi, siyirtməni çəkib həmin kitabı götürdü, açıb ağ üz səhifəsində bircə an da fikirləşmədən avtoqraf yazdı: «Çeloveku, uvidevşemu i perejivşemu ad. Lev Zilber. 8 aprelya 1929. Qadrut.» Və professor Zilber gətirib o kitabı Xosrov müəllimə bağışladı...

X o s r o v. O kitabı professor Zilber Hadrutda bağışlayıb mənə.

Ə l ə k b ə r o v. Yəhudidir?

X o s r o v. Bilmirəm...

Ə l ə k b ə r o v. Deməli, bilmirsən, hə?! Yaxşı, «Çeloveku, uvidevşemu i perejivşemu ad»... Bunu sənə yazıb?.. Bu yazını da oxumusan?!

X o s r o v. Hansı yazını?

Ə l ə k b ə r o v. «Çeloveku, uvidevşemu i perejivşemu ad.»

X o s r o v. Əlbəttə, oxumuşam...

Ə l ə k b ə r o v. Bax, belə! Deməli, xalq sosializm qurur, am-

ma sən cəhənnəmdə yaşayırsan də?! Sovet İttifaqı, Sovet Azərbaycanı sənin üçün cəhənnəmdir, hə?! Cavab ver! *(Xosrovu vurur.)*

Kamerada işıq çoxalır.

A r t i s t . Yoxsa, dünyanın bu zülüm-fəsadına, hökmranların təkəbbürünə, güclülərin təhqirinə, qaytarılmış, tapdanmış bir eşqin acı iztirablarına, qanunların boşluğuna, hakimlərin utanmazlığına, rəzillərin xidmətlərinə qarşı coşan nifrətlərə kim dayanmaq istərdi? Halbuki, bir xəncər bizi bunların hamısından əbədilik qurtara bilər!..

Müstəntiqin otağında işıq çoxalır.

Ə l ə k b ə r o v. Cavab ver! Sovet Azərbaycanı, Sovet İttifaqı sənin üçün cəhənnəmdir?! Tez cavab ver! Hə, yoxsa, yox! Fikirləşmə, cavab ver!

X o s r o v. Yox... O vaxt Hadrutda taun epidemiyası var idi...

Ə l ə k b ə r o v. Bəlkə, elə yəhudilərə qoşulub, o epidemiyanı sən özün yaymısan Hadrutda, hə?

X o s r o v. Professor Zilber Hadrutu taundan qurtardı...

Ə l ə k b ə r o v. Elə bilirsən heç nədən xəbərimiz yoxdur?! Neçə dəfə oxumusan bu kitabı? Boynuna al!.. Neçə dəfə?

X o s r o v. Bir dəfə oxumuşam...

Ə l ə k b ə r o v. Əclaf oğlu əclaf! İstintaqı azdırmaq istəyirsən?! Svoloç! *(Xosrovu vurur.)*

X o s r o v huşunu itirib oturduğu kətildən yerə sürüşür.
Keşikçilər onu aparır. Kamerada işıq çoxalır.

A r t i s t . Acı həyatın ağır cəbrini nifrət və göz yaşlarıyla kim daşımaq istərdi? Yalnız bir qorxu... Orada nə olacaqdır?.. Orada... O bilinməz vadidə ki, oradan bu vaxta qədər kimsə qayıtmamışdır... İradə sarsılır və bizi bilinməz bir aləmə atılmaqdansa, acı iztirablara dayanmağa məcbur edir. Qorxaq fikrin müdhiş etirafı, qəti bir iradənin iti boyası, təfəkküratın zülmətinə qarşı solur. Düşündükcə, tələsik həyəcanların cəsarəti sönür... Fikir işə keçməyir... Sus, Ofeliya! Gözəl pəri, öz dualarında mənim də

günahlarımı xatırlat... *(Gülümsəyərək səndələyir, amma yıxılmır, sonra xəyalən tamaşaçılardan gül alır və o gülləri sinəsinə sıxır.)* Bu, mənim səhnədə aldığım sonuncu gül dəstəsidir?!.

Qapı açılır. X o s r o v u kameraya atırlar. A r t i s t ona tərəf addımlamaq istəyəndə yıxılır. Ş a i r onu qucaqlayır.

Əlini məndən çək, zavallı! Məgər sən mənim kim olduğumu bilmirsənmi?! Mən xalqın düşməniyəm! Mən terrorçuyam! Mən casusam! Əlini çək, Şair!.. Ah zavallı!... Yoxsa, artıq sənə də yoluxub bu mərhəmət xəstəliyi?!

Ş a i r onu ehmallıca yerə uzadır.

F i l o s o f *(öz-özünə).* Artist – məhbus! Tamaşaçılar – məhbus! Yalnız Şekspir bütün dövrlərin Şekspiridir! Şekspir əbədi bir azadlıq içindədir, onun üçün keçilməz divar, adlanmaz sərhəd yoxdur! Onun üçün bu kamera da yoxdur! Onun üçün Sovet İttifaı da yoxdur! Onun üçün yoldaş Stalin də yoxdur!

D u s t a q l a r *(dəhşət içində):*
– Sus-s-s!..
– Sus-s-s!..
– Sus-s-s!..

Qapı açılır.

K e ş i k ç i. Şərifzadə!

A r t i s t güclə ayağa qalxır, dustaqları bir-bir gözdən keçirir və səhnədəymiş kimi, qürurla kameradan çıxır.

Pauza.

F i l o s o f *(bir-bir kameradakı dustaqlara yaxınlaşaraq).* Şair... dramaturq... ədəbiyyatşünas... folklorçu... dilçi... nəşriyyat müdiri... kitabxanaçı... redaktor... müəllim... Mən də filosof... *(Bərkdən gülür.)* Görəsən, Lenin sağ qalsaydı, indi onu da «xalq düşməni» kimi həbs edərdilər?! Marksı, Engelsi güllələyərdilər?! *(Yenə bir-bir dustaqlara yaxınlaşaraq)* İngilis casusu... terrorçu... alman casusu... pantürkist... beynəlxalq imperializmin agenti... panislamist... trotskiçi... yapon casusu... *(Qışqırır.)* Bəs monqol

casusu hanı? *(Daha da bərkdən qışqırır.)* Hanı? Hanı? *(Çığırtı ilə)* Gərək Marksı güllələyəydilər!

D u s t a q l a r *(pıçıltı ilə):*

– Hə!..

– Hə!..

– Hə!..

F i l o s o f . Gərək Engelsi güllələyəydilər!

D u s t a q l a r *(pıçıltı ilə):*

– Hə!..

– Hə!..

– Hə!..

F i l o s o f. Lenini də!

D u s t a q l a r *(pıçıltı ilə):*

– Hə!..

– Hə!..

– Hə!..

F i l o s o f . Gərək... Gərək Stalini də güllələyəydilər!

D u s t a q l a r *(dəhşətlə):*

– Sus-s-s!..

– Sus-s-s!..

– Sus-s-s!..

F i l o s o f *(gözündə qalın şüşəli eynək olan dustaqlardan birinə yaxınlaşaraq).* O-o-o!.. Yoldaş Mir Cəfər Bağırov!..

İ k i n c i d u s t a q . Yox, mən yoldaş Bağırov deyiləm!

F i l o s o f . Bura sovet kamerasıdır! Burada danmaq olmaz! Sən yoldaş Bağırovsan!

D u s t a q l a r :

– Boynuna al!..

– Boynuna al!..

– Boynuna al!..

Bu an X o s r o v vəhşi bir qışqırıqla B a ğ ı r o v u xatırladan o bir nəfərin üstünə atılır.

X o s r o v *(onun yaxasından yapışaraq).* Sən taunsan! Taunsan! Taunsan! Taunsan! Taunsan! Taunsan! Taun! Taun! Sən Taunsan! Taun!

İ k i n c i d u s t a q *(güclə yaxasını onun əlindən çəkərək, yerə çöküb, ağlaya-ağlaya).* Bəs, siz məndən nə istəyirsiniz?! Siz!..

Siz!.. Axı, siz, niyə mənə işgəncə verirsiz? Onlar öldürür məni, bəs siz?! Siz niyə?!

Pauza.

Qapı açılır və K e ş i k ç i içəri girir.

K e ş i k ç i *(kağızdan oxuyur).* Xosrov Ələkbərli!..

İ ş ı q s ö n ü r.

**ON BEŞİNCİ ŞƏKİL**

Ə f l a t u n, C ü m ş ü d l ü, A r z u.
Bakı. Məktəb. Mitinq gedir. Ə f l a t u n m ü ə l l i m danışır, C ü m ş ü d l ü xitabət kürsüsünün yanında dayanıb.

Ə f l a t u n. Bu gün, növbəti... o adı nədir, şey, növbəti «izhari-nifrət» mitinqində çıxış etmək üçün söz verilir məktəbimizin şagirdi, o adı nədir, şey, xalq düşməni, terrorçu, maskalanıb məktəbimizin, o adı nədir, şey, keçmiş müdiri olmuş Ələsgər Babazadənin qızı Arzuya!

A r z u alqışlar altında, əlində kitablar, gəlir. C ü m ş ü d l ü onun qolundan tutub xitabət kürsüsünün arxasına çəkir.

C ü m ş ü d l ü. Gəl bura! *(Arzunun qolunu əlləyir.)* Ay malades! *(Gözü ilə az qalır qızı yesin.)*
A r z u *(ruh yüksəkliyi ilə qışqıra-qışqıra).* Yoldaşlar! Mən artıq yeddinci «izhari-nifrət» mitinqində çıxış edib atamı ifşa edirəm!

Alqışlar.

Mən bu gün də əliboş gəlməmişəm, evimizin zirzəmisində terrorçu atamın, xalq düşməni olan Əvəz bəydən alıb gizlətdiyi bu kitabları, bu qədim əlyazmalarını tapıb gətirmişəm!

Alqışlar.

*(Kitabları yuxarı qaldıraraq.)* Bu kitablar bizi keçmişə çəkir!

Ərəb əlifbası ilə yazılmış bu kitablar bizi dinə çəkir! Ancaq Lenin baba bizə öyrədib: Allah yoxdur!

Alqışlar.

*(Daha da bərkdən.)* Yoxdur Allah!

Alqışlar.

Ə f l a t u n *(vəcdə gələrək)*. O adı nədir, şey, əsl pioner belə olar!

Alqışlar.

A r z u. Mən xalq düşməni olan atama nifrət edirəm! Yaşasın əziz atamız, bizə xoşbəxt həyat vermiş Stalin baba!

Alqışlar.

C ü m ş ü d l ü *(Arzunun qolundan tutaraq)*. Yaşasın xoşbəxt sovet pionerləri!

Alqışlar.

A r z u *(daha da bərkdən)*.

Bəşər dühasının sönməz ulduzu,
Əziz rəhbərimiz, atamız Stalin!
Ürəyimiz, sevgimizin sonsuzu
Bil ki, əzəl gündən sənindir, sənin!
Ey bütün ellərin şöhrəti, şanı?
Aparırsan bizi zəfərlərə sən!

Şerin ardı əks-səda ilə eşidilir.

İ ş ı q s ö n ü r.

## ON ALTINCI ŞƏKİL

Sürgündə olan d u s t a q l a r, o cümlədən, X o s r o v, Ə l ə k b ə r o v, Q ı r m ı z ı Y a q u b.
Sibir. D u s t a q l a r kimi isə dəfn edirlər. Müsəlman dəfnidir.

4-5 dustaq çiynində meyit gətirir. 10-12 dustaq onların ardınca gəlir.
Soyuqdur, külək vıyıltı ilə əsir. Və o külək vıyıltısı altında
A r z u n u n söylədiyi şerin ardı eşidilir:

Əməlin qərq edib nura cahanı!
Bir nəğmə çağlayır mənim sinəmdə:
Eşq olsun Stalinə!
Yaşasın Stalin!
Həyatın mənası,
Məzmunudur o!

M ü s t ə n t i q Ə l ə k b ə r o v mollalıq edir və soyuqdan üşüyə-üşüyə əlində tutduğu dəftərdən avaz ilə oxuyur.

Q ı r m ı z ı Y a q u b *(Xosrova yaxınlaşaraq, soyuqdan üşüyə-üşüyə).* Allah rəhmət eləsin, yaxşı kişi idi... *(Meyitə işarə edir.)* Tatar bolşeviki idi... Çarın vaxtında, yoldaş Stalinlə bir yerdə, bax, elə burada, bu Narımda sürgündə olmuşdu... 1913-cü ildə... Düz iyirmi dörd ildən sonra, onu tutub yenə bura sürgün eləmişdilər... Bir dəri, bir sümük qalmışdı bədbəxt oğlu... Amma əqidə adamı idi! Öləndə də axırıncı sözü: «Yaşasın yoldaş Stalin!» – oldu... O molla da, azərbaycanlıdı... Deyirlər vaxtıyla müstəntiq olub... Dəftəri görürsən? Deyir, guya, Quranı əzbər bilir, dəftərə özü yazıb... Nə bilim, doğrudan Qurandı, Quran deyil?.. Burada bütün müsəlmanları o dəfn edir... Bunlar da çeçen, qazax, ləzgi, qabardin, bolqar, inquş, tacik, qırğızdı... Sonra, öz yemək payını verərsən o mollaya. Biz də verəcəyik... Həmişə belə olur... Uçitel, deyəsən, tanımırsan e, məni?! Neçə gündü, elə mən danışıram, sən susursan...

X o s r o v yenə ona baxır, amma yenə də bir söz demir.

Mənəm də, Qırmızı Yaqub... Siyasi dustağam... Dedilər ki, guya mən revi... *(Güclə tələffüz edir.)* revi... revizionistəm!.. Uçitel, ancaq zalım uşağı heç başa salmadı ki, revi... revizionist nə deməkdi?.. Nə edir bu revi... revizionist ki, belinə 15 il basıb, Sibirə göndərirlər?!. Eybi yox, uçitel!.. Biz səninlə taun görmüşük!.. Sibir nədir ki!.. Biz səninlə, uçitel, tauna qalib gəlmişik!.. Yoldaş Stalinin xəbəri yoxdu bu işlərdən. Ondan gizlədirlər bu işləri. Ancaq xəbər tutacaq yoldaş Stalin! Xəbər tutan kimi, bunların hamısının atasını yandıracaq!

Küləyin vıyıltısı daha da çoxalır. Ə l ə k b ə r o v Qurandan oxuduğunu bitirir. D u s t a q l a r a yaxınlaşıb, əl açır və bir-bir yemək payını alır. Bir an X o s r o v a baxır.

Ə l ə k b ə r o v *(soyuqdan üşüyə-üşüyə, Xosrova).* Tanış gəlirsən mənə... Deyəsən, səninlə bir yerdə işləmişik, hə?

Q ı r m ı z ı Y a q u b. Yox, əşşi!.. Uçiteldir... Biz onunla tauna qalib gəlmişik!

X o s r o v *(qəflətən qışqıraraq Qırmızı Yaquba).* Yəni qalib gəldiniz tauna?!. Yəni qalib gəldiniz tauna?!. *(Ələkbərovun yaxasından yapışır.)* Bəs bu nədir?! Hə?! *(Kənarda dayanıb özünü itirmiş Qırmızı Yaquba)* Bəs necə qalib gəlmisiz tauna?! Bəs bu nədir? *(Ələkbərovun yaxasını silkələyə-silkələyə)* Nədir bu? Kimdi bu?

Ə l ə k b ə r o v yaxasını güclə X o s r o v u n əlindən çəkməyə çalışır. Külək daha da şiddətlənir.

X o s r o v *(qışqırır).* Taun budur!.. Bu!.. Taundur!.. Taun!.. Taun!..

Küləyin vıyıltısı X o s r o v u n səsini eşidilməz edir.

İ ş ı q s ö n ü r .

# İKİNCİ HİSSƏ

## ON YEDDİNCİ ŞƏKİL

A r z u, X o s r o v.
Bakı. 1964-cü il. A r z u n u n evi. Həyətdən toyuqların qaqqıltısı eşidilir.

A r z u *(öz-özünə).* Ay Allah, bunlar necə acgöz heyvanlardı belə?! Çinədanları yanmışlar!.. *(Pəncərədən qışqırır.)* İndicə dən vermədim sizə, ay əclaflar?!. Hə?!

Qapı döyülür. A r z u deyinə-deyinə qapını açır, X o s r o v içəri daxil olur.

Çox acgöz heyvandılar!.. *(Diqqətlə Xosrova baxır.)*

Pauza.

Dayan görüm... *(Heyrətlə)* Xosrov müəllim... Hə, özüdü, Xosrov müəllim!.. Sənsən?!.

Pauza.

Haradan xortlamısan, a kişi?.. Niçeqo sebe!..

Pauza.

Məni tanımadın?.. Mənəm də... Arzu... Arzuyam... Ələsgər müəllimin qızı...

Pauza.

Elə əvvəlki kimi danışıb eləyən deyilsən, hə?.. Mən elə bilirdim ki, indi sənin sümüklərin də çürüyüb... *(Gülür.)* Ancaq yaxşı qalmısan, vallah!.. Keç də, keç içəri, nə bitib qalmısan ayaq üstə?!

Pauza.

Bu boyda Bakıda məni necə tapdın sən, a kişi, hə?!

X o s r o v içəri keçir.

Çıxar paltonu.

X o s r o v əlindəki bükülünü qapının yanındakı sandıqçanın üstünə qoyur, sonra paltosunu çıxarıb qapının yanındakı asılqandan asır.

*(Diqqətlə ona baxaraq)* Səni gördüm, çox şey yadıma düşdü... Haradan gəldin çıxdın sən bura?.. Gəl otur. Əşşi, mənə nə var idi e?.. Tək canım idi! Kələntər müəllimin amma... yazığın yeddi qızı qalmışdı... İkisi öldü... Biri itdi, onu gördüm deyən olmadı... Biri özünü balkondan atdı... O biriləri də oldu qəhbə!.. Qonşumuzuydular də... Sən haradan gəlib çıxmısan bura?.. Sənə baxanda qorxuram e-e... Elə bil, ölü dirilib... Gəl, gəl otur.

Həyətdəki toyuqların qaqqıltısı bərkiyir.

*(Toyuqların qarasına.)* Ay ölәsiz sizi! Bu saat, qoy bu supu verim o acgözlәrә... O qәdәr yemәk verirәm ki, bunlara... Astarı üzündәn baha başa gәlir. Ancaq yumurtaları dadlı olur şoqәriblәrin... Bunları Stavropoldan alıb gәtirmişәm...

Pauza.

Çox yaxşı iş görüb gәlmisәn... *(Kәtili göstәrir.)* Otur burada... Dayan, döşәkcә verim, altına sal...

X o s r o v. Yox, lazım deyil. *(Oturur.)*

A r z u. Necә lazım deyil?! Qup-qurusan... Zapasın-zadın da yoxdu! *(Gülür.)* Oturacaqsan, taxta sümüklәrini kәsәcәk... *(Mizin üstündәn boşqabı götürür.)* Öz supumdu e, qoy verim onlara, yoxsa әclaflar qoymayacaqlar söhbәt edәk... *(Qapını açıb eşiyә çıxır.)*

Pauza.

*(Hәyәtdәn sәsi gәlir.)* Alın, ay acgözlәr! Öz payımı da sizә verirәm!.. *(İçәri girir.)* Vay sәni, Xosrov müәllim! Niçeqo sebe!.. Elә әvvәlki adamsan... Elә bil, heç... nә qәdәr? İyirmi yeddi il keçmәyib... Bir danış görәk dә, nә var, nә yox... Atamı güllәlәdilәr, dedilәr «qlavardır»! Bәs sәni necә oldu ki, güllәlәmәdilәr?.. Birdәn stukaç-zad olarsan ha!.. *(Gülür.)* Sveji çayım var... Qoy, gәtirim sәnә... Yaxşı mürәbbәm dә var... Saratovdan almışam... Orda xalturit elәmirlәr... Bizimkilәr kimi oğru deyillәr... Özü dә ucuz... Yaduva gәlir?.. Anam, rәhmәtlik, Ordubaddan gәlmiş lәpә qoyardı stolun üstünә... Әlibala müәllim yaduva gәlir?.. Mәnә deyirdi ki, Sofya Kovalevskaya olacaqsan! Ay sәni... nә olsun ey... Sofya cәmi 41 il yaşadı. Amma, mәnim ölmәk fikrim yoxdu! *(Gülür.)* Pravadniyәm obşi vaqonda, üç gün yoldayam, iki gün evdә... *(Hәyәtdәn yenә toyuqların qaqqıltısı eşidilir.)* Öldürsә, mәni o toyuqların acgözlüyü öldürәcәk... *(Bu dәfә bir az isterika ilә gülür.)* A kişi, sәn gәlmisәn bura ki, heç ağzıvı açıb, bir kәlmә söz demәyәsәn?.. Yaxşı, çayını iç... Әntiqә mürәbbәdir... Saratovdan almışam... Özün tәksәn?.. Day evlәnmәmisәn? Tәksәn! Sifәtindә yazılıb ki, tәksәn... Kimsәsizin birisәn... Bәs kim qulluq eliyir sәnә?.. Bәlkә mәni alasan, hә?.. *(Yenә gülür.)* Belәliyimә baxma ha, demә ki, hay-hayı gedib, vay-vayı qalıb!.. Hәlә canımda su var,

pis döyüləm! *(Gülür.)* Özü də... peşman olmazsan ha!.. *(Daha da bərkdən gülür.)*

X o s r o v köhnə güzgünün yuxarısında, divardan asılmış şəkillərə baxır.

Şəkillərə baxırsan?.. Hə də, deyirsən ki, bunun nəyinə baxım?.. *(Gülür.)* Allah kişilərin ağlını alır də!.. *(Şəkilləri göstərir.)* Üçü də oğlanlarımdı... Bunu görürsən?.. Bunun atası Cümşüdlüdü... Yaduva gəlir?.. Raykomda işləyirdi, məktəbə gəlirdi tez-tez... Əyyaşın, pozğunun biri idi... Oğraş! Məktəbdə «izhari-nifrət» mitinqlərində gəlib əl çalıb, məni nümunə göstərirdi... Sonra, guya, bizə yazığı gəldi... Anamı dəlixanaya süpürgəçi düzəltdi... O vaxtdan, elə gözü var idi məndə... Köpəyoğlu... Hər dəfə xəlvətə salıb əlləyirdi məni... Anam ölən kimi, müharibənin ortaları idi, gəlib tapdı məni... 15-16 yaşım var idi... Amma 20 yaş verərdin mənə... Kök idim... Vaxtından əvvəl yetişmişdim də... *(Gülür.)* Sən danışmırsan, heç olmasa, mən danışım da... Hə, bunun atası o oğraş idi... Gorbagor oldu... Öləndə, heç üstünə gələn olmadı... Özünün arvad-uşağı var idi... Ayrıca bir ev kirələyib, məni saxlayırdı... Pozğunun biri idi... Bədənimdə sağ yer qoymamışdı... Göydən düşmüşdüm də... əlinə əclafın... Gözünə təpirdi məni... Doymaq bilmirdi, köpəyoğlu... Mən indiyəcən elə pozğun oğraş görməmişəm! Heç Rusetin çöllərində də mən belə pozğun oğraşa rast gəlməmişəm!.. *(Gülür.)* Amma mən də az görməmişəm a-a-a!.. *(Divardakı şəkili göstərir.)* Yaxşı ki, bu, atasına oxşamır... Ancaq, arvadı çatlağın biri çıxdı... Qonşuların yanında, mənim saçımı yolurdu, qəhbə!.. Ər-arvad ikisini də qovdum yanımdan!.. Əh, güya ki, qonşular ondan fərridi? Bunu görürsən?.. Bu... Eşidirsən o toyuqların səsini?.. Vay bunların qarnına şiş batsın!.. İndicə bir boşqab sup verdim bunlara... Doymaq bilmirlər ki!.. Mən burda olmayanda, həyətin uşaqları gəlib, yumurtaları oğurlayırlar... Qonşular da bir tərəfdən milisə yazırlar ki, guya, bu toyuqlar, həyəti batırır!.. Cəhənnəmə yazsınlar!.. Belə şeylər mənə kar eləməz! Çayuvu iç!..

X o s r o v stəkanı ehtiyatla qaldırır.

Qorxursan ki, çay əvəzinə, sənin də stəkanında sup ola? *(Gü-*

*lür və divardakı ikinci şəkili göstərir.)* Hə, bu Barnaulda yaşayır... Yenə çay gətirim sənə?..

X o s r o v. Yox, yox, sağ ol!

A r z u. Onda mürəbbə ye!

X o s r o v. İstəmirəm, sağ ol!

A r z u. Yaxşı mürəbbədir e... Saratovda pis şey satmırlar...

Pauza.

İşıq bir az zəifləyir.

S ə s . Əziz dostlar, tamadadan min dəfə üzr istəyirəm ki, onu afsaytda qoyuram... Ancaq, ürəyimə bir gözəl sağlıq gəlib ki, onu da mən bu gözəl məclisdə deməliyəm!

İşıq yenə güclənir.

A r z u. Evim pis döyül, hə?... Düzdü, kuxnam yoxdu... İki otaqdı... Ancaq ona da min şükür... Koridorda da, görürsən də, qaz da var, su da var... Tualet də həyətdədir... Bunu oğlumun o arvadına, o erməni qəhbəsinə verəydim, özüm yenə küçələrə düşəydim?! Bəs sənin o arvadın nə oldu?.. Təzə almışdın e... Adı da Gülzar idi... Yadımdadı... Gözləmədi, hə, səni?... Yadıma gəlir... Elə bil indiki kimi görürəm... Yanaqları od tutub yanırdı... O cür arvadlar kişisiz qala bilməz!.. *(Gülür.)* Neyləsin e, yazıq, kişisiz çətin olur də... *(Xosrov ayağa qalxır.)* Nə oldu?

X o s r o v. Mən gedim...

A r z u. Niyə?.. Otur də!.. Niyə belə tez gedirsən?.. Qoy bir su qızdırım... yaxşıca başuvu yuyum sənin... Hə... tək adamsan, bir yaxşıca istirahət elə!

X o s r o v. Yox, yox, sağ ol!

A r z u. Nə sağ ol e?.. *(Gülür.)* Sağam də!.. Onda... Voronejdən əntiqə göbələk qurusu gətirmişəm... Qoy sənə bir sup bişirim...

X o s r o v. Yox, sağ ol!

A r z u. Yüz qram da araq verərəm sənə... Vurarsan, hə?... Yoxsa, day elə qocalmısan ki, heç araq da içə bilmirsən? *(Bərkdən gülür.)* Hə?.. Nə deyirsən?...

X o s r o v. Yox, yox...

A r z u. Qorxma e, səni göndərməyəcəm mağazaya, araq dalınca... Özümdə var, gətirim?.. Vuraq bir az!

X o s r o v. Yox...

İşıq zəifləyir.

S ə s . Niyə qoymursuz səhərdən bəri, bu gözəl qızın sağlığına içək?! Bu gözəl qızı təbrik edək?!

Pauza.

S ə s. Bir dəqiqə, Xosrov müəllim, bir dəqiqə! Arzu qaçmır ki... buradadır, özümüzünküdür... sağlığına da içəcəyik... Sözümüzü də deyəcəyik... Ancaq, bu qədəhləri qaldıraq Xıdır müəllim deyən sağlığa!.. Doğrusu, bizi qabaqladı Xıdır müəllim... Yaxşı da etdi... Sağ olsun! Yoldaş Mir Cəfər Bağırovun sağlığına! O böyük insan başımızın üstündən əskik olmasın! Yoldaş Stalinin sevimli şagirdi və silahdaşı kimi, həmişə bizə bu cür müdrik rəhbərlik etsin! Həmişə bizə belə yol göstərsin!..

Toyuqlar qaqqıldayır. Səhnənin işığı güclənir.

A r z u. Eşidirsən? Bilirlər ki, indi qapı açılacaq, adam çıxacaq... Yemək istəyirlər... Bu qədər acgöz heyvan görməmişəm! Əclaflar! Dəhşətdi! *(Pəncərədən toyuqlara)* Yoxsa, gedim sizə Voronej göbələyindən sup bişirim? Ay siz öləsiz! *(Xosrova)* Axırda bunlar, mənim özümü də yeyəcəklər... Yenə müəllimsən?

X o s r o v. Yox.

A r z u. Hə, müftə pensiya alırsan?.. *(Gülür.)*

Pauza.

Bəs nə edirsən?

X o s r o v. Kioskda qəzet satıram.

A r z u. Onda yaxşıdı də, qəpik-quruşun olar. *(Xosrov müəllimin gətirdiyi kağız torbaya baxır.)* O nədir elə?..

X o s r o v. Bir az meyvədir... Sənə gətirmişəm...

A r z u. Bəs mən sənə nə bağışlayım?.. Hə?.. Nə bağışlayım?..

X o s r o v. Sağ ol! *(Qapıdan çıxmaq istəyir.)*

A r z u. Qaçırsan?

X o s r o v. Yox...
A r z u. Qaçırsan burdan, hə? Mənnən iyrənirsən?
X o s r o v. Sağ ol...
A r z u. Mənəm də, Arzuyam! Niyə iyrənirsən, hə? Tapdım! Bilirsən, sənə nə bağışlayacağam?! Bax! *(Otaqdan çıxan Xosrovun ardınca qışqıra-qışqıra əzbərdən deyir.)*

Vı bıli vçera
bezımennı,
Sedaya zurna
Suleymana,
Djambula
sedaya dombra...
Tak poyte je
Stalinu
slavu
Stixami
podobnımi splavu
Zolota
i serebra!..

İ ş ı q  s ö n ü r.

## ON SƏKKİZİNCİ ŞƏKİL

Ə b d ü l  Q a f a r z a d ə, Ə f l a t u n, B u r u n, P r o f e s s o r.
Bakı. 1978-ci il. Ə b d ü l  Q a f a r z a d ə n i n kabineti. Ə b d ü l Q a f a r z a d ə öz mizinin arxasında oturub. Ə f l a t u n və B u r u n ayaq üstə dayanıblar.

Ə f l a t u n *(yekə və köhnə portfeldən çıxardığı pul dəstlərini bir-bir mizin üstünə qoyur).* Buyurun. Bu, qumarxanadan... Bu, araqdan... Araq bu həftə, o adı nədir, şey, yaxşı getdi... Bu, morqdan... Bu da, o adı nədir, şey, nəşədən...
Ə b d ü l  Q a f a r z a d ə *(mizin siyirtməsini açıb pulları onun içinə tökür).* Bu gündən morqdakı alveri saxlayırsız. Bu qədər.

Pauza.

B u r u n. Qədeş, morqu bağlıyırsan?
Ə b d ü l  Q a f a r z a d ə. Hə.

B u r u n. Bəs mən?

Ə b d ü l  Q a f a r z a d ə. Nə mən? Sən kimsən bəyəm?

B u r u n *(get-gedə əsəbiləşərək).* Məni atırsan bayıra, bağlıyırsan morqu, hə ?! Bilmirsən də, mən kiməm?! *(Qızışır.)* Alə, 15 il yatıb çıxmış Soltan Muradam da mən! 15 il yatdım, bir yerdə sənün aduvu çəkmədim! Burunam da mən! Həmin Burun! İndi məni çölə atırsan?

Ə f l a t u n onun ətəyini dartır.

Alə, dartma e, pencəyimi! Partdıyıram e, mən!

Pauza.

Ə b d ü l  Q a f a r z a d ə *(sakit).* Soltan Murad, «Domal» bilirsən nədir?

B u r u n *(hirslə).* Yox!

Ə b d ü l  Q a f a r z a d ə. Haradan biləsən?! Evdə bişməyib, qonşudan gəlməyib. Özü də çətin tapılır. QDR buraxır. İtə-qurda gərək, ağız açasan ki, bir yeşik göndərsin evə! Paraşokdur. Zaxodu yuyurlar onuynan.

Kiçik pauza.

Səni eləyərəm, bax, o cür poroşok! O burnun var ha, sən öləsən, onu da ət maşınkasından keçirtdirib yedirdərəm arvaduva, uşaqlaruva!

B u r u n. Baxarıq! *(Otaqdan çıxır.)*

Ə b d ü l  Q a f a r z a d ə *(siyirtmədən pul çıxarır).* Bunları götür.

Ə f l a t u n *(həyəcanlı).* O adı nədir, şey, Allah səni bizim başımızın üstündən, o adı nədir, şey, əskik eləməsin. Allah sənin cibivə min bərəkət versin. Biz də, sənin kölgəndə dolanaq... Sənün qardaşun Xıdır da, Allah ona, o adı nədir, şey, qəni-qəni rəhmət eləsin, kişi adam idi! Əclaf Stalin onun, o adı nədir, şey, qədrini bilmədi! Xıdır müəllim Azərbaycan idmanının, o adı nədir, şey, tacı idi! Allah sənün canuvu sağ eləsin, Bakıda onun adına küçə qoydurdun! Əntiqə küçədi! Mənim dostum idi, rep... rep... o adı nədir, şey, represiya qurbanı oldu... Stalinə qarşı mübarizə aparırdı, o adı nədir, şey, özü də təkbaşına!

Ə b d ü l  Q a f a r z a d ə. Yaxşı. *(Qapıya tərəf işarə edərək)* Uşaqlara tapşır, dörd nəfər otursun bu axmağın maşınına, bir yerdə yaxşı çırpsınlar onu, sonra da, şalvarını çıxardıb, bayraq kimi, aparıb evinin qapısında assınlar.

Ə f l a t u n. Baş üstə.

Ə b d ü l  Q a f a r z a d ə. Moskvaynan danış. Gecə ora gedirəm. İki bilet götür təyyarəyə.

Ə f l a t u n. Baş üstə. Başqa bir şey lazım deyil, o adı nədir, şey, Əbdül Orduxanoviç?!

Ə b d ü l  Q a f a r z a d ə. Yox, doroqoy. Ancaq sənin sağlığın lazımdır.

Ə f l a t u n. Çox sağ olun. Gedə bilərəm, o adı nədir, şey?

Ə b d ü l  Q a f a r z a d ə. Get, məşğul ol, doroqoy. Axşam evdə olacağam. Zəng elə, xəbər ver, görək neynədin.

Ə f l a t u n çıxır və o saat da geri qayıdır.

Ə f l a t u n. O adı nədir, şey, Professor gəlib, girsin içəri?

Ə b d ü l  Q a f a r z a d ə. Çağır gəlsin.

Ə f l a t u n çıxır. P r o f e s s o r daxil olur.

Ə b d ü l  Q a f a r z a d ə *(ayağa qalxır)*. Xoş gördük, Professor! *(Görüşürlər.)* Hə, nə oldu mənim diaqnozum?

P r o f e s s o r. Hər şey yaxşıdır.

Ə b d ü l  Q a f a r z a d ə. Deyirsən, yəni heç nə yoxdu məndə?

P r o f e s s o r. Sənin kimi kişidə nə ola bilər?!

Ə b d ü l  Q a f a r z a d ə. Bəs, ağrılarım?

P r o f e s s o r. Yəni deyirsən ki, bu fani dünyada bir yerin də ağrımasın?

Ə b d ü l  Q a f a r z a d ə. Bir dərman-zad lazım deyil?

P r o f e s s o r. Heç bir dərman lazım deyil.

Ə b d ü l  Q a f a r z a d ə. Bəs, yeməyim, içməyim necə?

P r o f e s s o r. Ürəyin nə istəyir, ye, nə istəyir iç!

Ə b d ü l  Q a f a r z a d ə *(mizin arxasına keçir və siyirtmədən pul çıxarıb ona uzadır).* Buyurun, Professor, çox sağ olun!

P r o f e s s o r. Bay, bay... Bu nəyə lazımdı?! *(Pulu götürür.)*

Ə b d ü l Q a f a r z a d ə. Sənin üçün halaldır, Professor!

P r o f e s s o r. Çox sağ olun, çox sağ olun, icazənizlə mən gedim.

Ə b d ü l Q a f a r z a d ə. Siz sağ olun, çox sağ olun!

İ ş ı q s ö n ü r .

## ON DOQQUZUNCU ŞƏKİL

P r o f e s s o r, Ə f l a t u n.
Ə b d ü l Q a f a r z a d ə n i n qəbul otağı. Ə f l a t u n mizin arxasında oturub. P r o f e s s o r Ə b d ü l Q a f a r z a d ə n i n kabinetindən çıxır.

P r o f e s s o r. Sənin adın necə oldu, kişi?

Ə f l a t u n *(ayağa qalxır)*. Əflatun.

P r o f e s s o r. Belə başa düşürəm ki, sən bu Əbdül Qafarzadəyə yaxın adamsan.

Ə f l a t u n. Əlbəttə, o adı nədir, şey.

P r o f e s s o r. Onun işləri xarabdır.

Ə f l a t u n. Nə?

P r o f e s s o r. Hə, xarabdı. Müdirin xərçəngdir.

Ə f l a t u n. Bəs indicə özün dedin ki, heç nə yoxdur?!

P r o f e s s o r. Sən nə bildin? Qapıdan qulaq asırdın? *(Gülümsəyib başını bulayır.)*

Ə f l a t u n *(pərt)*. Yox, o adı nədir...

P r o f e s s o r *(onun sözünü kəsir)*. Bəs nə deyəydim? Deyəydim ki, Əbdül Qafarzadə, xərçəngsən, cəmi də, bir-iki ay ömrün qalıb?!

Ə f l a t u n *(sarsılmış)*. Bəlkə, o adı nədir, şey, səhv edirsiz?

P r o f e s s o r. Nə səhv, a kişi?! Yaponların aparatına söz yoxdur. Ağ ciyərini xərçəng basıb. Hər tərəfə metastaz verib. Xərçəngin ən pisindəndir.

Ə f l a t u n. Axı, belə, bir şey bilinmir... Düzdü, arıqlayıb, amma, o adı nədir, şey, özü pəhriz tutur...

P r o f e s s o r. Bir azdan, ağrısı bərkiyəcək. Heç bir əlacı yoxdur. Cərrahiyyə-zad kömək etməz, yazıq əzabla öləcək.

Ə f l a t u n. Vay!..

P r o f e s s o r. Sən onun qohumlarına çatdır. Qoy mənimlə danışsınlar. *(Gedir.)*

Ə f l a t u n *(öz-özünə)*. Əcəb işə düşdük!.. Bu Əbdül Qafarzadə, əclaf oğlu əclaf, ölsə, bəs mən, o adı nədir, şey, nə olacağam?

İ ş ı q s ö n ü r .

## İYİRMİNCİ ŞƏKİL

X o s r o v, M o l l a Ə s ə d u l l a, A ğ a b a l a, B a l a n i y a z, B i r i n c i k i ş i, İ k i n c i k i ş i, Ü ç ü n c ü k i ş i, m ə h ə l l ə a d a m l a r ı.

Bakı. Köhnə dağlıq məhəllələrindən birində həyət. Yas məclisidir. X o s r o v, M o l l a Ə s ə d u l l a, A ğ a b a l a və daha dörd-beş kişi üstünə ağ süfrə sərilmiş mizin arxasında əyləşib. Arxadan tək-tək qadınlar evə girib-çıxırlar. Hərdən evdən qadınların ağlaşma səsi gəlir.

M o l l a Ə s ə d u l l a. Əgər, Allah sizə yardım edərsə, heç kim sizə qalib gələ bilməz! Yox əgər, zəlil edərsə, ondan sonra kim sizə köməklik edə bilər?! Quran deyir ki, səbəbsiz cəza yoxdur. Peyğəmbər əleyhissalam hər gün, səhər-səhər bir gölün yanından keçirdi, həmin göldə, atılıb düşə-düşə, çığır-bağır sala-sala bir dəstə oğlan uşağı çimirdi. Ayaqları şikəst olan bir oğlan uşağı isə, göldə çimə bilmirdi. Həsrət dolu qəmli gözlərini göldə çimən oğlanlara zilləyirdi. Baxırdı, baxırdı... Peyğəmbər daha, həsrət dolu o gözlərin kədərinə dözə bilmədi. «Ey Allah! – dedi.– O uşağı şikəstlikdən qurtar!» Səhəri gün Peyğəmbər gördü ki, o oğlan şikəstlikdən xilas olub, uşaqlarla birlikdə atılıb-düşür, uşaqlarla birlikdə göldə çimir. Gözləri gülür və o həsrət yox olub... Bir gün belə keçdi, iki gün belə keçdi, üçüncü gün Peyğəmbər əleyhissalam gördü ki, həmin oğlan səhər tezdən gölə gəldi, qamışları kəsib, bir-bir ucunu iti yondu. Və gölə baş vurub o qamışları suyun dibinə basdırmağa başladı ki, iti ucları, bir azdan gəlib gölə atılan uşaqların başına, qarnına batsın... Peyğəmbər dedi: «Ey Qadir Allah, bağışla məni! Mən sənin ədalətini indi başa düşdüm!».

A ğ a b a l a . Ət dalıyca adam göndərmişəm. Xədicə arvadın ehsanında əti mən verəciyəm. Düyünü, göyərtini, ədviyyatı təşkil eliyəciyik. Xədicə arvadın ehsanı məhəlləyə layiq olmalıdı!

M o l l a  Ə s ə d u l l a. Allah cəmi ölənlərərinizə rəhmət eləsin! Köhnə qəbiristanlıqda yer məsələsi də düzəlsəydi, arvadın ruhu şad olardı!..

B i r i n c i  k i ş i. Həri, amma köhnə qəbiristanlıqda yer almaq müsibət bir işdi. Gərək, orda mütləq ata-babovun qəbri olsun ki, aparıb birtəhər yanında basdırasan...

İ k i n c i  k i ş i. Kim bilir ki, yazıq Xədicə arvadın ata-babası harda dəfn olunub? Bircə oğlu Balaniyazdı, o da siçan tutmaqdan başqa bir şey bilmir...

B i r i n c i  k i ş i. Ya da gərək pulun olsun ki, aparıb rüşvət verəsən, ölüvə yer ayırsınlar... Hökumət deyir ki, yer müftədi! Ay müftə verdilər a!.. Bizdə müftə şey var?

Ü ç ü n c ü  k i ş i. Siçan Balaniyaz da, əfəlin biri, birdən heç xəbəri olmaz ki a, anası rəhmətə gedib...

İ k i n c i  k i ş i. Xəbər göndərmişəm. Vecsiz oğlu, ayda bir dəfə heç olmasa gəlib arvada baş çəkmirdi...

A ğ a b a l a. Xədicə arvad – Allah rəhmət eləsin – oruc tutan, namaz qılan bir adam idi. Onu aparıb, təzə salınmış, müsəlmanı, xristianı, yəhudisi bir-birinə qarışmış o qəbiristanlıqda torpağa tapşırmaq olmaz.

İ k i n c i  k i ş i. Məhəlləyə də yaraşmaz də!..

M o l l a  Ə s ə d u l l a. Arvadı gərək, köhnə qəbiristanlıqda dəfn eliyək!

Məclis iştirakçıları yerbəyerdən təsdiq edir:

– Mütləq!
– Yoxsa, vallah, günaha batarıq!
– Arvadın ruhu bağışlamaz bizi!

A ğ a b a l a . Həri! Molla Əsədulla da sağ olsun ki, Xədicə arvadın məclisini pulsuz, təmənnasız yola verir.

M o l l a  Ə s ə d u l l a. Siz sağ olun, mənim borcumdu!

Məclis iştirakçıları M o l l a  Ə s ə d u l l a d a n  razılıq edir.

– Ömrü uzun olsun!
– Allah ölənlərinə rəhmət eləsin!
– Allah ürəyincə versin!

M o l l a  Ə s ə d u l l a. Sağ olsun məhəllənin camaatı! Siz sağ

olun! Hamı öz börcunu verməlidir. Zəmanə arsız zəmanədir, ancaq biz gərək Xədicə arvadı «əl-rəhmanla», hörmət-izzətlə qaldıraq.

Ü ç ü n c ü  k i ş i. Bu Siçan nöş gəlib çıxmadı belə?..

İ k i n c i  k i ş i. Gələr indilərdə...

Ü ç ü n c ü  k i ş i *(rişxəndlə).* Başı qarışıqdır kişinin. Bakının birinci siçantutan sanitarıdı!..

B i r i n c i  k i ş i *(eyni rişxəndlə).* Neynəsin, siçan basıb da şəhəri...

A ğ a b a l a *(əlini qapıya tərəf uzadır).* Ode, gəldi...

B a l a n i y a z gəlir.

B a l a n i y a z. Allah rəhmət eləsin! Allah səbr versin! Əl-əlbət son qəmivüz olsun! İş adamıyam da mən, gecikdim. Obyektə getmişdik. Allah rəhmət eləsin! Əl-əlbət, işimiz çoxdur yaman. Allah rəhmət eləsin!

Ü ç ü n c ü  k i ş i. Balaniyaz, sizin idarəvüz siçanlarla mübarizə aparır, bunu bilirik, bəs siçovullar?

B a l a n i y a z *(onun istehzasını hiss etmir).* Əl-əlbət, siçovullarnan da!

İ k i n c i  k i ş i. Hansıynan mübarizə asandı, siçanla, ya siçovulla?

B a l a n i y a z. Siçan asandı! Siçovul, əl-əlbət, svoloçdu!

İki nəfər həyətə girir.

G ə l ə n l ə r d ə n  b i r i. Köhnə qəbiristanlıqda deyirlər yer yoxdu...

B i r i n c i  k i ş i. Mən sizə dedim də!.. Onlardan yer almaq olar?!

A ğ a b a l a. Alə, belə də iş olar?! Ölümüzü basdırmağa yer tapmırıq!

İ k i n c i  k i ş i. Neyniyək?! Aparıb qoca arvadı çöllü-biyabanda basdıraq?!

Ü ç ü n c ü  k i ş i. Alə, onu təzə qəbiristanlığa aparsaq a, o çölün düzünə... Bilirsən, ruhu necə qarğış edəcək bizə?!

A ğ a b a l a. Alə, belə də hökumət olar?!

B i r i n c i  k i ş i. Stalinin vaxtı olaydı, sən də belə sözlər deyəydün!..

A ğ a b a l a .  Stalində işün olmasın, alə, Stalin kişi adamıydı! Stalinin vaxtında rüşvət varıydı?

İ k i n c i  k i ş i. Bir ağsaqqal getsin köhnə qəbiristanlığın böyüyünün yanına.

Hamı M o l l a  Ə s ə d u l l a y a  baxır.

M o l l a  Ə s ə d u l l a. Mən bu saat avtobusa minib gedərəm. Ancaq indi mollanın ağzına baxan var? Sovet hökuməti mollanı soxub *(Gözü Balaniyaza sataşır.)* siçan deşiyinə.

Hamı X o s r o v a  baxır.

O arvad, Allah ona rəhmət eləsin, süzün xətrivüzü çox istəyirdi, müəllim.

B a l a n i y a z. Bəli, əl-əlbət belə idi. Mənə də deyirdi.

İ k i n c i  k i ş i. Nə deyirdi?

B a l a n i y a z. Deyirdi ki, kirayənişinim, əl-əlbət, çox abırlı insandu!

A ğ a b a l a *(Xosrova).* O arvad, Allah ona rəhmət eləsün, sənün xətrivü *(Balaniyazı göstərir.)* bundan az istəmirdi...

B a l a n i y a z. Əl-əlbət, əl-əlbət!

X o s r o v  ayağa qalxır.

M o l l a  Ə s ə d u l l a. Allah sənnən razı olsun! Get, minnət elə, Allah kərimdi! *(Ağabalaya)* Uşaqlardan birini də qoş ona.

İ ş ı q  s ö n ü r .

**İYİRMİ BİRİNCİ ŞƏKİL**

Ə f l a t u n,  N a s t y a,  X o s r o v.
Bakı. Qəbiristanlıq.
Ə f l a t u n  qarovulçu köşkünün yanında dayanıb kimi isə gözləyir.
Əks tərəfdən bir kök qadın – süpürgəçi Nastya görünür.

Ə f l a t u n. Nastya, damoy idyoş?

N a s t y a . A kuda je yeşo?

Ə f l a t u n. Çto doma?! Odna da doma!

N a s t y a . A çto delat, takova sudba!

Ə f l a t u n. İdyom tuda... *(Köşkü göstərir.)* idyom da... O adı nədir, şey, Vodka toje yest... İdyom! Ladno da... o adı nədir, şey, nikto ni vidit... Xoroşo budet.

N a s t y a . Tı yeşo na çto-to sposoben?

Ə f l a t u n. İdyom da, idyom... Uvidiş da!.. O adı nədir, şey, podarka toje dam da tebe!.. *(Köşkə keçirlər.)* Snimay da palto... *(Köhnə çarpayını göstərir.)* Sadimsya da suda!.. *(Paltonu çıxarmağa kömək etmək istəyir və qadını qucaqlayır.)* Xaroşiy e, tı!.. O adı nədir, şey, umirayu da, ot tebya!.. *(Qadını çarpayıya yıxmaq istəyir.)*

Bu vaxt çarpayının üstündə balaca bir it hürür.

N a s t y a *(səksənir)*. Oy!..

Ə f l a t u n *(itə)*. Kəs səsüvi! Kəs!

İt atılıb döşəməyə düşür və daha da bərkdən hürür.

Ə f l a t u n. Kəs demədim sənə?! *(İti təpiklə vurmaq istəyir.)* Çıx burdan! *(Köşkün qapısını açır.)* Çıx!..

İt hürə-hürə çarpayının altına girir.

*(Çarpayının altına tərəf əyilərək)* Çıx ordan, əclaf!

İt hürür.

N a s t y a . Oy, kakaya xoroşaya sobaçka!..

Ə f l a t u n. Plaxoy sabaka! *(Çarpayının altına)* Çıx ordan!

İt hürür.

*(Altdan yuxarı başını qaldırır.)* Tı sadis, o adı nədir, şey, kravat. Seyças!

N a s t y a . Da kuda uj tam! Toje mne, kravat! Tı je ne mojeş

spravlyatsya daje s malenkoy sobaçkoy! *(Əynində paltosunu düzəldib köşkdən çıxır.)*

Ə f l a t u n. Kuda tı? O adı nədir, şey, pastoy!

Ə f l a t u n döşəmədən qalxıb onun ardınca çıxır və X o s r o v l a üzbəüz gəlir.

X o s r o v. Bağışlayın, qəbiristanlıq müdirini haradan tapmaq olar?

Ə f l a t u n *(qadının ardınca)*. Pastoy!

N a s t y a iti addımlarla səhnədən çıxır.

*(Xosrova)* Nə?

X o s r o v. Qəbiristanlığın müdirini axtarırıq...

Ə f l a t u n *(əli ilə göstərir)*. Ode, orda oturur. *(Diqqətlə Xosrova baxır.)* Mən, o adı nədir, şey, səni harda görmüşəm?

X o s r o v çiyinlərini çəkir.

Şey... Yadıma gəlmir...

X o s r o v. Siz də... tanış gəlirsiz...

Pauza.

Ə f l a t u n. Nə istəyirsən?

X o s r o v. Bilirsiz, bizə yer lazımdır. Qoca arvad vəfat edib.

Ə f l a t u n. Bizdə, o adı nədir, şey, yer yoxdur! Bəlkə... nə bilim... aşağı başda... zeytunluğun yanında, o adı nədir, şey, bir yer tapdım sənə. İstəyirsən, gedib baxaq... Qiyməti iki yüz olacey...

Pauza.

Hə?

X o s r o v. Kasıb arvaddı...

Ə f l a t u n. Yoxdu! Zeytunluqda da, o adı nədir, şey, yer yoxdur. Gedin, təzə qəbiristanlıqda basdırun. Davay!.. *(Səhnədən çıxır.)*

İ ş ı q s ö n ü r.

## İYİRMİ İKİNCİ ŞƏKİL

X o s r o v, Ə b d ü l Q a f a r z a d ə, K a p i t a n,
K a t i b ə.
Qəbiristanlıq. Sol tərəfdə Ə b d ü l Q a f a r z a d ə n i n kabineti və kabinetin qarşısındakı qəbul otağı.
Katibə qəbul otağında mizin arxasında əyləşib. Onunla üzbəüz milis kapitanı əyləşib. X o s r o v daxil olur.

K a t i b ə. Yoxdur, hələ gəlməyib, Əbdül Orduxanoviç yoxdur.

Bu vaxt Ə b d ü l Q a f a r z a d ə daxil olur. K a t i b ə dik ayağa qalxır.

Ə b d ü l Q a f a r z a d ə *(əli ilə katibəyə işarə edir).* Əyləş... Əyləş... *(Kabinetə keçmək istəyərək, kapitana)* Gəlmisən?

K a p i t a n . Dedilər siz çağırmısız.

Ə b d ü l Q a f a r z a d ə. Hə, işim var sənlə. Gəl! *(Kabinetə keçmək istəyir.)*

X o s r o v *(ona yaxınlaşır).* Müdir sizsiz?

K a t i b ə *(Xosrova).* Olmaz! Bu gün qəbul günü deyil! *(Mizin arxasından Xosrovun üstünə cummaq istəyir.)*

Ə b d ü l Q a f a r z a d ə *(əlinin işarəsi ilə katibəni saxlayır).* Eybi yoxdu... *(Xosrova)* Sən də gəl, görüm, nə istəyirsən?

İkisi də kabinetə keçir.

X o s r o v. Salam...

Ə b d ü l Q a f a r z a d ə. Əleykümə!

X o s r o v. Bizim... Bizim... Sizdən xahiş edirik... Qoca arvad vəfat edib. Onu burda basdırmaq istəyirik... lazımdır ki, onu basdıraq burda.

Ə b d ü l Q a f a r z a d ə. Onu basdırmaq lazımdır?!

X o s r o v. Bəli.

Ə b d ü l Q a f a r z a d ə. Basdır da! Bəs mənnən nə istəyirsən?!

X o s r o v. Yer istəyirik də, yer.

Ə b d ü l Q a f a r z a d ə. Mən yer bölənəm?! Ölüb, Allah rəh-

mət eləsin. Kim yapışıb qalacaq bu dünyada?! Hamımız öləcəyik də... Bəs, mənnən nə istəyirsən?

X o s r o v. Yer istəyirik də... Arvadı basdırmaq üçün yer.

Ə b d ü l  Q a f a r z a d ə. Mən yer bölən deyiləm, başıva dönüm sənün. Burda yer yoxdur. Hökumət gül kimi təzə qəbiristanlıq salıb... Aparun o rəhmətliyi orda basdurun da.

X o s r o v *(kapitana, sonra yenə Əbdül Qafarzadəyə baxır).* Yer var! Yer üçün bizdən pul istiyirlər!

Ə b d ü l  Q a f a r z a d ə. Bəs, pulsuz şey olar?!

X o s r o v. Yox e! Siz... Siz başa düşmədiz...

Ə b d ü l  Q a f a r z a d ə. Nəyi başa düşmədim?

X o s r o v. Bizdən rüşvət istiyirlər!

Ə b d ü l  Q a f a r z a d ə. Rüşvət?! Ola bilməz!

X o s r o v. Dörd yüz istədilər! Dörd yüz...

Ə b d ü l  Q a f a r z a d ə *(Kapitana).* Görürsən? Ay-ay-ay!.. *(Xosrova)* Sən rüşvətə qarşı mübarizə aparırsan?!

Pauza.

Get, get ölünlə məşğul ol! Vaxtımı alma!..

X o s r o v. Qanunsuzluqdur bu! Qanunsuzluqdur! Axı, belə qanunsuzluq eləmək olmaz!..

Ə b d ü l  Q a f a r z a d ə. İstəyirsən sənə qanun göstərim? *(Kapitana)* Qanunu göstər buna!

K a p i t a n  himə bəndmiş kimi, X o s r o v u n  yaxasından itələyir.

K a p i t a n *(itələyə-itələyə).* Bas bayıra!

İ ş ı q  s ö n ü r .

## İYİRMİ ÜÇÜNCÜ ŞƏKİL

Ə b d ü l  Q a f a r z a d ə, K a z ı m l ı.
Bakı. Rayon İcraiyyə Komitəsinin sədri K a z ı m l ı n ı n  kabineti.
K a z ı m l ı  mizin arxasında əyləşib.

Ə b d ü l  Q a f a r z a d ə *(daxil olur).* Salam, yoldaş Kazımlı!

K a z ı m l ı. Bayaq iclasda salamlaşmadıq?!

Ə b d ü l  Q a f a r z a d ə. Salam Allahın kəlamıdır...

K a z ı m l ı. Allaha çox inanırsan?

Ə b d ü l  Q a f a r z a d ə. Mənim inanıb-inanmamağımdan nə asılıdır, yoldaş Kazımlı? Varsa var, yoxsa da, yoxdu də...

K a z ı m l ı. Filosofluq eləyirsən?.. Özün də buldozer istəyirsən, hə?! Texnika istəyirsən? Mən indi bir buldozer verdirsəm sənə, necə olar?!

Ə b d ü l  Q a f a r z a d ə. Verdirməzsən...

K a z ı m l ı. Niyə?

Ə b d ü l  Q a f a r z a d ə. Çünki dünyagörmüş adamsan!

K a z ı m l ı. Bəs, onda nə demoqoqluq edirsən?! Yəni ki, yoldaşlar, bax, deməyin ki, Qafarzadə belədir, elədir. Heç bir şəxsi, maddi marağım yoxdur mənim. Qəbirqazanları texnika ilə əvəz etmək istəyirəm, hə?.. Sabah da biri soruşanda, deyəcəksən ki, gedin Rayon İcraiyyə Komitəsinin iclas protokollarına baxın. Mən həmişə texnika istəmişəm. Bürokratlar, laqeydlər verməyiblər... Hə, indi necədir, əmr edim, bir buldozer versinlər sənə, hə?.. Qəbirqazanların da ştatını minimuma qədər ixtisar elətdirim, hə?..

Ə b d ü l  Q a f a r z a d ə. Elətdirməzsən.

K a z ı m l ı. Mən elətdirmərəm, Qəribli elətdirər. Tapşırar, buldozer də yollayarlar sizə, kompressor da. Onun bir sözünü kim iki edəcək?!

Ə b d ü l  Q a f a r z a d ə. Katib tapşırandır, bu on ildə tapşıraydı da... Burada deyirsən, orada yadından çıxır. Görmürdün, iclasda qarnı elə quruldayırdı ki, elə bil, zavod işləyir.

K a z ı m l ı. Sən onu yaxşı tanımırsan. Bayaq gördün mənə necə baxdı?! Köhnə qurddu!..

Ə b d ü l  Q a f a r z a d ə . Qurddu, qurd olsun da... Bəs biz nəyik? Dovşan-zadıq?!

Pauza.

K a z ı m l ı. Kişiyə qızıl lazımdır.

Ə b d ü l  Q a f a r z a d ə. Hansı kişiyə?

K a z ı m l ı. Qəribliyə də. Dünən çağırmışdı məni. Ordan-burdan söhbət etdi, sonra başladı ki, pensiyaya çıxmaq istəyirəm. İşdən getmək üçün ərizə verəcəyəm. Qocalmışam, yorulmuşam. Sözdür, deyir də... Ərizə verəndir o?! Sonra da yavaş-yavaş fırlatdı, gətirib onun üstünə çıxartdı ki, bir az pulum var, istəyirəm onu qızıla çevirəm. Düzü əvvəlcə, bu söhbətdən şübhələndim... Ara-

mız elə açıq deyil onunla... Özün bilirsən, ildə üç-dörd dəfə hörmət edirəm ona, vəssalam, nə mən onun adamıyam, nə də o mənim adamımdı. Nə isə, fikirləşdim, niyə məni seçib?! Elə indi də fikirləşirəm... Min dənə qızıl onluq almaq istəyir. Bilir də ki, sovet puluna etibar yoxdu... Yığdıqlarını istəyir qızıla çevirsin.

Pauza.

Birinci katibdi, deyib, gərək eləyim. Bəlkə sınayır məni? Bilmirəm... Mənim də, səndən başqa, gümanım gələn adam yoxdu... Bu işi başqa adama etibar edə bilmərəm!

Ə b d ü l  Q a f a r z a d ə. Ona görə səni seçib ki, yaxşı tanıyır səni... Etibar edir sənə...

K a z ı m l ı. Bilmirəm, hər nə isə, gərək kömək edəsən mənə!

Ə b d ü l  Q a f a r z a d ə. Birini neçədən istəyir?

K a z ı m l ı. Qiymətini mən deyəcəm ona... Bilmirsən, xəsisin biridir! Beş-altı dəfə təkrar etdi ki, pulum azdır, ucuz olsun. Bütün varım-yoxum budur! Yalançının atasına lənət! Soyanda, elə soyur ki, adamın cibində qara qəpik də qalmır! Min qızıl onluq istəyir, amma pulu yoxdu!

Ə b d ü l  Q a f a r z a d ə. Biri min manata düzələr.

K a z ı m l ı. Çox bahadır! Bir milyon eləyir e! Qorxuram, razı olmasın!

Ə b d ü l  Q a f a r z a d ə. Bunun elə üç yüzü, qarantiyadır ki, heç kim, heç nə bilməyəcək. Söz-söhbət olmayacaq da! Bunun day nəyi bahadır?!

K a z ı m l ı. Yaxşı... *(Ayağa qalxır.)* Özün də aya-ilə dönmüsən.

Ə b d ü l  Q a f a r z a d ə *(pencəyinin iç cibindən çıxartdığı zərfi ona uzadır).* Bağışla, bu dəfə bir-iki gün gecikdirdim, amma, vallah, işim yaman çoxdu, heç başımı qaşımağa vaxt tapmıram... *(Öskürür.)*

K a z ı m l ı. Nə olub, soyuqlamısan?

Ə b d ü l  Q a f a r z a d ə. Boş şeydi, keçib gedəcək. Al.

Kazımlı tez zərfi götürüb pencəyinin iç cibinə qoyur.

Sən elə et ki, yol çəkmək üçün asfalt sexi açım... Nə imkanın varsa, et... Qoy açım o sexi... Hələ ki, başqa adama demirəm, sə-

nə deyirəm... Başqasına xeyir verincə, elə sənə verərəm də!.. Kömək et, həm qəbiristanlıq abad olsun, həm planı yaxşı verək, həm də ki, özümüzçün çox yaxşı olar. Uzağa getmirəm heç, bax, Bakının o köhnə məhəllələrində binalar ki var a, hamısının damı qırdandır... Sayı-hesabı yoxdu o cür binaların... Payızda da, qışda da damları su buraxır. Təmir elətdirə bilmirlər. Kimə elətdirsinlər? İndi qırçı var? Şəhərdə, demək olar ki, qırçı qalmayıb. Mən onların təmirinə başlasam, özü də lap güzəştlə, bilirsən, nə olar?! Bu pulu sayıb qurtarmaq olmaz. Sənin də işlərin yaxşı olar.

K a z ı m l ı. Baxarıq...

İ ş ı q s ö n ü r.

## İYİRMİ DÖRDÜNCÜ ŞƏKİL

Ə b d ü l Q a f a r z a d ə, N ə c ə f A ğ a y e v i ç.
Bakı. Bağça.
Ə b d ü l Q a f a r z a d ə ilə N ə c ə f A ğ a y e v i ç ayaq üstə dayanıb söhbət edirlər.

N ə c ə f A ğ a y e v i ç. Xeyirdi, belə təcili çağırtdırmısan məni?

Ə b d ü l Q a f a r z a d ə. Nəcəf Ağayeviç, sən ömründə məndən ziyan görmüsən? Mənə min dənə qızıl onluq lazımdı.

N ə c ə f A ğ a y e v i ç. Min dənə qızıl onluq?!

Ə b d ü l Q a f a r z a d ə. Hə, min dənə qızıl onluq.

N ə c ə f A ğ a y e v i ç. Deyirsən, gərək tapaq də... Neçədən olacaq?

Ə b d ü l Q a f a r z a d ə. Dayan hələ. O min qızıl onluğun gərək hamısı da falşivi olsun.

Pauza.

N ə c ə f A ğ a y e v i c . Çətin işdi...

Ə b d ü l Q a f a r z a d ə. Çətin olmasaydı, səni niyə çağırırdım?

Pauza.

N ə c ə f A ğ a y e v i ç. Əbdül, sənə dərin hörmətim olduğu üçün, taparam!

Ə b d ü l Q a f a r z a d ə. Çox sağ ol, Nəcəf! Özün bilirsən, mən belə şeyləri yaddan çıxardan adam deyiləm! Hamısına əlli min manat verəcəyəm.

N ə c ə f A ğ a y e v i ç. Əlli min... Mənim özümə heç nə lazım deyil.

Ə b d ü l Q a f a r z a d ə. Sənin özün mənim boynuma!

N ə c ə f A ğ a y e v i ç. Sabah axşam sənə zəng eləyərəm.

Ə b d ü l Q a f a r z a d ə. Yox, mən bu axşam Moskvaya uçuram, işim var. Bazar ertəsi zəng elə!

N ə c ə f A ğ a y e v i ç. Yaxşı!..

İ ş ı q s ö n ü r.

## İYİRMİ BEŞİNCİ ŞƏKİL

Ə b d ü l Q a f a r z a d ə, R o z a.
Moskva. Mehmanxanada otaq.
Telefon zəng çalır. Ə b d ü l Q a f a r z a d ə pijamada o biri otaqdan çıxıb dəstəyi qaldırır. Əyninə penuar geymiş R o z a onun ardınca gəlir.

T e l e f o n d a s ə s *(rusca).* Moskva, 2321678?

Ə b d ü l Q a f a r z a d ə. Da

T e l e f o n d a s ə s. Qovorite s Baku.

Ə b d ü l Q a f a r z a d ə. Jdu...

T e l e f o n d a s ə s. Zdravstvuyte, dyadya Abdul! Eto Omar qovorit. Telefonuvuzu güclə tapmışam. Necəsiz?

Ə b d ü l Q a f a r z a d ə *(sakit).* Nə olub?

T e l e f o n d a s ə s. Çto?

Ə b d ü l Q a f a r z a d ə *(səbrlə).* Nə olub, soruşuram?

T e l e f o n d a s ə s. Mama xəstələnib, dyadya Abdul.

Ə b d ü l Q a f a r z a d ə. Ciddidir vəziyyəti?

T e l e f o n d a s ə s. Çto?

Ə b d ü l Q a f a r z a d ə. Soruşuram, ciddidir vəziyyəti. Ağırdır?

T e l e f o n d a s ə s. Hə, ağırdır.

Ə b d ü l Q a f a r z a d ə. Balam, sənin anan yazıq sağlam adam idi...

T e l e f o n d a  s ə s. Mənim anam yox e, dyadya Abdul, sənin arvadın... tvoya jena... Qaratel mama xəstələnib. Biz də gəlmişik bura. Sizin kvartiradan danışıram. Sevil, doç vaşa skazala, çtob ya pozvonil vam, a to ya, ne bespokoil bı vas. Ona oçen boitsya. Vot, sama podaşla. Qovorite...

Pauza.

S e v i l. Papa, tez gəl!.. *(Ağlayır.)* Bıstro priyezjay!..

Ə b d ü l  Q a f a r z a d ə. Qorxma! Heç nə olmaz! Bu saat çıxıram! *(Dəstəyi asıb, tələsik geyinməyə başlayır.)*

R o z a. Çto sluçilos?

Ə b d ü l  Q a f a r z a d ə *(fikirli)*. Mən gedəsi oldum, Roza...

R o z a *(təəccüblə)*. Hara?

Ə b d ü l  Q a f a r z a d ə. Bakıya.

R o z a. Bakıdan dünən gecə gəlmişik ki?

Ə b d ü l  Q a f a r z a d ə *(təmkinlə)*. Vacib iş çıxdı...

R o z a. Nə vacib iş? *(Onu yamsılayır.)* «Vacib iş... vacib iş...» Bəs mən? Üç aydı deyirsən mənə ki, aparacam səni Moskvaya, bir həftə qalacam sənnən Moskvada! Bəs nə oldu?

Ə b d ü l  Q a f a r z a d ə *(səbrlə)*. Sən nə qədər istəyirsən, gəzdolan burda. *(Cibindən bir konvert çıxarıb mizin üstünə qoyur.)* Al.

R o z a. Bu nədir?

Ə b d ü l  Q a f a r z a d ə. Pul.

R o z a *(qışqırır)*. Özün çıxıb gedirsən, mənə də pul verirsən? Za usluqi? *(Daha da bərkdən qışqırır.)* Yox!.. Mən kiməm bəyəm səninçün?

Ə b d ü l  Q a f a r z a d ə *(birdən-birə əsəbiləşərək, Rozanın yaxasından yapışır)*. Sən bilmirsən kimsən? Hə? *(Qızın yaxasını ovcunda bürmələyib sıxır.)* Bilmirsən?!

R o z a *(boğularaq qorxu içində)*. Burax... Bağışla...

Ə b d ü l  Q a f a r z a d ə *(eyni qəzəblə qızı itələyir)*. Qəhbə!.. *(Öskürür.)*

R o z a  yerə yıxılır. Ə b d ü l  Q a f a r z a d ə öskürə-öskürə sürətlə səhnədən çıxır.

İ ş ı q  s ö n ü r.

## İYİRMİ ALTINCI ŞƏKİL

Ə b d ü l Q a f a r z a d ə, X o s r o v, K a t i b ə.
Bakı. Qəbiristanlıq. Ə b d ü l Q a f a r z a d ə n i n kabineti və qəbul otağı. Ə b d ü l Q a f a r z a d ə kabinetdə oturub siqaret çəkir. K a t i b ə qəbul otağında mizin arxasında əyləşib. X o s r o v qəbul otağına girir.

K a t i b ə. Olmaz! Olmaz! Ağır xəstəsi var! Olmaz!

X o s r o v məhəl qoymadan kabinetə girir.

Ə b d ü l Q a f a r z a d ə. Hə, kişi, yenə sənsən? Hələ basdurmamusuz ölüvüzü indiyə qədər? Nə oldu, sovet qanunları kömək eləmədi sənə?! Day, bir də qanunbazlıq etmiyəcəksən ki?! Hə?.. Qanundan dəm vurmağın axırı sırağagünki kimi olur! Gördün ki! Qanun, bax, o qəzetlərdə yazılan döyül e, başuva dönüm, burda mənəm qanun! Mən!

X o s r o v birdən heyvani bir ehtirasla Ə b d ü l Q a f a r z a d ə n i n üstünə atılır. İki əli ilə onun boğazından yapışıb boğmağa başlayır.

X o s r o v. Bilirəm! Sənsən! Bütün müsibətləri başımıza açan sənsən! Məni sən Sibirə göndərmişdin! Məni öldürən də sənsən! O tonqalı sən qalamışdın! Sən taunsan! Taun!.. Taun!.. Taun!..

Səs-küyə K a t i b ə içəri qaçır, yumruğu ilə X o s r o v u döyəcləməyə başlayır.

K a t i b ə *(onu döyəcləyə-döyəcləyə).* Burax onu! Burax! Burax, neqodyay!

X o s r o v. Sən taunsan! Taun!.. Taun!.. Taunsan sən! Taun!.. Taun!..

Ə b d ü l Q a f a r z a d ə güclə yaxasını ondan qurtarır. Yumruğu ilə Xosrovu vurur. Xosrov səndələyir.

X o s r o v. Taun!.. Taun!.. *(Qışqıra-qışqıra qaçıb səhnədən çıxır.)* Taun!.. Taun!.. Taun!..

Əbdül Qafarzadə öskürməyə başlayır və öskürəyi get-gedə bərkiyir. Sonra qusmağa başlayır.

K a t i b ə *(qorxu içində).* Vaxsey!.. Kişi qan qusur!..

İ ş ı q s ö n ü r.

## EPİLOQ

Birinci qadın, İkinci qadın, Üçüncü qadın, Dördüncü qadın, Beşinci qadın, Molla Əsədulla, Balaniyaz, Xosrov, Müəllif və başqaları.
Bakı. Qəbiristanlıq. Xədicə arvadın dəfni. Xosrov, Molla Əsədulla, Balaniyaz və digər məhəllə camaatı mərhumu son mənzilə yola salır.

Birinci qadın. Vay, vay, vay, bura lap mikrorayon dur ki...

İkinci qadın. Yazıq Xədicə arvad...

Üçünc qadın. Nə olub ki, bura...

Dördüncü qadın. Qəbiristanlıqdır da...

Beşinci qadın. Bura ki, bu qədər məxluq basdırıblar... Adam deyillər bunlar?! İnkubator kimi daşları düzüblər...

Molla Əsədulla *(bərkdən).* Əslində, müsəlmançılıqda, qəbrin üstü gərək torpaqla bərabər olsun. Qəbir, gərək torpağa qarışsın. Müsəlman qəbri, gərək torpaqdan seçilməsin...

İkinci qadın.. «Tülkü Gəldi Qəbiristanlığında» qəbirlərin üstündə mərmərdən imarətlər tikirlər!..

Molla Əsədulla *(bərkdən).* O təmtəraq ki, indi edirlər, o sonraların işidir. Əvvəllər belə şeylər olmayıb! Müqəddəs bir şəxs ölərdi, ya bir alimi-üləma köçərdi dünyadan, ona məqbərə tikərdilər, vəssalam! İndi müqəddəslik yoxdur day! Kimin pulu var, məqbərə də onundur. *(Qurandan oxuyur.)*

Balaniyaz *(Xosrova).* Kişi, sən də get, əl-əlbət, özüvə başqa bir yer tap. Sabahdan çıx anamın evindən! Satacayam evi, əl-əlbət, uje müştəri tapmışam.

Molla Əsədullanın avazı eşidilir.

Müəllif. Nə vaxtsa, Xosrov müəllim də öləcək və yəqin ki, o da burada dəfn olunacaq. Əlbəttə, əgər morqda sahibsiz qalıb anatomların əlinə keçməsə, sümükləri çıxarılıb, təbabəti öyrənən gələcək həkimlər üçün dərs vəsaitinə çevrilməsə, yəqin ki, elə belə də olacaq. Amma kim bilir? Yer üzündə Xosrov müəlli-

min ki, heç kimi yoxdur... Xosrov müəllim öləcəkdi... Mənalımı, mənasızmı... çox güman ki, mənasız, uzun bir ömür sona yetəcəkdi... Amma, o biri dünyada Xosrov müəllimin ruhu altı yaşlı Cəfərlə, dörd yaşlı Aslanla, iki yaşlı Azərlə görüşəcəkdi... Başqa cür ola bilməzdi... Əgər o görüş olmayacaqsa, O dünyada cənnət və cəhənnəm yoxdursa, heç kim cəhənnəm odunda yanıb öz cəzasını almayacaqsa, onda Bu dünyada yaşamağın mənası nədir?!. Allah belə mənasız bir şeyi yaratmazdı!.. «Ey iman gətirənlər! Səbr və ibadət etməklə Allahdan kömək diləyin! Çünki, Allah səbr edənlərindir, onların dostudur.» Elçin. «Taun yaşayır». Bir həyatın xronikası.

İ ş ı q  s ö n ü r.

*Fevral 2000.*

# Q A T İ L

***(ULDUZLAR ALƏMİNDƏ QƏTL)***

*On bir şəkildən ibarət drama*



## İŞTİRAK EDƏNLƏR

Qadın.
Gənc k i ş i.
Qonşu qadın.
Qonşu k i ş i.
Şagird Həsənzadənin anası.

Z a m a n – 2001-ci il, payızın sonları.
M ə k a n – Bakı şəhəri.

# I. MƏHƏBBƏT

## BİRİNCİ ŞƏKİL

Q a d ı n, Ş a g i r d H ə s ə n z a d ə n i n a n a s ı,
Q o n ş u q a d ı n, Q o n ş u k i ş i.
Qadının mənzili. Axşam. Səliqəli və sadə bir otaqdır: üst-üstə düzülmüş kitab rəfləri, paltar dolabı, divan-çarpayı, miz, stullar.
Q a d ı n mizin arxasında əyləşib və əlində qələm, mizin üstündəki bir qalaq şagird dəftərlərini yoxlayır.

Q a d ı n *(başını bulayır).* Ay Həsənzadə, Həsənzadə!.. Sən bu kimyanı haçansa başa düşəcəksən, ya yox?

Pauza.

Kimyadan yaxşı şey var dünyada?

Pauza.

Hə, Həsənzadə?

Pauza.

*(Dərindən köks ötürür.)* «İki»... «İki», Həsənzadə!.. Düzdü, sənin məşhur atan böyük adamdı, amma mən nə edim? Hə, Həsənzadə? Başa düşürəm e, sən bircə oğulsan, özün də pis oğlan deyilsən, amma kütsən də, vallah, mən nə edim? Yenə «iki», Həsənzadə! «İki»! Ay aman, yenə anan gələcək...

İşıq, üzü tamaşaçılara tərəf dayanmış
Ş a g i r d H ə s ə n z a d ə n i n a n a s ı n ı n üzərinə düşür.

Ş a g i r d H ə s ə n z a d ə n i n a n a s ı. Müəllimə, o, sizi, bilirsiz nə qədər çox istəyir?!.

Q a d ı n *(əvvəlki kimi, mizin arxasında oturub dəftərə baxa-baxa).* Məni istəməsin e, kimyanı istəsin!

Ş a g i r d  H ə s ə n z a d ə n i n  a n a s ı. Müəllimə, hamı bizdən nəsə xahiş edir... Təkcə sizdən başqa...

Q a d ı n *(çiyinlərini çəkir).* Mənə nə lazımdı ki?..

Ş a g i r d  H ə s ə n z a d ə n i n  a n a s ı. Yəni sizin bircə xahişiniz də yoxdu?

Q a d ı n *(fikirləşir).* Var!

Ş a g i r d  H ə s ə n z a d ə n i n  a n a s ı *(sevincək).* Hə? Nədir?

Q a d ı n. Bax, bu *(Barmağı ilə mizin üstündəki dəftəri göstərir.)*, kimyanı öyrənsin!

Ş a g i r d  H ə s ə n z a d ə n i n  a n a s ı. Of-f-f!..

Ş a g i r d  H ə s ə n z a d ə n i n  a n a s ı n ı n üzərinə düşən işıq sönür.

Q a d ı n *(qarşısındakı dəftərə qiymət yazıb, qol çəkib, kənara qoyur və yeni dəftər açır).* Əhmədəliyev, doğrusu, heç səndən də gözüm su içmir... Görək də... Görək sən nə yazmısan?.. *(Yoxlamağa başlayır.)*

Pauza.

Sağ ol, Əhmədəliyev!..

Pauza.

Düzünü de, Əhmədəliyev, köçürmüsən? Hə?

Pauza.

Ay-ay-ay, Əhmədəliyev!.. Yüz faiz köçürmüsən!

Q o n ş u  q a d ı n otağa daxil olur.

Q o n ş u  q a d ı n. Ay məlimə, yenə qapını açıq qoymusan?

Q a d ı n. Açıq qoymuşam?

Q o n ş u  q a d ı n. Hə...

Q a d ı n. Olsun də... *(Gülür.)*

Q o n ş u  q a d ı n. Necə, olsun də?.. Biri gəlib girər içəri!..

Q a d ı n. Gəlib içəri girər? *(Gülə-gülə)* Mən kimə lazımam?

Q o n ş u  q a d ı n. A-a-a... Ay məlimə, vallah, sən çox qəribə

adamsan!.. Neçə ildi sənlə qonşuyuq? Az qala, on ildi!.. Bu on ildə, Allahın hər verən günü, axşamlar ya beləcə oturub dəftər yoxlayırsan, ya da dərsə hazırlaşırsan. Bazar günləri də evi yığışdırırsan. *(Ətrafı nəzərdən keçirərək)* Heç yığışdırılmalı bir şey də yoxdu, onsuz da, hər tərəf tərtəmizdi...

Q a d ı n. Bilirsən mənim necə bir arzum var?

Q o n ş u q a d ı n. Nə arzu?

Q a d ı n *(gülə-gülə).* Yaxşıca bir töküb-töküşdürəydilər bu otağı, mən də sonra yığıb-yığışdıraydım!..

Q o n ş u q a d ı n. A-a-a... Onda, gəl, səninlə yerimizi dəyişək, görüm, onda nə deyəcəksən?.. *(Barmağını boğazına çəkir.)* Mən bura yığılmışam ev təmizləməkdən! Dəyişək yerimizi?

Q a d ı n. Axı, bu mümkün deyil... Bu dünyada hərənin öz missiyası var... «Missiya» bilirsən, nədi?

Q o n ş u q a d ı n. Yox.

Q a d ı n. Elə bilməsən yaxşıdı! *(Gülür.)* Mən bir az birtəhərəm də, hə?

Q o n ş u q a d ı n. Yox e, ay məlimə, bir, teatra gedəsən, konsertə gedəsən, nə bilim, birinin bir toyuna gedəsən... Nə olub sənə, qocalıb, əldən düşməmisən ki, canı sulu adamsan! Vallah, məəttəl qalmışam!.. Bezdirmir səni bu təklik?

Q a d ı n. Tək niyə oluram? *(Gülür.)* Bəs, Əhmədəliyev? Bəs, Həsənzadə?

Q o n ş u q a d ı n *(təəccüblə).* Əhmədəliyev? Həsənzadə?.. Həsənzadə kimdi?

Q a d ı n *(dərindən köks ötürərək, barmağını boğazına aparır).* Məni lap bura yığıb!

Q o n ş u q a d ı n *(heyrətlə*). A-a-a...

Q a d ı n *(dəftəri göstərir).* Bu gün də bir yağlı «iki» aldı!

Kiçik pauza.

Q o n ş u q a d ı n *(başa düşərək).* Eh!.. Mən də deyirəm, görəsən, Həsənzadə kimdi belə? *(Başını bulayır.)* Nə deyim, vallah... Bizim kişi bu gecə növbətçidi, yemək qoyurdum ona, gördüm ki, bizdə yumurta qurtarıb. Səndə yoxdu? Sabah bazara gedəcəyəm, qaytararam.

Q a d ı n. Soyuducuya bax. Olsun gərək.

Q o n ş u  q a d ı n mətbəxə keçir.

*(Yeni dəftər götürür.)* Bu kimdi? Aha, bu da bizim Məmmədli dostumuz! Səhərdən haradasan? Gəl, bir az ürəyimiz açılsın də!.. *(Dəftəri oxumağa başlayır.)*

Q o n ş u  q a d ı n *(mətbəxdən)*. Xörəkləri bişirirsən, hamısını yeyə bilmirsən, yığırsan bir-bir soyuducuya...

Q a d ı n *(gözlərini dəftərdən ayırmayaraq)*. Qonağım gələcək!

Q o n ş u  q a d ı n *(mətbəxdən)*. Qonağın?

Q a d ı n. Hə!

Q o n ş u  q a d ı n. Nə vaxt?

Q a d ı n. Mən nə bilim? *(Dəftəri daha da diqqətlə oxuyur.)* Bax, bu, başqa məsələ!..

Q o n ş u  q a d ı n *(mətbəxdən)*. Kimlə danışırsan?

Q a d ı n. Məmmədliylə!

Q o n ş u  q a d ı n *(əlində iki yumurta, otağa girərək dəftərlərə işarə edir)*. O da bunlardandı?

Q a d ı n *(gülür)*. Əlbəttə! Bəs, kimlərdən olacaqdı?

Q o n ş u  q a d ı n. Qonaq deyirdin, o da?

Q a d ı n. Yox, o, bunlardan deyil.

Q o n ş u  q a d ı n. Bəs, haradandı?

Q a d ı n *(əli ilə pəncərəni göstərir)*. Ulduzlar aləmindən!..

Q o n ş u  q a d ı n *(başını bulayır)*. Eh!..

Qapının ağzından öskürək səsi gəlir, sonra əyninə polis forması geymiş Q o n ş u  k i ş i qapıdan boylanır.

Q o n ş u  k i ş i *(Qadına)*. Salam, məlimə! *(Qonşu qadına.)* Evə qayıtmaq fikrin yoxdu? Növbəyə getməliyəm axı!..

Q a d ı n. Salam! Salam! Keçin içəri.

Q o n ş u  k i ş i *(otağa daxil olur)*. Necəsiz, məlimə?

Q a d ı n. Mən əlayam! Siz necəsiz?

Q o n ş u  k i ş i. Mən əla deyiləm!

Q a d ı n. Niyə?

Q o n ş u  q a d ı n. Ona görə ki, arvadı mənəm!

Q a d ı n *(gülür)*. Yox... *(Qonşu kişiyə.)* Deyin görək, siz niyə əla deyilsiz?

Q o n ş u  k i ş i. Düz otuz dörd ildir polis nəfəriyəm! İndiyə qədər, cəmi, iki cibgir, üç nəfər də xuliqan tutmuşam, vəssalam!

Q a d ı n. Bəs, nə olmalıydı?

Q o n ş u k i ş i. Heç olmasa, bir nəfər qatil tutaydım!

Q a d ı n. Qatil? *(Həyəcanla.)* Ay aman!.. Arzuya bax e!..

Q o n ş u q a d ı n. Mağıl, bir qatil tutsaydı, heç olmasa, pul mükafatı verərdilər!

Q o n ş u k i ş i *(gülərək başını bulayır).* Məndə o bəxt hanı?!

Q a d ı n. Siz heç bilirsiz, nə arzulayırsız?

Q o n ş u q a d ı n. A-a-a!.. Nöş bilmirik? İstəyirəm ki, mənim ərim də bir qatil tutsun də!..

Q a d ı n. Axı, qatil arzulamaq olmaz!

Q o n ş u q a d ı n. Nöş? Başqaları qatil tuta bilər, mənimki yox?

Q a d ı n. Axı, qatil arzulamaq, o deməkdir ki... gərək kimsə, kimi isə öldürsün ki, qatil olsun, sonra da siz o qatili tutasız!

Pauza.

Q o n ş u q a d ı n *(bir az pərt).* Məlimə, sən həmişə, ona necə deyirlər, mürəkkəbləşdirirsən hər şeyi... Ona görə də... *(Sözünü yarımçıq kəsir.)*

Q a d ı n. Nə? Ona görə də, nə?

Q o n ş u q a d ı n. Heç...

Q a d ı n. Yox, de! Demirsən? *(Gülür.)* Onsuz da, bilirəm nə demək istəyirdin. Demək istəyirdin ki, ona görə də işlərin düz gətirmir, qırx bir yaşın var, amma evdə qarımısan, tək qalmısan... Hə?

Q o n ş u q a d ı n *(özünü itirmiş).* Mən... mən elə demək istəmirdim...

Q a d ı n. Niyə? Lap elə demək istəyirdin, özün də düz deyirdin! *(Gülür.)*

Q o n ş u k i ş i *(arvadına).* Mən getdim.

Q o n ş u q a d ı n. A-a-a!.. Dayan da, bu saat yemək qoyacağam, özünlə aparasan.

Q o n ş u k i ş i. Yox, istəmirəm... Sağ ol, məlimə! *(Otaqdan çıxır.)*

Q o n ş u q a d ı n *(Qadına).* Yenə acıq elədi. *(Ərinin ardınca gedərək.)* Necə istəmirəm? Səhərəcən ac qalacaqsan orda? *(Otaqdan çıxır.)*

Pauza.

Q a d ı n *(dəftərə baxır).* Belə-belə işlər, Məmmədli!

Pauza.

*(Başını dəftərdən qaldırır.)* Arzuya bax, e!.. Qatil tutmaq!.. *(Yenə dəftərə baxır.)* Vallah, Məmmədli, sən kimyaçı olacaqsan! Özü də, yaxşısından! *(Başını dəftərdən qaldırır.)* Ancaq, bilirsən, Məmmədli, hamı ailə qurmaz ki... Bu boyda dünyadı... Gərək tək qalan da olsun də... *(Başını yuxarı qaldırıb, tavana baxır.)* Bilmirəm, Məmmədli, siz də indi özünüzə Ulduz seçirsiz, ya yox, amma bizim vaxtımızda hərəmiz özümüzə bir Ulduz seçirdik... Sənin boyda olanda, Məmmədli, mən də ulduzlar aləmində dolaşırdım... Mənim də o ulduzlar aləmində öz Ulduzum var idi... Özüm tapıb seçmişdim onu... O qədər ulduzun arasından seçmişdim... Gecələr göyə baxan kimi, onu tapırdım... Yaxşı söhbətlərimiz olurdu onunla... Mənə yaxşı sözlər deyirdi... Göydə nə qədər Ulduz var, axı, onlar da bir-birinin eyni deyil!.. Bilirsən, ey mənim ağıllı şagirdim, ey gələcəyin böyük kimyaçısı, mənim o Ulduzum da, bir küncdə tək-tənhaydı, amma onda mən buna fikir vermirdim... Özü də, mənə elə yaxşı sözlər deyirdi ki...

Pauza.

Qoy, bir baxım, görüm, durur o Ulduz? Qoy, görüm, tapa biləcəyəm onu? *(Qalxıb pəncərəyə yaxınlaşır və pərdəni kənara çəkib şüşədən göyə baxır.)* Vay... Nə yaman bulud bürüyüb göyün üzünü?.. (Yerinə qayıdıb oturur.) Yox, bulud məsələsi deyil, Məmmədli, əzizim... O Ulduz... bilirsən... o Ulduz məndən utanır, ona görə də məndən gizlənir... O vaxt mənə dediyi o gözəl sözlər var idi e, onlara görə məndən utanır... Amma nahaq yerə! Həyatdı də!.. Sən ona de, utanmasın məndən... Yox, yaxşısı budu, sənin beşini yazım! *(Qələmi götürüb, dəftərdə qiymət yazır.)*

İ ş ı q  s ö n ü r .

## İKİNCİ ŞƏKİL

Q a d ı n, G ə n c k i ş i.
Q a d ı n ı n mənzili. Gecə. Q a d ı n otaqda var-gəl edə-edə əlindəki kağıza baxır.

Q a d ı n. Deməli, sabah səhər doqquz otuzda – altıncı sinif... Altıncı... Oy, Həsənzadə, yenə səninlə görüşürük... Sən Allah, adam ol, indi otur, bir az oxu, əzbərlə, nə eləyirsən, elə ki, səhər yenə «iki» almayasan... Heç olmasa, ağzını açıb, iki kəlmə söz de, üzümə baxıb gözlərini döymə, ay Həsənzadə!.. *(Dayanır.)* Dayan! Bu saat sənə telepatik siqnallar göndərəcəyəm ki, oturub kimyanı oxuyasan! *(Gözlərini yumub bir müddət bədənini gərgin vəziyyətə salır, guya, telepatik siqnallar göndərir, sonra dərindən köks ötürür.)* Həsənzadə, bundan sonra da səhər «iki» alsan, vallah, əlac day ona qalıb ki, əlimə oxlov alıb səni, o ki, var, döyəm! *(Kağıza baxır.)* On iyirmidə – doqquzuncu sinif, on bir onda – yeddinci sinif... Gecə vaxtı yağışa bax də!.. *(Pəncərəyə yaxınlaşıb şüşədən baxır.)* Lap leysandı... Göyün hirsi tutub Yer üzünə!.. Düzdü, bir az gecikib, amma, hər halda, axırı ki, hirslənib də... Yaxşı... *(Var-gəl edir.)* Yatmaq lazımdı!.. Get, işığı söndür, gir yerinə... Yox, elə yox, düz demədin, belə demək lazımdı: get, işığı söndür, gir buz kimi yerinə, gözlərini yum və özünü məcbur elə ki, yatasan! Heç nə fikirləşmə! Bildin? Təkcə, onu de görüm, molekul anlayışını birinci kimlər irəli sürüb? Amedeo Avonadro və kim? Amper! Düzdür!.. Amperin adı nədir? Andre Mari! Bəli, Andre Mari Amper!.. Andre Mari və Amedeo, ey gözəl insanlar, sizin heç ağlınıza gələrdi ki, az qala, 200 il keçəcək, Azərbaycan adlı bir məmləkətdə... Bakı adlı bir şəhərdə... şıdırğı yağış yağan bir payız gecəsi... bu mənzildə... baxmaqdan gözlərim mazol olmuş bu dörd divar arasında... şagirdlərin sevmədiyi və... və qorxduğu çox ciddi kimya müəlliməsi, yəni ki, mən, sizin, ey Andre Mari və hörmətli Amedeo bəy, sizin adınızı əzbərləyəcək? Ay ağlınıza gəldi ha!? Bu divarlara isə, nifrət edirəm! *(Qışqırır.)* Eşidirsiz? Nifrət edirəm!.. Nifrət edirəm!..

Pauza.

Qışqırma... Nə olsun, nifrət edirsən? Sökəcəksən bu divarları? Yox... Get, get, yat! Gecə yarısıdı! İşığı söndür, gir yerinə! Qaran-

lıqdan da qorxma! Bəbə deyilsən! Ürəyin də, darıxmasın! Yaxşı, işığı söndürmə, elə, işıqda yat... Hə, nə oldu, gedirsən yatmağa? *(Dərindən köks ötürür.)* Yaxşı... Bir azdan gedərsən... Onda, de, görüm, valentlik haqqında təlimin əsasını kim qoyub? İngilis alimi Franklend! Əhsən! Neçənci ildə? 1852-ci ildə! *(Ayaq saxlayır.)* 52, yoxsa 53? Deyəsən, axı, skleroz başlayıb!.. Tez deyil?.. Hə?.. *(Rəflərə yaxınlaşaraq kitab götürüb açır.)* Bu saat... Valentlik... Aha!.. Yox, hələ skleroz yoxdur! 1852-ci ildə! Skleroz yoxdu, amma hələ yoxdu də, hələ... Bir azdan gələcək. *(Yamsılayır.)* Tık-tık!.. Ey, kimya müəlliməsi, aç qapını, tez elə, mənəm, sklerozam, gəlmişəm!.. *(Kitabı yerinə qoyub var-gəl edir.)* Bəs atom, molekul və ekvivalentlik nə vaxt tamam dəqiqləşdi? 1860-cı ildə! Düzdür! Harada? Karlsrued Beynəlxalq Kimya Konqresində! İndi isə, de, görüm, spektral analiz nədir və onun... *(Qəflətən səsini kəsərək iti addımlarla pəncərəyə tərəf gedib qışqırır.)* Bəsdir! Nə qədər yağmaq olar! Bu qədər yağış olar!? Adamın ürəyi partlayır! Bəsdir!

Pauza.

Yaxşı... Sakit ol... İstəyirsən, kasset qoyum, çalsın, sən də oyna özünçün doyunca! Hə, yaxşı, istəmirsən, istəmə... Onda zəhmət çək, gözəl kimyanı təkrar elə... De, görüm, elementlərin dövri sistemi necə yarandı?

Qapının zəngi çalınır.

Mənim zəngimdi?

Zəng bir də çalınır.

Qapını bağlamışam? *(Qapıya tərəf qışqırır.)* Gəlirəm, ey gözəl qonşu! Ev kirayəsi, işıq pulu, su pulu yığanlardan başqa, mənim yeganə zəng vuranım sənsən, ey gözəl qonşu! Gəldim! *(Qapıya yaxınlaşır.)* Hə, bir də qaz pulu yığandan başqa! *(Qapını açıb təəccüblə baxır.)*

Pauza.

Siz kimi istəyirsiz?

Q a p ı k ə n d a r ı n d a n s ə s . Salam...

Q a d ı n. Salam... Sizə kim lazımdı?

Q a p ı k ə n d a r ı n d a n s ə s . Məni tanımadız?

Q a d ı n qapıya tərəf zəndlə baxaraq, geri addımlayır.
G ə n c k i ş i otağa daxil olur.

G ə n c k i ş i. Tanımadız, hə, müəllimə?

Kiçik pauza.

Q a d ı n *(diqqətlə gözlənilməz qonağa baxaraq).* Kitab... Kitab? Sizsiz?.. Sənsən?

G ə n c k i ş i. Hə... Mənəm...

Q a d ı n. Sən... sən... *(Qonağın suyu süzülən saçlarına, islanmış kostyumuna baxaraq, heyrətlə.)* Sən haradan gəlmisən?.. Nə münasibətlə?..

G ə n c k i ş i. Haçansa gəlməliydim də, bura... Axır ki, gəldim...

Q a d ı n. Siz... sən lap suyun içindəsən ki!..

G ə n c k i ş i. Yağış yağır...

Q a d ı n. Dayan, görüm... Axşam mən məktəbdən qayıdanda, bizim blokla üzbəüz səkidə dayanan sən idin?

G ə n c k i ş i . Hə...

Q a d ı n. Siz... sən o vaxtdan elə orda dayanmısan?

Pauza.

Yağışın altında?

Pauza.

Dünən də, deyəsən, orda dayanmışdın... Sən idin? Hə?

Pauza.

Niyə?

G ə n c k i ş i. Ürək eləmirdim gəlim...

Q a d ı n *(təəccüblə).* Ürək eləmirdin? *(Əli ilə gicgahını tutur.)* Vallah, heç nə başa düşmürəm... Keç içəri... Çıxar pencəyi...

G ə n c k i ş i. Eybi yoxdur...

Q a d ı n. Necə eybi yoxdur? Çıxar. Çıxar pencəyi. *(Qapının*

*yanındakı asılqandan paltarasanı götürüb ona uzadır.)* Ala. As pencəyini.

G ə n c k i ş i pencəyini çıxarıb paltarasana keçirir və əlində tutur.

As də... As burdan.

G ə n c k i ş i paltarasanı asılqandan asır.

Keç, otur...

G ə n c k i ş i mizin arxasındakı stulda əyləşir.

Üşüyürsən?

G ə n c k i ş i. Yox...

Pauza.

Tanıdız məni... Elə bilirdim, tanımayacaqsız...

Q a d ı n. Tanıdım... Əlbəttə, tanıdım...

G ə n c k i ş i. Bu qədər il keçib...

Q a d ı n. Deyim də sənə... Düz on doqquz ildi, mən müəllimlik edirəm. Mən institutu qurtaranda, birinci dəfə sizin sinifə girəndə iyirmi iki yaşım var idi... Sən də həmin 10-cu sinifin şagirdi idin, deməli, on yeddi yaşın var idi...

G ə n c k i ş i. Yox, on səkkiz. Mən məktəbə bir il gec getmişəm.

Q a d ı n. Yaxşı, on səkkiz olsun... Hamı sənə «Kitab» deyirdi, çoxlu kitab oxuyurdun, ona görə... Həmin sinifdə bir sən idin çoxlu kitab oxuyan, bir də Cəfər. Famili nə idi? Əhmədov! Əhmədov Cəfər. İndi jurnalistdir, özünə də təxəllüs götürüb: Cəfər Elsevər! Amma, yadımdadı, oxumaqda heç Cəfər də sənə çatmazdı! Sənin mütaliən bütün məktəbdə məşhur idi! *(Onu başdan-ayağa diqqətlə süzür.)* Yaxşı... Danış görüm!..

G ə n c k i ş i. Nə danışım?

Q a d ı n. Nə bilim, nə danışasan. Niyə gəlmisən? Bir sözün var ki, gəlmisən də!..

Pauza.

On səkkiz ildən sonra, birdən-birə, suyu süzülə-süzülə peyda olursan, özün də deyirsən ki, nə danışım?

Kiçik pauza.

Yenə elə kitab oxuyursan?
G ə n c k i ş i. İmkan olanda...
Q a d ı n. İmkan az olur?
G ə n c k i ş i *(çiyinlərini çəkir).* Belə də...
Q a d ı n *(hirslənir).* A kişi, sən day şagird deyilsən ki, çiyinlərini çəkirsən?.. Dayan, görüm! *(Gözlərini yumub fikirləşir.)* Sənin bir anan var idi... Belə... gözəl bir qadın idi... saçlarına da xına qoyurdu... Düz deyirəm?
G ə n c k i ş i. Hə...
Q a d ı n. İndi, yəqin, bir az qocalıb, hə?
G ə n c k i ş i. Vəfat edib...
Q a d ı n. Bağışla... Allah rəhmət eləsin... Sən, deyəsən, tək övlad idin...
G ə n c k i ş i. Hə, tək idim...
Q a d ı n. Gərək ki... sənin atan da hələ o vaxt vəfat etmişdi... Ananla ikiniz idiz, hə?
G ə n c k i ş i. Hə...
Q a d ı n. Bəs, indi ailən, uşaqların?
G ə n c k i ş i *(başını bulayır).* Yoxdur...
Q a d ı n. İndiyəcən evlənməmisən?
G ə n c k i ş i. Yox...

Pauza.

Q a d ı n. Mənə bax, mən kəlbətinlə bir-bir səndən söz dartıb çıxarmalıyam? Gecənin yarısı birdən-birə peyda olursan, özün də gah başını bulayırsan, gah da çiyinlərini çəkirsən! Nə sözün var? Nəyə gəlmisən bura? Bu yağışda, bu vaxt adam adamın evinə gələr? Bəlkə yatmışdım mən?
G ə n c k i ş i. Siz həmişə gec yatırsız... İndi də görürdüm ki, yatmamısız...
Q a d ı n *(heyrət içində).* Sən gecələr gəlib küçədən mənim işığıma baxırsan ki, nə vaxt yatıram?

Pauza.

*(Birdən xatırlayaraq.)* Dayan... Mən səni bir dəfə də görmüşdüm... Hə? Bu saat... Doxsanıncı illərin lap əvvəlləri idi... Metro-

daydı, ya bazardaydı, haradaydı? Özü də, səni görəndə nəyəsə təəccüb elədim?.. Nəyidi?.. Yaxşı yadıma gətirə bilmirəm...

G ə n c  k i ş i. Doxsan ikinci ildə... Metroda. Siz metrodan çıxırdız, rastlaşdıq, salamlaşdıq. Mən formadaydım...

Q a d ı n. Nə formada?

G ə n c  k i ş i. Hə, əsgər formasındaydım. Hosbitaldan çıxmışdım...

Q a d ı n. Hosbitaldan?

G ə n c  k i ş i. Hə. Şuşadan məni Gəncə xəstəxanasına apardılar, ordan da Bakıya, hərbi hospitala gətirdilər.

Q a d ı n. Şuşada döyüşürdün?

G ə n c  k i ş i. hə.

Q a d ı n. Orda yaralandın?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Şuşa veriləndə sən ordaydın?

G ə n c  k i ş i. Yox. Hosbitaldan sonra məni Gədəbəyə göndərdilər.

Pauza.

Q a d ı n. Bayaq sən nəsə dedin axı... Nə dedin?

G ə n c  k i ş i *(çiyinlərini çəkir).* Bilmirəm...

Q a d ı n. Yenə çiyinlərini çəkir!.. Nə dedin bayaq? Hə, sən dedin ki, haçansa gəlməliydim bura... Belə dedin?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Bu nə demək idi, başa düşmədim?..

Pauza.

Mənə bax, keçmiş şagird, sən bura susmağa gəlmisən?

Pauza.

Yoxsa pencəyini qurutmağa gəlmisən?

Pauza.

G ə n c  k i ş i *(həyəcanla).* Bu on səkkiz ildə mən... mən hər gün sizinlə danışmışam...

Q a d ı n. Nə?

Pauza.

*(Heyrətlə.)* Mənimlə danışmısan?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Harda?

G ə n c  k i ş i. Öz təsəvvürümdə...

Pauza.

Q a d ı n. Sən öz təsəvvüründə hər gün mənimlə danışmısan?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Niyə?

G ə n c  k i ş i. Ona görə ki...

Q a d ı n. Hə, ona görə ki, nə?

G ə n c  k i ş i *(çox həyəcanlı).* Ona görə ki... Ona görə ki, mən sizi sevirəm...

Pauza.

Q a d ı n. Mənə bax, sən sərxoş-zad deyilsən?

G ə n c  k i ş i. Yox...

Q a d ı n. Bir dəqiqə!.. Bir dəqiqə!.. *(Ayağa qalxıb iki əli ilə də gicgahlarını tutub var-gəl edir.)* Mən onuncu sinifdə sənə dərs demişəm... Sonra sən məktəbi bitirmisən... Mən, bir də səni görməmişəm... On il bundan qabaq, bir dəfə görmüşəm... Deyirsən ki, metroda rastlaşmışıq... Amma bütün bu müddət ərzində, yəni on səkkiz il sən hər gün özün özünlə danışmısan, daha doğrusu, öz təsəvvüründə mənimlə danışmısan... Çünki sən məni... *(Gülür.)* Çünki... çünki, demə, sən məni sevirmişsən...

Pauza.

Sən xəstə deyilsən?

G ə n c  k i ş i *(ayağa qalxaraq pərt).* Yox, mən xəstə deyiləm. Ona görə də mən bura gəlmək istəmirdim. Mən bilirdim ki, bu söhbət bir az dəli sayıqlamasına oxşaya bilər. Ancaq... *(Sözünü yarımçıq kəsir.)*

Q a d ı n. Nə ancaq?

G ə n c  k i ş i. Ancaq baxır kiminçün!

Pauza.

Sağ olun. *(Qapıya tərəf addımlayır.)*

Q a d ı n *(arxadan diqqətlə ona baxaraq).* Saçları nə vaxt ağartdın belə?

G ə n c k i ş i *(bir an ayaq saxlayaraq Qadına baxır).* Heç xəbərim olmadı... *(Gülümsəyir.)* Bir də baxdım ki, ağarıb...

Q a d ı n. Elə olur də... Adamın xəbəri olmur. Mən də birdən-birə gördüm ki, saçlarım ağarıb... *(Əlini saçlarına aparır.)* Rəngdi...

G ə n c k i ş i. Sağ olun...

Q a d ı n. Pencək suyun içindədi, onu necə geyəcəksən?

G ə n c k i ş i. Suyun içindədi, içində deyil, bunun bir mənası yoxdur!..

Q a d ı n. Yadıma gəlir... Sinifdə danışanda, həmişə böyük yazıçılardan sitatlar gətirirdin. İndi yenə sitatla danışırsan?

G ə n c k i ş i *(gülümsəyir).* Hərdən olur... Bağışlayın məni... Doğrudan da, gecənin yarısı ağılsız bir iş görmüşəm... Sağ olun...

Q a d ı n. Sağ ol...

G ə n c k i ş i əlini uzadıb qapını açmaq istəyir.

Sən gərək məni başa düşəsən!

G ə n c k i ş i. Mən sizi başa düşürəm. Ancaq mən də dəlixanadan qaçıb gəlməmişəm. Belə olsaydı... *(Sözünü yarımçıq kəsir.)*

Q a d ı n. Bu nə adətdi e, səndə? Sözünü niyə yarımçıq kəsirsən? Belə olsaydı, nə?

G ə n c k i ş i. Belə olsaydı... onda hər şey çox primitiv olardı...

Q a d ı n. Primitiv olardı? *(Gülümsəyir.)* Çox dərindən gedirsən!.. Sən həmişə beləsən, yoxsa, indi bir sözdü, deyirsən?

G ə n c k i ş i. Bilmirəm... Ancaq istəyirəm, siz biləsiz ki, mən nə sərxoşam, nə də xəstə!..

Q a d ı n. Aha!.. Sözlərim xətrinə dəyib!.. Gözlənilməz gecə qonağımız pərt olub!.. *(Bir az çılğın.)* Bəs, səncə, mən nə fikirləşməliyəm? Gecə, yaraşıqlı bir oğlan... saçları vaxtsız ağarmış bir oğlan... Nuh-Nəbinin dövründə mənim şagirdim olmuş bir oğlan... birdən-birə peyda olur ki, on səkkiz ildir mən özüm özümlə... mən öz təsəvvürümdə hər gün sizinlə danışmışam... və... və mən sizi sevirəm!.. *(Gəzişir.)* Aləmdi, vallah!..

G ə n c  k i ş i. Mən sizi başa düşürəm. Buna görə də mən gəlmək istəmirdim... Ancaq daha mümkün deyildi... Mən daha özümlə bacara bilmirdim. İnsan nə qədər özü özünə təzyiq edə bilər!? İnsan nə qədər öz hisslərini cilovlayar!?

Q a d ı n. Yeniyetmə vaxtı, adam çox aşiq ola bilər. Mən də Rac Kapura aşiq olmuşdum, nə olsun!? Keçib-gedir də...

G ə n c  k i ş i. Görünür, həmişə keçib-getmir... Sağ olun...

Q a d ı n. Vallah, heç bilmirəm ki, nə deyim?..

G ə n c  k i ş i. Başa düşürəm... *(Seziləcək bir sarkazm ilə.)* Mənim gecə yarısı bura gəlməyim... bu yağış... mənim bu sözlərim absurd pyeslərə oxşayır...

Q a d ı n. Absurd pyeslərə... Yadıma düşür, o zaman da belə intellektual danışırdın. Bəzən sinifdəkilər səni başa düşmürdü...

G ə n c  k i ş i. Adamı başa düşmək çətin işdi... *(Qapını açır.)* Sağ olun...

Q a d ı n. Hara gedirsən?

G ə n c  k i ş i. Bunun da mənası yoxdur...

Q a d ı n. Dayan görüm. *(Var-gəl edərək, elə bil, öz-özü ilə danışır.)* Vallah, elə bil, bu saat kimsə mənim qulağıma pıçıldayır ki, sənin heç getməyə də bir yerin yoxdu... *(Gənc kişiyə.)* Hə?

G ə n c  k i ş i. Dünya genişdir...

Pauza.

Q a d ı n. Bilirsən, nə var? Pencəyi qoy yerinə, gəl, otur burada.

G ə n c  k i ş i. Mən gedirəm...

Q a d ı n *(əli ilə mizin arxasındakı stulu göstərir).* Gəl otur! Özün də danış! Nə başını bula, nə də çiyinlərini çək! Danış görüm, sən... sən... sən kimsən?

Pauza.

Sonra G ə n c  k i ş i pencəyi yenə asılqandan asır.

Dedim ki, gəl otur!

G ə n c  k i ş i gəlib bayaqkı yerində oturur.

Hə, başla, görüm!

G ə n c k i ş i. Nə başlayım?

Q a d ı n. Axı, sən kimsən?

G ə n c k i ş i *(gülümsəyir).* Bəyəm, dünyada elə adam var, axıracan özünü tanısın ki, o, kimdir?

Q a d ı n. Yox! Yox! Bu olmadı! Bilirsən, şərti belə kəsirik səninlə! İntellektual sözləri qoyursan bir kənara! Mənimlə çox sadə danışırsan, bildin?! İndi, de, görüm, sən kimsən?

Pauza.

Bayaq mən düz deyirdim?

G ə n c k i ş i. Nəyi?

Q a d ı n . Sənin getməyə bir yerin yoxdu, hə! Düz deyirdim?

G ə n c k i ş i *(başı ilə təsdiq edərək güclə).* Düz deyirdiz...

Q a d ı n *(əsəbi).* Niyə axı? Niyə? Nə olub? Sənin başına nə qəzavü-qədər gəlib? Bu dünya niyə belə qəddar olub səninlə?

Pauza.

Yaxşı... Sən bizim məktəbi bitirdin. Belədir?

G ə n c k i ş i. Hə.

Q a d ı n. Sonra?

G ə n c k i ş i. Sonra universitetə girdim... Filologiya fakültəsinə...

Q a d ı n. Cəfər Elsevərlə bir yerdə? O da universitetin filologiyasını bitirdi. İndi, buyur, Bakının beş məşhur jurnalisti varsa, biri odur!

G ə n c k i ş i. Hərənin bir taleyi var...

Q a d ı n. Sən taleyə inanırsan?

Pauza.

Yaxşı... İnansan da, inanmasan da, tale, taledir! Deyəsən, mən də səfeh fəlsəfəçiliyə başladım!.. Deməli, universiteti bitirdin...

G ə n c k i ş i . Yox, bitirmədim...

Q a d ı n. Niyə?

G ə n c k i ş i. Çünki... Həbs olundum...

Q a d ı n *(heyrətlə).* Həbs olundun? Nəyə görə?

G ə n c k i ş i. Bu barədə danışmaq istəmirəm...

Q a d ı n. Yox, necə yəni danışmaq istəmirəm? Birdən-birə gəlib çıxmısan bura, indi zəhmət çək, hər şeyi danış! Mən bilməliyəm! Əgər, sən mənim yanıma gəlmisənsə, onda, mən hər şeyi bilməliyəm! Bilməliyəm ki, niyə... nə üçün... niyə bu həyatda səninki belə gətirməyib? Axı, diribaş idin, hamıdan qat-qat artıq mütaliən var idi, savadlıydın, hesabla, sənin gözəl perspektivlərin var idi... Amma, gətirməyib, hə, səninki, düz başa düşürəm mən?

G ə n c k i ş i. Yəqin...

Q a d ı n. De görüm, nə üçün səni həbs etdilər?

G ə n c k i ş i. Mənimlə bir qız oxuyurdu...

Q a d ı n. Hə? Çəkinmə də, danış... Nə oldu? Səninlə bir qız oxuyurdu...

G ə n c k i ş i. Kimsəsiz, təmiz, çalışqan bir qız idi.

Q a d ı n. Gözəl idi?

G ə n c k i ş i. Hə...

Q a d ı n. Sonra?

G ə n c k i ş i. Bizim professor var idi, həm də kafedranın müdiri idi... Oğlu var idi onun... Həmin qızı təqib edirdi... Maşınını sürüb gəlib dayanırdı universitetin qabağında... Qıza göz verirdi, işıq vermirdi. Qız ondan qorxurdu... Məndən kömək istədi... Mən də...

Pauza.

Q a d ı n. Mənə bax! Birdən sən qatil olarsan ha?!

G ə n c k i ş i *(gülümsəyir).* Yox, qatil deyiləm... Dalaşdıq onunla...

Q a d ı n. Bir sözlə, onu döydün! *(Gizli bir rişxəndlə.)* Belə çıxır ki, sən rıtsarsan! Hə?

G ə n c k i ş i *(incimiş).* Siz dediz, danış, mən də danışdım...

Q a d ı n. Sən həmişə belə tez inciyirsən? Yaxşı... O harınlamış oğlanı əzişdirdin, lap yaxşı da elədin! Elə buna görə həbs etdilər səni?

G ə n c k i ş i. Bir az əzilmişdi... Atası məni universitetdən çıxartdırdı, prokurorluğa şikayət elədi, sonra da məni tutub dörd il iş verdilər...

Q a d ı n. Bəs, qız demədi ki, iş nə yerdədi?

G ə n c k i ş i. Yox...

Q a d ı n. Niyə?

G ə n c k i ş i. Qız üzümə durdu ki, təqsir məndə olub...

Pauza.

Q a d ı n. Yazıq qız... Qorxudublar da onu...

G ə n c  k i ş i. Yəqin...

Q a d ı n. Sonra nə oldu?

G ə n c  k i ş i. Həbsxanadan çıxandan sonra, burda qala bilmədim. Getdim Sibirə, Tomsk vilayətinə... Kolpaşovo rayonunda balıq kombinatında işə girdim...

Q a d ı n. Balıq kombinatında? Nə işinə?

G ə n c  k i ş i. Fəhlə... Tomsk universitetində təzədən imtahan verdim, qəbul olundum, qiyabi... Ancaq sonra burda Qarabağ hadisələri başladı... Orda qala bilmədim, qayıtdım... Birbaşa cəbhəyə getdim... Sonra hosbital... Sonra yenə cəbhə... Əsgərlik... Keçən ay hərbi xidmətdən azad olundum... Belə də... Bu da mənim həyatım!

Pauza.

Q a d ı n. Anan nə vaxt vəfat etdi?

G ə n c  k i ş i. Mən həbsxanada olanda...

Pauza.

Q a d ı n. Balıq kombinatında fəhlə... Orda, o Kolpaşovo deyirsən, nədi, orda şaxta neçə dərəcə olurdu?

G ə n c  k i ş i. Əlli beş-altmış dərəcə...

Q a d ı n. Hə, dostum... Həyatın elə də uğurlu olmayıb...

G ə n c  k i ş i. Ancaq bundan da pis ola bilərdi...

Q a d ı n. Bundan da pis? Başa düşmədim... Nə demək istəyirsən?

G ə n c  k i ş i. Demək istəyirəm ki... *(Get-gedə, elə bil, qızışır.)* Siz olmasaydınız, hər şey bitəcəkdi! Bəlkə də bu, pis kitablardakı kimi səslənir, ancaq, qoy olsun, bu həqiqətdi! Ola bilsin ki, bu maniakal bir bağlılıqdı mənim başımda, bilmirəm! Ancaq olanı budur! Siz olmasaydınız, mən sınacaqdım! Məhv olacaqdım! Ancaq mən sizi fikirləşirdim, hər dəfə sizi gözlərimin qabağına gətirirdim, sizdən güc alırdım!..

Q a d ı n *(əsəbi)*. Bəsdir! Mənim belə sözlərdən xoşum gəlmir!

G ə n c  k i ş i. Mən həqiqəti deyirəm.

Q a d ı n. Lazım deyil! *(Pəncərəyə yaxınlaşıb şüşədən eşiyə ba-*

*xır.)* Gör necə yağır!.. *(Gənc kişiyə tərəf çönür.)* Bəs, sənin qohumların, yaxınların?

G ə n c k i ş i. Mən heç kimi görmək istəmirəm!

Q a d ı n. Belə çıxır ki... indi... gecəni burda qalmaq fikrindəsən?..

G ə n c k i ş i *(ayağa qalxır).* Yox, mən gedirəm.

Q a d ı n. Hara gedirsən?

Pauza

Bilmirəm, vallah, nə deyim?.. *(Yenə pəncərə şüşəsindən eşiyə baxır.)* Bu yağışın altına atmayacağam ki, səni... *(Gəlib dolabdan yastıq, adyal çıxarır.)* Ala. Get, mətbəxdə özünə yer düzəlt, yat... Səhər özünə bir çarə qılarsan! Eşidirsən? İndi, get mətbəxə. Qapını da ört!

G ə n c k i ş i tərəddüd içində yastığı, adyalı qadından alıb dayanır.

Get, get mətbəxə.

Pauza

Get də, deyirəm!.. Mən yatmaq istəyirəm!..

G ə n c k i ş i mətbəxə keçir.
Q a d ı n ayaq üstə bir müddət onun ardınca baxır.

İ ş ı q s ö n ü r .

## ÜÇÜNCÜ ŞƏKİL

Q a d ı n, G ə n c k i ş i.
Q a d ı n ı n mənzili. Gecə. Həmin otaqdır, ancaq səhnənin sağ küncündə mətbəxin də bir hissəsi görünür.
Səhnə qaranlıqdır.

Q a d ı n otaqdakı divan-çarpayıda uzanıb.

G ə n c k i ş i mətbəxdə, kətilin üstündə oturub siqaret çəkir.
Q a d ı n , əynində gecə köynəyi, qalxıb yerində oturur və bir müddət yağışın səsinə qulaq asır. Sonra yenə uzanır.
Ümumi sükut içində yalnız şıdırğı yağışın səsi eşidilir.
G ə n c k i ş i siqareti söndürür.

Q a d ı n  yenə qalxıb yerində oturur, sonra durub pəncərəyə tərəf gəlir və şüşədən eşiyə baxır.
G ə n c  k i ş i  qalxıb mətbəxlə otağın qapısı ağzında dayanır. Sonra qapını açıb otağa girir və dayanıb Q a d ı n a  tərəf baxır.

Pauza.

G ə n c  k i ş i  Q a d ı n a  tərəf yaxınlaşır və onun bir addımlığında dayanır.
Q a d ı n  başını pəncərə şüşəsindən çəkir və əlbəttə, bilir ki, G ə n c  k i ş i  arxada dayanıb.

Pauza.

G ə n c  k i ş i  əlini Q a d ı n ı n  çiyninə qoyur.

Q a d ı n *(həyəcan və təlaşla)*. Yox!.. Yox!..

G ə n c  k i ş i  o biri əlini də Q a d ı n ı n  çiyninə qoyur və qadını özünə tərəf çəkir.

*(Ona sarı çevrilərək.)* Yox!.. Yox!..
G ə n c  k i ş i. Sənsiz mənim üçün həyat yoxdur! Bu əclaf dünyada səndən başqa mənim heç kimim yoxdur! *(Onu qucaqlamaq istəyir.)*
Q a d ı n *(iki əlilə də Gənc kişini özündən uzaqlaşdırmaq istəyir)*. Yox!.. Yox!.. *(Birdən-birə Gənc kişini qucaqlayır.)* Bu qədər illər boyu sən haradaydın?!

İ ş ı q  s ö n ü r .

## DÖRDÜNCÜ ŞƏKİL

Q a d ı n, G ə n c  k i ş i.
Q a d ı n ı n  mənzili. Axşam. G ə n c  k i ş i mizin arxasında əyləşib. Q a d ı n mətbəxdən çay gətirir.

Q a d ı n *(çayı Gənc kişinin qarşısına qoyaraq)*. Sən heç bilirsən nə eləmisən?
G ə n c  k i ş i *(ehtiyatla)*. Nə eləmişəm?
Q a d ı n. Sən həyatı mənə sevdirmisən!

G ə n c  k i ş i *(gülümsəyir).* Dostoyevski deyirdi ki, həyatın özünü daha artıq sevmək lazımdır, nəinki həyatın mənasını... Mən...

Q a d ı n *(onun sözünü kəsərək).* Bilmirəm, sənin Dostoyevskin nə deyirdi, nə demirdi, amma mən səhər yuxudan dururam, sevinirəm ki, yaşayıram! Başa düşürsən? *(Onunla üzbəüz mizin arxasında əyləşir.)* Yox, bunu heç kim başa düşə bilməz!.. Sən də!

G ə n c  k i ş i. Mən də?

Q a d ı n. Hə, sən də! Bax, mən indi oturub sənə baxıram, hə? Nə qədər də istəsəm, baxaram! Baxaram, yoxsa baxmaram?

G ə n c  k i ş i *(gülür).* Baxarsan...

Q a d ı n. Amma bu otaqda heç vaxt belə şey olmayıb! Bu otaqda mən həmişə bilirsən hara baxmışam?

Kiçik pauza.

Bax, bura! *(Barmağını uzadıb divarı göstərir.)* Divara! Divara baxmışam! Sən bunu başa düşə bilərsən? Ömrümdə məndə belə şey olmamışdı! Ömrümdə heç vaxt səhər yuxudan duranda, ürəyimdən keçməmişdi ki, nə yaxşı ki, mən varam! Nə yaxşı ki, dünya var! Heç vaxt! Uzun sözün qısası, bilirsən, nə var? *(Sözləri heca-heca tələffüz edir.)* Mən ya-şa-yı-ram!..

Kiçik pauza.

Bir az gurultulu səslənir, hə? *(Gülür.)*

G ə n c  k i ş i. Yox...

Q a d ı n. Səslənsin də, neyləyim?.. Bu, həqiqətdi, necə səslənir, qoy elə də səslənsin! Mən daha bayquş kimi tək oturub dəftərləri yoxlaya-yoxlaya şagirdlərlə danışmıram! Sənin xəbərin var?

G ə n c  k i ş i. Nədən?

Q a d ı n *(ayağa qalxıb gəzişərək).* Sən bilirsən Əhmədəliyev kimdir?

G ə n c  k i ş i. Əhmədəliyev? Əlbəttə, bilirəm! Vergi naziri.

Q a d ı n *(ürəkdən gülür).* Yox, canım!.. Bəs, Məmmədli?

G ə n c  k i ş i. Ştanqçı! Dünya çempionatında gümüş medal aldı!

Q a d ı n *(daha da bərkdən gülür).* Yox!.. Yox!.. Bəs, Həsənzadə?

G ə n c  k i ş i. Onu day, hamı tanıyır! Gömrükdə işləyir!

Q a d ı n. Harada?

G ə n c  k i ş i. Gömrükdə.

Q a d ı n *(uğunur).* Həsənzadə gömrükdə işləyir? Anasının qulağından iraq!.. Yox!.. Yox!.. Bunlar, bilirsən, kimlərdi? Mənim şagirdlərimdi!

G ə n c  k i ş i *(gözləri bərəlir).* Nə?

Q a d ı n. Hə! Hə! Bilirsən, mən axşamlar, bax, burada *(Ona yaxınlaşır.)*, sənin yerində oturub dəftərləri yoxlayırdım, özüm də bərkdən şagirdlərlə danışırdım. *(Gülür.)* Qiyabi! Mənim qonşum var, yaxşı arvaddı, əri də polisdi...

G ə n c  k i ş i. Polisdi?

Q a d ı n. Hə. O arvad gəlib görəndə ki, şagirdlərlə bərkdən danışıram, elə bilirdi, mənim başım, bir az, o söz!.. *(Barmağı ilə gicgahını göstərib ora-bura tərpədir.)*

G ə n c  k i ş i. Doğru deyirsiz?

Q a d ı n. Yenə «siz»?

G ə n c  k i ş i. Bağışlayın... Bağışla!

Q a d ı n. Sən hərdən mənə «siz» deyəndə, bilmirəm niyə, amma ürəyimə toxunur...

G ə n c  k i ş i. Bağışla... O məndən asılı deyil ki... Onuncu sinifdə siz... sən bizim sinif otağına girəndə, mən həmişə özümü itirirdim... Sən həm mənim müəllimim idin, həm də... həm də mənim dünyada ən çox sevdiyim bir insan idin!.. Gecələr mən yerimə girirdim, yuxuya gedə bilmirdim, sən həmişə mənim gözlərimin qabağında olurdun... Mən, düzdü, çox kitablar oxuyurdum, ancaq bizim məhəlləmiz – mənim yaşadığım küçə – hər bir şərait yaradırdı ki, mən narkoman olum, mən cibgir olum, ancaq o saat səni fikirləşirdim, sən gəlirdin gözümün qabağına, deyirdim, yox... məni... məni haçansa sevəcəyini arzuladığım, çox arzuladığım bir insan var! Mən beynimdə elə bir tamaşa qurmuşdum ki, orada... mən hər şey edirdim ki, sən də... məni sevəsən! Gülməlidi, hə?

Q a d ı n *(gülür).* Nə bilim? Dünya sirri-xudadı!..

G ə n c  k i ş i. Bilirsən, mənim beynimdəki o aləmin içində mənim sevdiyim, bu sevgiylə qürurlandığım, forslandığım bir qız var idi, bir varlıq var idi, o – sən idin! Mən nə edirdimsə, fikirlə-

şirdim, mənim fikrimdə, içimdə, xəyalımda o insan – sən, nə deyəcəksən? Buna necə baxacaqsan? Birdən iyrəndin məndən? Birdən çiyrildin məndən? Birdən nifrət elədin mənə? Sonra mən məktəbi qurtardım. Universitetə girdim. Ancaq sən mənim içimdə idin! Mən səni fikirləşirdim, səni düşünürdüm! Sonra... sonra başıma min cürə qəzavü-qədər gəldi, ancaq mən eləcə səni fikirləşirdim, səni düşünürdüm!.. Özümü, bilirsən, bəlkə indi birtəhər çıxır, sənə layiq... yəni bilirsən, daxilən sənə layiq aparmaq istəyirdim...

Pauza.

Q a d ı n. Bəs, sən onda hardaydın, ay axmaq?

Kiçik pauza.

G ə n c k i ş i. Həyatın girdabında!

Kiçik pauza.

Q a d ı n *(mütəəssir)*. Sən istəyirsən ki, mən ağlayım?
G ə n c k i ş i. Yox...
Q a d ı n. Onda, bilirsən, nə var? Özünü yaxşı apar!
G ə n c k i ş i. Ancaq indi bilirsən mən nə istəyirəm?
Q a d ı n. Xeyr, bilmirəm!
G ə n c k i ş i. Mən səni öpmək istəyirəm!
Q a d ı n. Axı, sən inanmırsan ki, mən axşamlar, bax, orda, sənin yerində oturub o gözəl şagirdlərimlə danışırdım. Təkcə şagirdlərimlə yox e!.. Biri var, hərdən onun anasıyla da danışırdım! Həsənzadənin anasıyla! İnanmırsan?
G ə n c k i ş i. Bilirsən, nə var?
Q a d ı n. Nə?

Kiçik pauza.

G ə n c k i ş i *(təsirlənmiş)*. Sən çox yaxşı adamsan...

Kiçik pauza.

Q a d ı n *(onun boynunu qucaqlayır)*. Mənim əzizim! Sən haradan peyda oldun? Səni kim göndərdi bura? Sən bilirsən haradan

gəlib çıxmısan? Yox, sən bilmirsən! Amma mən bilirəm! *(Barmağını pəncərəyə tərəf uzadır.)* O! O, göndərib səni bura! Səni mənim ulduzum göndərib!..

G ə n c  k i ş i. Sənin ulduzun?

Q a d ı n. Hə!

G ə n c  k i ş i  təəccüblə çiyinlərini çəkir.

Sənin heç ulduzun olmayıb?

G ə n c  k i ş i. Necə ulduzum?

Q a d ı n. Yəni sən yeniyetmə vaxtı heç özünə ulduz seçməmisən?

G ə n c  k i ş i. Göydəki ulduzları deyirsiz?

Q a d ı n. Yenə «siz»?

G ə n c  k i ş i. Bağışla... Söhbət göydəki ulduzlardan gedir?

Q a d ı n. Əlbəttə! Yerdəki ulduzlarla mənim nə işim?

G ə n c  k i ş i. Mən göydəki ulduzlarla nə etməliydim ki?

Q a d ı n. Sən onlarla söhbət etməliydin! Eləməmisən?

G ə n c  k i ş i. Yox..

Kiçik pauza.

Q a d ı n. Əlbəttə, sən igid idin, qorxmaz idin, yaraşıqlı idin, sənin nəyinə lazım idi özünə ulduz seçəsən?! Amma mənim ulduzum var idi... O vaxtlar iki otağımız var idi. Atamla anam bir otaqda yatırdı. Mən yatan o biri otağın balaca bir eyvanı var idi. Gecə atamla anam yatandan sonra, mən o balaca eyvana çıxırdım. Özümə seçdiyim o ulduzu bir elə ulduzun arasından o saat tapırdım. Otururdum eyvanda, başlayırdım onunla söhbət eləməyə. Gələcəyin gözəl xəyallar aləminə girirdik... Rəhmətlik atam, bilirsən nə fikirləşirdi? Hərdən oyanıb məni o balaca eyvanda görəndə, elə bilirdi ki, mən eyvanda, ay işığında dərs hazırlayıram. Elə bilirdi, otaqda işığı söndürürəm ki, onlar rahat yatsın. Yuxulu-yuxulu gəlib məni qucaqlayırdı, «Gəl, yat»– deyirdi... *(Gözlərini yumur.)* Sən niyə məni vadar eləyirsən, bunları danışım? Ağlayaram ha!..

G ə n c  k i ş i. Mən istəmirəm ki, sən ağlayasan...

Q a d ı n. Amma ağlamaq da, düz deyirlər, hərdən yüngülləşdirir adamı... Amma mən çox pisəm!

G ə n c k i ş i. Niyə?

Q a d ı n. Çünki mən ağlaya bilmirəm... Yaxşı... Ey sevimli insan! Deməli, sənin ulduzun yox idi?!

G ə n c k i ş i. Yox...

Q a d ı n. Amma mənimki var idi! Onu yenə hərdən görürəm, amma məndən qaçır... Qaçırdı... İndi gərək mənim o gözəl ulduzuma deyim ki, daha məndən qaçmasın! O gözəl ulduzum gözlədi, gözlədi, gözlədi, axırda da bilirsən neylədi? Səni, mənim əzizim, səni göndərdi bura! *(Gülür.)* Əlbəttə, sənin bundan xəbərin yoxdu... Bəs, sənin nədən xəbərin var? Hə? De, görüm!

G ə n c k i ş i. Ondan xəbərim var ki, məni tale sənin yanına gətirdi...

Kiçik pauza.

Q a d ı n. Mənim taleyim, yoxsa sənin taleyin?

G ə n c k i ş i *(ayağa qalxır)*. İkimizin də! *(Onu qucaqlayır.)* İkimizin də!

Q a d ı n. Elə bil, bir az birtəhər səslənir...

G ə n c k i ş i. Sən demirsən, qoy necə səslənir, səslənsin!?

Q a d ı n. Mənim əzizim!.. Mənim sevgilim!.. Mən haçansa heç ağlıma gətirərdim ki, kiməsə «mənim sevgilim» deyəcəyəm? Bu dəhşətdi e!.. İndi də fikirləşəndə tüklərim biz-biz durur!.. Hə? Mənim sevgilim! Mənim sevgilim! Mənim sevgilim!.. Nə yaxşı ki, sən o yağışlı gecədə çıxıb getmədin! Sən onda «sağ ol» deyib getmək istəyəndə, mənim ürəyim döyünməyə başladı ki, indicə çıxıb gedəcəksən... «Bəs, sonra necə olacaq?» – deyirdi beynim, nə bilim, ürəyim, bütün varlığım. «Sonra? Bəs sonra?»

G ə n c k i ş i. O «sağ ol»dan sonra mənim də ürəyim döyünürdü ki, saxlayacaqsan məni, yoxsa, yox? Sən məni saxladın!

Q a d ı n. Əlbəttə, mən saxlamalı idim səni! Əlbəttə! Bilirsən, mən ki, səhər dururam ha, mən ki, sevinirəm ha, mən ki, deyirəm e, yaşayıram, bax, onda, sən mənim gözlərimin qabağında olursan! Bildin! Hə? *(Onu öpür.)* Bildin, yoxsa yox? Hə?

G ə n c k i ş i. Hə.

Q a d ı n. Bərkdən de!

G ə n c k i ş i *(qışqırır)*. Hə! Hə! Hə!

İ ş ı q s ö n ü r.

## BEŞİNCİ ŞƏKİL

Q a d ı n, Q o n ş u q a d ı n.
Blokda Q a d ı n ı n yaşadığı mənzilin çöl qapı meydançası. Günorta. Sol tərəfdə Q a d ı n ı n mənzilinin qapısıdır. Sağ tərəfdə isə qonşuların mənzilinin qapısıdır. Q a d ı n dodaqaltı zümzümə edərək tələsik pillələnləri qalxır və çantasından çıxartdığı açarla qapısını açır. Q o n ş u q a d ı n əlində yekə bazar zənbili, öz qapılarından çıxır.

Q o n ş u q a d ı n. Salam, məlimə!..

Q a d ı n. Salam! Salam! Necəsən?

Q o n ş u q a d ı n *(dərindən köks ötürərək zənbili göstərir)*. Birtəhər dolanırıq də...

Q a d ı n. Sən bu mahnını bilirsən? *(Oxuyur.)*

Faytonçuyam, bəxtim qara...
Minən deyir, sür bulvara!..

Bilirsən?

Q o n ş u q a d ı n *(təəccüblə)*. Yox...

Q a d ı n. Faytonçunun bəxti niyə qara olur? Hə? Əvvəla, bu cür gözəl bir melodiya! *(Oxuyur.)*

Faytonçuyam, bəxtim qara...
Minən deyir, sür bulvara!..

İkincisi, fayton! Gözəl atlar! Bulvar! Dəniz! Hə? O faytonçuya deyən lazımdı ki, ay axmaq, niyə sənin bəxtin qara olur!?

Q o n ş u q a d ı n. A-a-a... Məlimə, demək də olmur... Sən... sən belə, birtəhər olmusan, e...

Q a d ı n. Bəs sənin xəbərin yoxdu?

Q o n ş u q a d ı n. Nədən?

Q a d ı n. Bilmirsən?

Q o n ş u q a d ı n. Yox...

Q a d ı n *(gülür)*. Bəs, sən necə qonşusan?

Q o n ş u q a d ı n *(həyəcanlı)*. Nə olub ki?

Kiçik pauza.

Q a d ı n. Mən xoşbəxt olmuşam də!

Q o n ş u q a d ı n. A-a-a!..

İ ş ı q s ö n ü r.

## ALTINCI ŞƏKİL

Q a d ı n, G ə n c k i ş i.
Q a d ı n ı n mənzili. Günorta. Q a d ı n zümzümə edə-edə tozsilənlə otağı təmizləyir və gəlib mizin yanında dayanır. Mizin üstündəki kağızı götürür.

Q a d ı n *(kağızı gözlərinin qabağında yelləyə-yelləyə).* Ey!.. Gözəl məktub! Bax, bu tozsilən dostumuzu görürsən? Bu tozsilən dostumuz o elektrik xəttindən necə enerji alırsa, mən də səndən eləcə enerji alıram! Bildin? Bildin ki, bu gün on beşinci dəfə səni niyə oxuyuram? *(Oxuyur.)*

G ə n c k i ş i n i n s ə s i. «Əzizim!.. Sevimlim!.. Həyatım!.. Yavaşca sivişib gedirəm ki, səhər-səhər yuxudan durğuzmayım səni... İndi burdan çıxacağam, bir saniyə... bircə saniyədən sonra yenə səninçün darıxacağam... Yenə fikrim-zikrim sənin yanında olacaq, yenə sənin yanına tələsəcəyəm... Çünki sənin istin bilirsən mənimçün nədir?..»

Q a d ı n. Dayan, gözəl məktub! Bu sualı bir də ləzzətlə oxuyacağam!

G ə n c k i ş i n i n s ə s i. «Çünki sənin istin bilirsən mənimçün nədir?..»

Q a d ı n. Bir də!

G ə n c k i ş i n i n s ə s i. «Çünki sənin istin bilirsən mənimçün nədir?..»

Q a d ı n. Nədir? *(Gözlərini yumub bir müddət, elə bil, nəyəsə qulaq asır, sonra yenə məktubu oxumağa başlayır.)*

G ə n c k i ş i n i n s ə s i. «Bunu adi sözlə yaza bilmirəm. Təsəvvür et ki, hər tərəfi payız yağışı bürüyüb... Yuvada balaca bir quşcuğaz var... Anası harasa uçub gedib, gəlib çıxmır... O quşcuğaz da hərdən isti yuvasından boylanır... Birdən o balaca quşcuğaz yerə düşür... Yağışın altında tir-tir titrəyən o quşcuğaz üçün o yuvanın istisi nəydisə, sənin istin də mənim üçün, bax, həmin istidi... Mən də həyatım boyu eləcə boylanıb, səni axtarmışam, səni gözləmişəm... Deyəsən, bir az hind filmlərinə oxşadı, hə?»

Q a d ı n. Yox!

G ə n c k i ş i n i n s ə s i. «Düzünü de, oxşadı, oxşamadı?»

Q a d ı n. Oxşasın də! Lap yaxşı! Bunun heç kimə dəxli yoxdu!

Qoy oxşasın! *(Məktubu öpür.)* Belə, gözəl məktub! Mən enerjimi aldım! *(Tozsilənə.)* Getdik!

Q a d ı n yenə tozsilənlə otağı təmizləyir. Qapının zəngi çalınır. Q a d ı n sevincək qaçıb qapını açır.

Q a d ı n. Haradasan?

G ə n c k i ş i otağa daxil olur.

G ə n c k i ş i *(təzim edərək).* Təbrik edirəm!
Q a d ı n *(bir az şaşırmış).* Məni?
G ə n c k i ş i. Hə!
Q a d ı n. Məni təbrik edirsən? Nə münasibətlə?
G ə n c k i ş i *(təntənəli).* Anadan olduğunuz gün münasibətilə! *(Qadının yanağından öpür.)*
Q a d ı n *(tamam şaşırmış).* Oy!.. Bu gün mənim anadan olduğum gündü? *(Köks ötürür.)* Hə, doğrudan...
G ə n c k i ş i *(başı ilə təsdiq edir).* Bəli! Bu gün tək sizin... tək sənin günün deyil... *(Əli ilə arxasında gizlətdiyi bir dəstə nərgiz güllərini ona uzadır.)* Bu gün, bütün günlərin gözəl bir günüdü...
Q a d ı n *(eləcə şaşırmış halda gülləri alaraq).* Bəs, sən bunu hardan bilmisən?
G ə n c k i ş i. Bu, mənim sirrimdi!..
Q a d ı n. Sənin belə sirlərin çoxdu? Mənim əzizim! *(Özünü saxlaya bilməyib onu qucaqlayır.)* Mənim həyatımda birinci, eşidirsən... *(Qışqırır.)* Birinci!.. Birinci!.. Birinci dəfədir ki, qapım açılır və kimsə mənə gül verir! Hərdən, bayramlarda, Həsənzadənin anası mənə gül gətirirdi, amma o güllər rüşvət kimi bir şey idi... Heç evə də gətirmirdim, qoyurdum, qalırdı məktəbdə, müəllimlər otağında. *(Gül dəstəsini iyləyərək.)* Nərgiz çıxıb bəyəm? Nə tez!.. Bəs, sən nə bildin ki, mənim ən çox sevdiyim gül də nərgizdi?
G ə n c k i ş i. Bu da mənim bir sirrimdi!
Q a d ı n. Sən kimsən? Sən Şaxta babasan?
G ə n c k i ş i. Yox, mən səni sevən və sənə layiq olmayan birisiyəm...
Q a d ı n. Sən mənə layiq deyilsən?

G ə n c  k i ş i. Əlbəttə!

Q a d ı n. Bir də belə söz demə! *(Dolabın gözündən güldan götürüb mizin üstünə qoyur və gülləri güldana düzür.)* Onda mən elə başa düşəcəyəm ki, sən mənə lağ eləyirsən! Bildin?! Sən məni özünə layiq bilmirsən!

G ə n c  k i ş i. Axı, sən məni hələ yaxşı tanımırsan... Mən nə dediyimi bilirəm!

Q a d ı n. Bəsdi! Səni... səni tanımıram? Mən səni sənin özündən yaxşı tanıyıram!

G ə n c  k i ş i *(gülür).* Onda de, görüm, mən kiməm?

Q a d ı n. Sən mənim əzizimsən!.. Sən mənim sevimlimsən!.. Gəl!.. Gəl otur!.. *(Onu mizə tərəf çəkir.)* Biz səninlə birlikdə mənim anadan olduğum günü bayram edəcəyik!

G ə n c  k i ş i. Bizim günümüzü!

Q a d ı n. Hə! Bizim, bizim günümüzü! Biz şampan içəcəyik! Biz keflənəcəyik!

G ə n c  k i ş i. Ancaq mən keflənəndə yaman pis oluram ha!.. *(Gülür.)*

Q a d ı n. Məni qorxutmaq istəyirsən? Amma mən qorxaq deyiləm, ha! Beləliyimə baxma! Bu saat şampan gətirirəm! *(Mətbəxə getmək istəyir.)* Yox, qoy əvvəlcə bir yaxşı geyinim-kecinim!

Q a d ı n dolabdan paltarlarını götürüb mətbəxə keçir. G ə n c  k i ş i kitab rəflərinin qabağında dayanıb baxır, sonra kitablardan birini götürüb vərəqləyir. Paltarını dəyişmiş Q a d ı n , əlində şampan şüşəsi və iki qədəh, mətbəxdən qayıdır.

Q a d ı n *(onun qarşısında fırlanır).* Hə, necədi?

G ə n c  k i ş i *(heyranlıqla)* Mənim... day sözüm yoxdu!..

Q a d ı n. Milyon il idi bu paltarı geymirdim!.. Deyirsən, yaxşıdı?

G ə n c  k i ş i. Sən tamam başqa adam olmusan!

Q a d ı n. Hə, düz deyirsən, mən başqa adam olmuşam... Bilirsən, hərdən qorxuram... Qorxuram ki, birdən özüm öz içimdən çıxıb gedərəm...

G ə n c  k i ş i *(gülür).* Yox, qorxma...

Q a d ı n. Qorxmayım?

G ə n c  k i ş i. Hə, qorxma! Çünki bir adamın içində, min adam var...

Q a d ı n. O necə olur elə?

G ə n c  k i ş i. Adam, bilirsən, sandıq kimi bir şeydi. İçində, nə desən, var! Təzə də var, köhnə də var! Qızıl da var, keyfiyyətsiz şeylər də! O sandıqda qorunub saxlanan pal-paltarın hər biri bir dəbdədi, müxtəlifdi, bir-birinə uyuşmayan şeylərdi!.. Ona görə də, bir adamın içində, min adam var!

Pauza.

Ancaq sənin içindəkilərin hamısı gözəldir!

Q a d ı n. Onda, mən sandığa oxşamadım ki!..

G ə n c  k i ş i. Niyə? Sadəcə, sənin içindəkilərin hərəsi bir cür gözəldi! Sən də gözəlsən! Bax, bu günümüz də gözəldi! Sənin əlindəki o şampan da gözəldi! Partladaq?

Q a d ı n. Qoy, güldana su töküm...

G ə n c  k i ş i. Mən tökərəm. *(Əlindəki kitabı mizin üstünə qoyub güldanı götürür, mətbəxə keçir və oradan danışır.)* Sənin mətbəxin əməlli-başlı kimya laboratoriyasıdır! Təcrübələri evdən aparırsan məktəbə?

Q a d ı n. Hə, çox vaxt özüm aparıram! Qabaqlara fikrin getməsin, ey mənim keçmiş şagirdim, sosializmdən kapitalizmə keçdiyimiz bu gözəl zəmanədə məktəbdə kimyəvi maddələr qıtlığıdır! Yavaş ol, a!.. O şüşələrin içində nə maddə desən, var! *(Mizin üstündən kitabı götürüb rəfə qoyur.)* Bəlkə sabah Həsənzadənin anasıyla danışım, hə?

G ə n c  k i ş i *(mətbəxdən).* Nə barədə?

Q a d ı n. Sənin barəndə.

G ə n c  k i ş i *(mətbəxdən).* Mənim barəmdə?

Q a d ı n. Hə, sənin barəndə. Sən nə vaxtacan işsiz qalacaqsan? Əri böyük adamdı, nazir müavinidi, nədi... Arvadı həmişə deyir ki, *(Yamsılayır.)* «məndən bir şey xahiş edin», «məndən bir şey xahiş edin»... Mən də xahiş edəcəyəm! Sən nə qədər işsiz gəzə bilərsən? Xahiş edəcəyəm ki, sənin iş məsələnə köməklik eləsin.

G ə n c  k i ş i *(otağa girib güldanı mizin üstünə qoyur).* Nə işə?

Q a d ı n. Nə bilim? Sən de də...

G ə n c  k i ş i. Tramvay konduktoru!

Q a d ı n *(gülür).* Zarafata salma, mən ciddi danışıram... Nə iş xahiş edim ondan?

G ə n c  k i ş i. Mənimçün maraqlıdı ki, sən deyəsən. Məni harada görürsən?

Q a d ı n. Səni? Bilirsən, mən bu barədə çox fikirləşirəm... Bir əla fikir gəlib başıma!

G ə n c  k i ş i. Nə fikir?

Q a d ı n. Məncə, sənin də ürəyincə olacaq!

G ə n c  k i ş i. Yaxşı, nigaran qoyma da, bizi!

Q a d ı n. Sənin yerin... *(Sözünü saxlayır.)*

G ə n c  k i ş i. Hə, haradı mənim yerim?

Q a d ı n. Kitabxana!

G ə n c  k i ş i. Hara?

Q a d ı n. Kitabxana! Xahiş edəcəyəm ki, onun o gözəl əri səni kitabxanada işə düzəltsin.

G ə n c  k i ş i. Kitabxanaçı?

Q a d ı n. Hə!

Kiçik pauza.

Düz tapmışam?

G ə n c  k i ş i *(ürəkdən gülür).* Nə bilim? Baxarıq... Ancaq sən mənə iş tapanacan, şampan soyuyacaq!

Q a d ı n. Yox, biz qoymayacağıq ki, o soyusun! Gəl! Gəl, otur!

G ə n c  k i ş i gəlib mizin arxasında əyləşir.

*(Şampan şüşəsini ona uzadaraq.)* Partlat! Dayan, bir dəqiqə! *(Dolaba yaxınlaşıb yeşiyi çəkir, nəsə axtarır, sonra o biri yeşiyi çəkir.)*

G ə n c  k i ş i. Nə axtarırsan?

Q a d ı n. Üzüyümü. Qəribədi... Tapa bilmirəm...

G ə n c  k i ş i. Bəlkə harasa, başqa yerə qoymusan, yadından çıxıb?

Q a d ı n. Yox! Allah bilir, mən neçə ildi o üzüyü taxmıram...

G ə n c  k i ş i. Bəlkə kim isə götürüb?

Q a d ı n. Bura kim gəlir ki?

G ə n c  k i ş i. Qonşuların...

Q a d ı n. Yox. Onlar elə adam deyillər...

G ə n c  k i ş i. Adamları tanımaq olmaz!

Q a d ı n. Əşşi! Cəhənnəm olsun üzük! *(Mizə yaxınlaşır.)* Partlat!

G ə n c  k i ş i partıltıyla şampanın tıxacını açır.

G ə n c  k i ş i *(qədəhlərə süzə-süzə)*. Sənin sağlığına! O gün olsun, yüz illiyin olsun!

Q a d ı n. Oy!.. Məni qorxutma! Yüz nədi?! Sənin sağlığına!

İçirlər.

Aha! Deyəsən, dəmlənirəm! Axırıncı dəfə mən nə vaxt içmişəm? Yadıma gəlmir... Bəs sən, mənim qəhrəmanım? Bilirsən də, sən mənim qəhrəmanımsan! Yox, sən mənim igidimsən!..

G ə n c  k i ş i. Əşşi, mən qorxağın biriyəm...

Q a d ı n. Qorxaqsan?

G ə n c  k i ş i. Hə...

Q a d ı n. Sən kimdən qorxursan?

G ə n c  k i ş i. Zarafat edirəm...

Q a d ı n. Yox, de görüm, sən kimdən qorxursan?

Pauza.

Əl çəkməyəcəyəm səndən! Özüm də dəmlənmişəm! Deməlisən!

G ə n c  k i ş i *(get-gedə artan bir həyəcanla)*. Ölümdən qorxuram! Ölümdən! Bir vaxt gələcək, mən olmayacağam! Hər şey öz yerində qalacaq, həmin küçələr, həmin binalar, həmin gün, həmin ay! Amma mən yoxam! Bunu fikirləşəndə məni dəhşət basır! Az qalıram, dəli olam! Bir dilənçi ilə mənim aramda heç bir fərq olmayacaq! O da öləcək, heç olacaq, mən də öləcəyəm, heç olacağam! İzim-sorağım da qalmayacaq!

Pauza.

Q a d ı n. Axı, bu, tək sənin problemin deyil... Bütün insanların, bütün canlıların, dahilərin, peyğəmbərlərin, hamının taleyidir...

G ə n c  k i ş i. Bu, mənim üçün, təskinlik deyil!

Q a d ı n. Axı... Axı, hər şey belə mənasız ola bilməz... Hardasa, nəsə var... Mütləq... Gərək belə fikirləşəsən... Axı... Axı, Allah var!

G ə n c  k i ş i. Onu görən olub?!

Pauza.

Q a d ı n. Hərdən mənə elə gəlir ki, sən... sən özün qorxulu adamsan...

Kiçik pauza.

Yaxşı, bəsdi... Bu nə söhbətlərdi belə, başlamışıq?..

G ə n c k i ş i. Hə də... *(Gülümsəyir.)* Həyat onsuz da mürəkkəbdi...

Q a d ı n. Bir az da biz üstünə qoymayaq! *(Qədəhi qaldırır.)* Sən... sən... necə qorxaqsan ki, birdən-birə gəlib... birdən-birə gəlib ciddi bir müəllimənin... çox ciddi bir müəllimənin qapısını döydün?! Hə? *(Qədəhi onun qədəhinə vurur.)* Ey, özünə qorxaq deyən insan! Özünə böhtan atan insan! İndi çox realist bir sağlıq deyəcəyəm. Bunu qaldıraq o günün şərəfinə ki, sənin kimi oğullar Şuşanı qaytaracaq! Qarabağı qaytaracaq! Sənin kimi oğulların şərəfinə ki, düşmən onların qorxusundan, bir də burunlarını Azərbaycan dediyimiz bu məmləkətə soxmayacaq! Çünki siz onun o burnunu dibindən kəsərsiz! İçdik?

G ə n c k i ş i. İçdik!

İçirlər.

G ə n c k i ş i. Deyirsən, özümə böhtan atıram? *(Gülür.)* Ola bilər... Dostoyevski deyir ki, insan bütün həyatı boyu, əslində, yaşamır, yaranır. Yəni həmişə yaranma prosesində olur.

Q a d ı n *(divanda oturaraq)*. Yenə Dostoyevski?

G ə n c k i ş i. Dostoyevski mənim Allahımdır!

Q a d ı n *(əli ilə tavanı göstərir)*. Bəs, onda o Allah sənin nəyindi? Hə, sən dedin axı, onu görən olmayıb...

G ə n c k i ş i. Sən məni Dostoyevskiyə qısqanırsan?

Q a d ı n *(güclə sezilən bir naz ilə)*. Ola bilər...

G ə n c k i ş i. Dostoyevskisiz həyat çox bəsit bir şeydi...

Q a d ı n. Deməli, Dostoyevskidən əvvəl yaşayanların hamısı bəsit bir həyat sürüb?

G ə n c k i ş i. Bilmirəm! Bilmirəm, kim, haçan, necə yaşayıb? *(Onun üstünə atılır.)* Onu bilirəm ki, mən səni Dostoyevskidən çox istəyirəm!

Q a d ı n. Ola bilməz!

G ə n c k i ş i. Yüz faiz!

Q a d ı n. Dayan bir...

G ə n c k i ş i. Yox, dayana bilməyəcəyəm!.. *(Onu qamarlayıb öpməyə başlayır.)*

Q a d ı n *(onun qolları arasından çıxaraq)*. Axı, mənim hələ bir sağlığım qalıb!

G ə n c  k i ş i. Onu, sonra!

Q a d ı n. Yox! Mən onu indi deməliyəm! Deməsəm, xəyanət olar! *(Ayağa qalxıb mizin üstündən qədəhi götürür, pəncərəyə yaxınlaşıb şüşədən göyə baxır və qədəhi qaldırır.)* İçək onun şərəfinə!

G ə n c  k i ş i. Kimin?

Q a d ı n. Gəl bura! Götür qədəhini, gəl bura!

G ə n c  k i ş i qalxıb mizin üstündən qədəhini götürür və ona yaxınlaşır.

İçək mənim ulduzumun şərəfinə! *(İçir.)*

G ə n c  k i ş i. Bilirsən, mən bu saat tamam realist bir adamam!

Q a d ı n. Mənim ulduzumun şərəfinə içmək istəmirsən?

G ə n c  k i ş i *(çılğın)*. Mən özüm bilirəm, nə istəyirəm! *(Onu arxadan qucaqlayıb öpməyə başlayır.)* Bildin?

Q a d ı n *(gülə-gülə və həyəcanlı)*. Dayan bir!.. Oy!.. Dayan!.. Dayan, ay realist!..

G ə n c  k i ş i *(öpə-öpə)*. Yox!.. Dayana bilmirəm! Yox!..

Q a d ı n. Heç olmasa, işığı söndür...

G ə n c  k i ş i əlini qaldırıb işığı söndürür – səhnənin işığı sönür.

G ə n c  k i ş i *(qaranlıqdan)*. Mənim əzizim!.. Mənim sevgilim!.. Gözəlim!..

Q a d ı n *(qaranlıqdan)*. Oy!..

G ə n c  k i ş i *(qaranlıqdan)*. Yaxşıdı?

Q a d ı n *(qaranlıqdan)*. Hə!.. Hə!.. Hə!..

## II. ULDUZLAR ALƏMİNDƏ

### YEDDİNCİ ŞƏKİL

Q a d ı n, P o l i s (Q o n ş u  k i ş i), U l d u z (Q o n ş u  q a d ı n), P o ç t a l y o n (Ş a g i r d  H ə s ə n z a d ə n i n  a n a s ı).

Ulduzlar aləmi. Səhnə ağ buludlar içindədir və hər tərəfdən ağ hasara alınıb. Ağaclar, güllər, hərdən səhnədə uçuşan gözəl kəpənəklər, tez-tez cəh-cəh vuran quşlar, bir sözlə, səhnədə nə varsa, hamısı ağ rəngdədir. Q a d ı n d a n başqa, qalan iştirakçıların libası da ağappaqdır. Q a d ı n qapıdan boylanaraq ulduzlar aləminə baxır.

Q a d ı n. Buradı? Deyəsən, düz gəlmişəm... *(Bərkdən.)* Ey, bura Ulduzlar aləmidi?

Pauza.

*(Qapıdan səhnəyə daxil olur.)* Oy, nə gözəldir!.. Ağappaq!.. Tərtəmiz!.. Mənə bax də!.. İndiyəcən bura gəlməmişəm... *(Heyran-heyran dörd tərəfə baxır.)* Belə bir yerə!.. *(Bərkdən.)* Ey, kim var burda? Heç kim yoxdu... Bəs, ulduzlar haradadı? Onlara nə var e?!. Göylərdə süzürlər özləriyçün... Burda da, gör, necə yer seçiblər özlərinə!.. *(Bərkdən.)* Ey, kim var burda? Ey!..

P o l i s *(Qonşu kişi)* yekə qanadları olan taxta ağ atın belində səhnəyə daxil olur.

P o l i s. Bu nə səs-küydü belə?

Q a d ı n *(təəccüblə)*. Siz burda nə gəzirsiz?

P o l i s. Necə yəni mən burda nə gəzirəm? Mən buranın mühafizə idarəsinin rəisiyəm!

Q a d ı n. Ulduzlar aləminin?

P o l i s. Bəli!

Q a d ı n. Burda da mühafizə idarəsi var?

P o l i s. Mühafizəsiz yer olar?

Q a d ı n. Mən... Mən öz Ulduzumu görməyə gəlmişəm.

P o l i s. Hansıdı sizin Ulduzunuz?

Q a d ı n. Ulduzların ən gözəli! Ən sevimlisi! Ən xeyirxahı!

P o l i s. Bildim! Bildim hansıdı! Bildim!

Q a d ı n. Tanıdız?

P o l i s. Əlbəttə! Onu tanımağa nə var ki?

Q a d ı n. Oy, nə yaxşı! Mən onu necə görə bilərəm?

P o l i s. Gərək Poçtalyona deyəsiz, o, sizin Ulduzunuza xəbər versin.

Q a d ı n. Bəs, mən Poçtalyonu necə görə bilərəm?

P o l i s. Gərək mən icazə verim!

Q a d ı n. Siz?

P o l i s. Bəli!

Q a d ı n. Oy, nə yaxşı oldu! Xahiş edirəm icazə verəsiz!

Pauza.

Xahiş edirəm, mənə icazə verəsiz ki, Poçtalyonu görüm!..

Pauza.

Mən çox tələsirəm! Məni orda *(Barmağı ilə aşağını göstərir.)* gözləyən var!

Pauza.

Sizinləyəm! Xahiş edirəm, mənə icazə verəsiz ki, əvvəlcə Poçtalyonu görüm, sonra da öz Ulduzumu!.. Mən tələsirəm!..

Pauza.

Axı... Axı, mən sizinləyəm!

P o l i s *(qışqırır)*. Bilirsiz mənim maaşım nə qədər azdır?!

Q a d ı n *(gözləri bərəlmiş)*. Nə?

P o l i s. Hə!

Q a d ı n. Maaşınız azdı?

P o l i s. Bəli! Azdı!

Q a d ı n *(şaşırmış)*. Bəyəm, burda da pul var?

P o l i s *(onu yamsılayır)*. «Burda mühafizə var?» «Burda pul var?» Pul olmayan yer var?

Pauza.

Q a d ı n. Bəs... bəs, mən neyləməliyəm?

P o l i s *(altındakı atı göstərərək)*. Özüm heç, neçə gündü, bu da acdı!

Qanadlı ağ atın iri qara gözləri yumulub-açılır və iki böyük gilə göz yaşı yerə düşür.

*(Ata.)* Ağlama! *(Özü doluxsunur.)* Görürsiz?.. *(Öz gözlərini silir.)*

Q a d ı n *(pərişan)*. Görürəm... Amma... Axı, mənim sizə verməyə heç nəyim yoxdu...

P o l i s *(atın üstündə səhnə boyu o baş-bu baş addımlaya-addımlaya deyinir)*. Mənim! Mənim bəxtim qaradı! Mənim yanıma

həmişə heç nəyi olmayan gəlir! Bir dəfə görmədim ki, nəsə bir şeyi olan gəlib məndən öz ulduzunu xəbər alsın!

Q a d ı n. Bəs, onlar bura gəlmirlər?

P o l i s. Kimlər?

Q a d ı n. Şey-şüyü olanlar...

P o l i s. Keflərinə düşəndə, hərdən gəlirlər.

Q a d ı n. Bəs, niyə sizdən icazə almırlar?

P o l i s *(əli ilə səhnənin yuxarı küncünü göstərir).* Onların ora öz yolları var!

Q a d ı n. Bəs, mən nə edim? *(Çılğın.)* Xahiş edirəm sizdən!.. Mən onu mütləq görməliyəm!..

P o l i s *(altındakı ata).* Ağlama! *(Atın gözlərindən yenə iki iri damla göz yaşı düşür.)* Görürsünüz?

Q a d ı n. Görürəm... Ona deyin ağlamasın... Mənim ürəyim birtəhər olur...

P o l i s. Ağlamasın, bəs, nə eləsin bu bədbəxt? *(Ata.)* Nə olsun ki, sən də ağsan? Bəxtin ki, qaradı! Yaxşı olardı ki, sən özün kömür kimi qapqara olaydın, amma bəxtin ağ olaydı!

Pauza.

Q a d ı n. Mən sizdən xahiş edirəm!.. Məni orda *(Barmağı ilə aşağını göstərir.)* gözləyən var! Mən tələsirəm!

P o l i s *(ata).* Ağlama! Ağlayana pay verən yoxdu!

Q a d ı n. Xahiş edirəm!..

P o l i s *(ata).* Nə etmək olar, əziz dostum? Bizim ürəyimiz yumşaqdır... Nə? Nə deyirsən? *(Əyilib qulağını atın ağzına dirəyir.)*

Q a d ı n. Nə deyir?

P o l i s. Deyir, ona görə bu günə qalmışıq də! *(Qışqırır.)* Poçtalyon! Poçtalyon!

Q a d ı n. Çox sağ olun!

P o l i s. Poçtalyon! *(Deyinir.)* Bu, gərək, həmişə əda ilə, nazqəmzə ilə gəlsin... *(Qışqırır.)* Poçtalyon!

Q a d ı n. Təşəkkür edirəm!

P o ç t a l y o n *(Şagird Həsənzadənin anası)* yekə ağ qanadlarını yelləyə-yelləyə gəlir.

P o l i s *(acıqlı).* Aha, gəldi çıxdı!..

P o ç t a l y o n *(tənə ilə).* Mənim, başqaları kimi, şəxsi atım yoxdu!

P o l i s *(ata).* Bunun xəbəri yoxdu ki, səni də yedirtmək lazımdı!..

P o ç t a l y o n. Mən özüm gəlirəm! Amma əslində, mənim atım olmalıdı! Çünki Poçtalyon mənəm, başqaları deyil!

Q a d ı n *(heyrət içində).* Siz də burdasız?

P o ç t a l y o n. Mənə nə olub ki?

Q a d ı n. Yox... *(Ətrafa baxır.)* Heç bilmirəm, vallah...

P o ç t a l y o n. Mən burda Poçtalyonam.

Q a d ı n. Mən öz Ulduzumla görüşməliyəm! *(Polisi göstərir.)* İcazə almışam!

P o ç t a l y o n *(Polisə baxır).* Pah!..

Q a d ı n. Yox, siz ona elə baxmayın! O çox ürəyiyumşaqdı...

P o ç t a l y o n *(yenə Polisə baxır).* Pah!..

Q a d ı n. Bəli!.. Bəli!..

P o l i s *(Poçtalyona işarə edərək yavaşdan Qadına).* Amma o, mən deyiləm ha!..

Q a d ı n *(Poçtalyona).* Mən çox tələsirəm. Məni orda *(Barmağı ilə aşağını göstərir.)* gözləyən var. Xahiş edirəm, mənim Ulduzuma xəbər verəsiniz!

P o ç t a l y o n. Növbəyə durun!

Q a d ı n. Növbəyə?

P o ç t a l y o n. Bəli!

Q a d ı n. Bəyəm, mənim Ulduzumla məndən başqa da görüşmək istəyən var? Axı, o, ancaq mənim Ulduzumdu!

P o ç t a l y o n. Nə olsun ki, başqası yoxdu?! Növbə, növbədi! Növbəsiz istəyirsiz? Onda... baxın də...

Pauza.

Q a d ı n *(əllərini öz bədəninə çəkərək).* Mənim heç nəyim yoxdu...

P o ç t a l y o n. Yoxdu?

Q a d ı n. Yox...

P o ç t a l y o n. Onda, növbə!.. *(Qanadlarını yelləyib getmək istəyir.)*

Q a d ı n. Dayanın! Mən... *(Sözünü saxlayır.)*

P o ç t a l y o n. Hə? Mən nə?

Q a d ı n. Mən Həsənzadəyə «üç» verərəm...

Pauza.

P o ç t a l y o n. «Dörd»!

Q a d ı n *(qızğın).* Xeyr! «Üç»!

P o ç t a l y o n. «Dörd!»

Q a d ı n *(daha da qızğın).* Heç vaxt! Mən ona «dörd» verməyəcəyəm! *(Gəlib Poçtalyonun qabağında dayanıb düz onun gözlərinin içinə baxır.)* Heç vaxt! *(Barmağını onun gözünün qabağında yelləyir.)* Bu, mümkün olan şey deyil! Siz məni məcbur edə bilməzsiz!

P o ç t a l y o n. «Beş!»

Q a d ı n. Yox!

P o ç t a l y o n. Onda xudahafiz!.. *(Qanadlarını yelləyib getmək istəyir.)*

Q a d ı n. Yaxşı... *(Doluxsunur.)* «Beş...»

P o ç t a l y o n. Onda gözləyin. Gedim sizin *(Xüsusi vurğu ilə.)* Ul-du-zu-nu-za xəbər verim! *(Polisə baxaraq.)* Pah!.. *(Qanadlarını yelləyə-yelləyə səhnədən çıxır.)*

P o l i s *(ata).* Gedək, əziz dostum, gedək! Bizimki bu dəfə də gətirmədi!

Q a d ı n. Nə üçün gətirmədi? Axı, siz yaxşılıq etdiniz!

P o l i s. Kimə?

Q a d ı n. Mənə!

P o l i s. Bəs, bundan mənə nə?

Q a d ı n. Sizə? Sizə də bu yaxşılığa görə, mənim ürəyimin dərinindən gələn bir təşəkkür!

P o l i s. Yaxşı olardı ki, ürəyin dərinliklərindən gələn o cür təşəkkürü sizə verəydilər, amma yaxşılığı mənə eləyəydilər!

U l d u z (Q o n ş u q a d ı n) ağ karetada qaça-qaça səhnəyə daxil olur. Karetanı, içində ayaq üstə dayanaraq özü sürür.

U l d u z *(karetanın qapısını açıb içindən çıxaraq).* Hanı o?

Q a d ı n *(heyrət içində).* Mənim Ulduzum sizsiz?

U l d u z. Bəli.

Q a d ı n. Ən gözəl, ən sevimli Ulduz?

U l d u z. Bəli. Bəli.

Q a d ı n, elə bil, U l d u z a inanmayaraq P o l i s ə baxır. P o l i s əvvəlcə çiyinlərini çəkir, sonra başı ilə təsdiq edir.

P o l i s *(ata).* Gedək, əziz və bədbəxt dostum, gedək! *(Çapa-çapa səhnədən çıxır.)*

Q a d ı n. Axır ki, mən sizi gördüm! Mən sizi çox görmək istəyirdim! İstəyirdim ki... istəyirdim ki, siz nigaran qalmayasız!..

U l d u z. Mən nigaran qalmayım?

Q a d ı n. Hə!..

U l d u z *(həyəcanlı).* Siz haradan bildiz ki, mən nigaranam?

Q a d ı n. Mən hiss edirdim!.. Hiss edirdim ki, nigaransız!..

Pauza.

U l d u z. Eh!.. *(Onu başdan-ayağa qədər süzərək.)* Siz mənə necə kömək edə bilərsiz?

Q a d ı n *(ruh yüksəkliyi ilə).* Mən istəyirəm ki, siz biləsiz: mən daha tək deyiləm! Düzdü, mən çox tək qaldım... Amma, yadınıza gəlir, iyirmi beş il bundan əvvəl, gecələr mən *(Barmağı ilə aşağını göstərir.)* orda, balaca eyvanımızda otururdum, axtarıb sizi tapırdım, gözümü sizə dikirdim, sizinlə bir yerdə necə arzular edirdik?.. Hansı xəyallar içində olurduq? Yadınıza gəlir? Mən indi, bax, o vaxtlar arzu etdiyimiz bir sevinc içindəyəm!.. Mənim iyirmi beş il bundan əvvəl sizinlə söhbətlərim, mənim arzularım, o xəyallar, lap bu günlərəcən, elə bil, ancaq gözəl bir yuxu idi!.. Gözəl bir yuxu idi, amma... bir az qüssəli idi... Düzdü, o gözəl yuxu uzun çəkdi, amma nə olsun? İndi o yuxu çin olub! Mən... mən bunu sizə deməliydim, ya yox? Deməliydim! Əlbəttə, deməliydim! Mən...

U l d u z *(onun sözünü kəsərək).* Bir dəqiqə, əzizim! Bir dəqiqə! Bütün bunlar çox gözəl! Ancaq siz mənə necə kömək edəcəksiz!

Q a d ı n. Mən bütün bunları deyirəm ki, siz daha məndən gizlənməyəsiz! Axı, mən hiss edirdim ki, siz *(Barmağı ilə yuxarını göstərir.)* ordan *(Yuxarı baxır, sonra ətrafa göz gəzdirir.),* yəni ki, burdan aşağıya *(Barmağı ilə aşağını göstərir.),* mənə baxırsız, mənim gündəlik həyatımı görürsüz və... və məndən utanırsız! Mən hiss edirdim bunu! Görürdüm! Görürdüm ki, o uzaq arzuların puçluğuna görə, o xəyalların boşluğuna görə məndən utanırsız. Amma indi mən istəyirəm ki, siz bu nigarançılıqdan çaxasız! Mən... mən doğrudan da xoşbəxtəm!

U l d u z . Mənim üçün çox xoşdur ki, siz xoşbəxtsiz! Nəha-

yət ki, mən, bütün ulduzluq dövrümdə xoşbəxt bir adam gördüm! Ancaq siz mənə necə kömək edəcəksiz, onu deyin!

Kiçik pauza.

Q a d ı n. Dedim də!..

Kiçik pauza.

U l d u z. Nə dediz?

Q a d ı n. Dedim ki, mən xoşbəxtəm...

U l d u z *(az qala isterika ilə)*. Bəs, mən?! *(Ağlayır.)* Mən? Sizə nə var ki!.. Siz xoşbəxtsiz! Ancaq məni pensiyaya göndərirlər! Əgər, mən bundan sonra daha gecələr göydə parıldamayacağamsa, onda nəyə lazımam? Heç nəyə! *(Daha da bərkdən ağlayır.)* Heç kimə! Qoy, lap yalan olsun, ancaq mən *(Barmağı ilə aşağını göstərir.)* orda kiməsə ümid vermək istəyirəm! Siz orda *(Barmağı ilə aşağını göstərir.)* elə bilirsiz ki, təkcə sizin arzularınız olur? Siz elə bilirsiz ki, ancaq siz xəyala dala bilərsiz? Ancaq siz təklikdən qorxursuz!

Q a d ı n *(şaşırmış və həyəcanla)*. Sakit olun...

U l d u z. «Sakit olun» – demək asandır! Ancaq başa düşmək çətindir! *(Ağlayır.)* Ordan *(Barmağı ilə aşağını göstərir.)* baxırsız, deyirsiz, nə var ki, par-par yanır! Əladı! Gözəldi! Başdan-başa romantikadır! Ancaq gəlin, bu romantikanın içinə girin, onda bilərsiz! Onda bilərsiz! Onda... *(Zırıldayır.)*

Q a d ı n. Sakit olun... Mən... mən sizinçin nə edə bilərəm?

U l d u z. Siz – heç nə! O ifritə Poçtalyonun elə acıqlı-acıqlı gəlib məni çağırmağından başa düşdüm ki, ona heç nə verməmisiz! Çünki sizin də arzudan başqa heç bir şeyiniz yoxdur! Siz də *(Barmağı ilə aşağını göstərir.)* oradakı o çoxlu adamlardan birisiz ki, bütün var-yoxunuz təkcə elə arzudur! Ancaq onu *(Barmağı ilə səhnənin yuxarı küncünü göstərir.)* təkcə arzuyla yola gətirmək olmaz!

Q a d ı n *(diqqətlə səhnənin yuxarı küncünə baxaraq)*. Kimdi ki, o?

U l d u z *(heyrətlə)*. Tanımırsız?..

Q a d ı n *(başını bulayır)*. Yox...

U l d u z *(öz-özünə)*. Doğrudan xoşbəxtdir də!.. *(Qadına.)*

Baş Ulduz! *(Ağlayır.)* Mən fikirləşəndə ki, bir də heç vaxt göy üzündə parıldamayacağam, dəhşət məni basır!

Q a d ı n. Siz axı... siz axı *(Əli ilə aşağını göstərir.)* ordan görünən kimi deyilsiz... Onda neynirsiz... neynirsiz göy üzündə parıldamağı? Deyirsiz ki, heç olmasa... yalandan ümid verəsiz... Özünüz özünüzü niyə aldadırsız?

U l d u z. Siz özünüzü aldatmırsız?

Q a d ı n. Bilmirəm...

Pauza.

Amma mən sizə kömək etmək istəyirəm...

U l d u z. Necə? *(Barmağı ilə səhnənin yuxarı küncünü göstərir.)* O elə-belə fikrindən dönən deyil!

Q a d ı n *(səhnədə gəzişərək)*. Nə verim? Nə verim sizə?

U l d u z. Heç nə!.. Gedin!.. Qayıdın geri! *(Ağlayaraq.)* Gedin öz arzularınızın yanına... Gedin, girin öz xoşbəxtliyinizin içinə... *(Karetaya yaxınlaşır.)* Yaddan çıxarın məni!..

Q a d ı n. Axı, mən sizi yaddan çıxarmaq istəmirəm! *(Qışqırır.)* İstəmirəm sizi yaddan çıxarım! Eşidirsiz? İstəmirəm!

U l d u z *(karetanın içinə girib qapısını bağlayır)*. Əlvida!..

Q a d ı n. Yox!.. Yox!.. Mən sizə üzüyümü verirəm! Aparın, verin ona! Aparın, verin, sizdən əl çəksin! *(Barmaqlarına baxır.)* Hanı mənim üzüyüm? Hanı?

İ ş ı q s ö n ü r .

## III. FƏLAKƏT

### SƏKKİZİNCİ ŞƏKİL

Q a d ı n, G ə n c k i ş i.
Q a d ı n ı n mənzili. Gecə. Səhnə qaranlıqdır.

Q a d ı n ı n s ə s i. Hanı? Hanı mənim üzüyüm? Hanı?

G ə n c k i ş i n i n s ə s i *(yuxulu)*. Nə? Nə olub? Nə hanı?

Q a d ı n ı n s ə s i. Mənim üzüyüm! Hanı mənim üzüyüm?

İşıq yanır. Q a d ı n gecə köynəyində divan-çarpayıda oturub. G ə n c k i ş i pijamadadır və ayaq üstə Q a d ı n ı n qarşısında dayanıb.

G ə n c  k i ş i. Üzüyün?

Q a d ı n *(iki əlilə də gicgahlarını ovuşdurur).* Nə?.. Üzük?

Kiçik pauza.

G ə n c  k i ş i. Sənə nə olub?

Q a d ı n. Heç... *(Diqqətlə Gənc kişiyə baxır.)* Mənə nə olub?

G ə n c  k i ş i çiyinlərini çəkir.

Doğrudan da, mənim üzüyüm haradadı?

G ə n c  k i ş i. Hansı üzük?

Q a d ı n. Mənim üzüyüm də. Keçən dəfə axtardım, tapmadım...

G ə n c  k i ş i. Gecənin yarısı neynirsən üzüyü?

Q a d ı n. Nə bilim...

Kiçik pauza.

G ə n c  k i ş i. Söndürüm işığı? Yataq...

Q a d ı n. Yox... Haradadı mənim üzüyüm? *(Qalxıb dolabın gözünü açır və axtarır.)*

G ə n c  k i ş i. Olmaz ki, bunu sabaha saxlayasan?

Q a d ı n. Niyə sabaha? Elə indi axtarıram də... *(Axtarır.)*

G ə n c  k i ş i siqaret yandırır və otaqda var-gəl edir.

Sən niyə belə əsəbiləşirsən?

G ə n c  k i ş i. Mən? Mən əsəbiləşib-eləmirəm. Ancaq... başa düşmürəm... Gecənin yarısı qışqırıb yuxudan qalxırsan, sonra da durub üzük axtarırsan...

Q a d ı n. Sən görməmisən o üzüyü?

G ə n c  k i ş i. Mən? Mənim nəyimə lazımdı üzük?

Q a d ı n. Mən demirəm ki, sənə lazımdı. Soruşuram ki, görmüsən, yoxsa, yox?

G ə n c  k i ş i. Xeyr! Görməmişəm!

Kiçik pauza.

Sənin tonun mənim xoşuma gəlmir...

Q a d ı n. Niyə?

G ə n c  k i ş i. Bilmirəm... Gəl, yataq...

Q a d ı n. Mən üzüyümü axtarıram... Mən öz üzüyümü axtara bilmərəm?..

G ə n c  k i ş i. Bəlkə polis çağırasan?

Q a d ı n *(gəlib onunla üzbəüz dayanır).* Mənə bax!.. Sən polisdən niyə qorxursan belə?

Kiçik pauza.

*(Diqqətlə onun gözlərinin içinə baxaraq.)* Sənin bədənində bir dənə də yara yeri yoxdu...

Kiçik pauza.

G ə n c  k i ş i. Mən elə bilirdim ki, sən məni sevirsən... Ancaq sən mənim bədənimi yoxlayırmışsan...

Q a d ı n *(elə bil, onu eşitmir).* Sən deyirdin ki, Şuşada yaralanmışam... Amma... *(Çiyinlərini çəkir.)* Sənin bədənində bir dənə də yara yeri yoxdu...

G ə n c  k i ş i. Bəli! Mən Şuşada kantuziya almışdım! Kantuziyanın isə bədəndə yeri qalmır!

Q a d ı n. Dünən avtobusla məktəbdən evə gəlirdim. Birdən yadıma düşdü səni harada görmüşdüm! Mən bazara getmişdim. Onda sən qəssab dükanında oturub üç-dörd bazar alverçisiylə nərd oynayırdın. Əsgər paltarında-zadda da deyildin...

G ə n c  k i ş i. Sənə nə olub bu gecə?

Q a d ı n *(elə bil, onu eşitmir).* Hətta o zaman mən fikirləşdim ki, bu Kitab hara, qəssab dükanı hara, bazar alverçiləri hara?

G ə n c  k i ş i. Bazar alverçiləri adam deyil?

Q a d ı n. Yox... Niyə... Amma...

G ə n c  k i ş i *(onun sözünü kəsərək qışqırır).* Nə olub sənə?

Q a d ı n. Nə olub? Heç nə olmayıb... Mən gördüyümü deməməliyəm?

G ə n c  k i ş i *(əsəbi).* Mən deyirdim ki, sənə layiq deyiləm! Sən idin qışqıran ki, yox, belə demə! Belə demə!

Pauza.

Q a d ı n. Üzüyü sən götürmüsən?

Pauza.

Amma xahiş edirəm səndən, yalan danışma... Yaxşı? Çox xa-

hiş edirəm səndən... Bilirsən... Mən yorulmuşam... Bilmirəm, niyə, amma çox yorulmuşam...

Pauza.

G ə n c  k i ş i. Mən hər şeyi sənə danışa bilmirəm... Elə şeylər var ki, onu danışmaq çətindir... Mən istəmirəm ki, sən əzab çəkəsən!

Q a d ı n. Üzüyü sən götürmüsən?

G ə n c  k i ş i *(qızğın).* Mən nə etməliydim? Mən sənə deməliydim ki, anam acından ölür, məni dolandırırsan, yeməyimi-içməyimi verirsən, anamı da dolandır?! Deyə bilmirdim... Bəli! Anam acından ölürdü! Üzüyü satıb pulunu anama verdim!

Pauza.

Q a d ı n. Bəs, sən deyirdin, anam ölüb?!

G ə n c  k i ş i *(qızğın).* Mənim hər dediyim söz düz olmalıdı?

Kiçik pauza.

Bağışla... Gəl yataq, sabah danışarıq... Özün görəcəksən ki, hər şey o qədər də dramatik deyil...

Q a d ı n *(elə bil öz-özü ilə danışır).* Hamısı yalan idi... *(Xatırlayır.)* Bu on səkkiz ildə mən hər gün sizinlə danışmışam... Məni təsəvvüründə canlandırırdın, hə?..

G ə n c  k i ş i. Sən əsəbiləşmisən. Həyəcanlanmısan. Gecənin yarısıdı. Mən də pis iş görmüşəm. Başa düşürəm. Ancaq, gəl yataq, sabah danışarıq. Vəziyyəti daha da dramatikləşdirmə.

Q a d ı n *(elə bil, onu eşitmir).* Sən məni pusmusan... Hara gedirəm, nə edirəm, işığım nə vaxt sönür, nə vaxt yatıram, nə vaxt dururam... Görmüsən ki, aha, təkin, yazığın biridi...

G ə n c  k i ş i. Bəsdir!

Q a d ı n. Evdən çıxır, məktəbə gedir, məktəbdən çıxır, evə gəlir... O yağışlı gecəni də xüsusi seçdin, hə? *(Gülür.)* Xüsusi seçdin ki, təsirli olsun...

G ə n c  k i ş i. Sən heç bilirsən, mənə nələr deyirsən?

Q a d ı n. Bilirəm...

G ə n c  k i ş i. Bilirsən?

Q a d ı n. Əlbəttə, bilirəm... O məktub da yalan idi, hə?

G ə n c  k i ş i. Nə məktub?

Q a d ı n yerində oturub iki əlilə də gicgahlarını tutur. G ə n c k i ş i otaqda var-gəl edir, sonra kitab rəflərinin qabağında dayanıb kitablara baxır. Və bütün bu müddət ərzində onların səsi eşidilir.

Q a d ı n ı n s ə s i. Ey!.. Gözəl məktub! Bax, bu tozsilən dostumuzu görürsən? Bu tozsilən dostumuz o elektrik xəttindən necə enerji alırsa, mən də səndən eləcə enerji alıram! Bildin? Bildin ki, bu gün on beşinci dəfə səni niyə oxuyuram?

G ə n c k i ş i n i n s ə s i. «Əzizim!.. Sevimlim!.. Həyatım!.. Yavaşca sivişib gedirəm ki, səhər-səhər yuxudan durğuzmayım səni... İndi burdan çıxacağam, bir saniyə... bircə saniyədən sonra, yenə səninçün darıxacağam... Yenə fikrim-zikrim sənin yanında olacaq, yenə sənin yanına tələsəcəyəm... Çünki sənin istin bilirsən mənimçün nədir?..»

Q a d ı n ı n s ə s i. Dayan, gözəl məktub! Bu sualı bir də ləzzətlə oxuyacağam!

G ə n c k i ş i n i n s ə s i. «Çünki sənin istin bilirsən, mənimçün nədir?»

Q a d ı n ı n s ə s i. Bir də!

G ə n c k i ş i n i n s ə s i. Çünki sənin istin bilirsən mənimçün nədir?

Q a d ı n ı n s ə s i. Nədir?

G ə n c k i ş i n i n s ə s i. «Bunu adi sözlə yaza bilmirəm. Təsəvvür et ki, hər tərəfi payız yağışı bürüyüb... Yuvada balaca bir quşcuğaz var... Anası harasa uçub gedib, gəlib çıxmır... O quşcuğaz da hərdən isti yuvasından boylanır... Birdən o balaca quşcuğaz yerə düşür... Sənin istin mənimçün, bax, yağışın altında tir-tir titrəyən o quşcuğaz üçün o yuvanın istisi nəydisə, həmin istidi... Mən də həyatım boyu eləcə boylanıb səni axtarmışam, səni gözləmişəm... Deyəsən, bir az hind filmlərinə oxşadı, hə?»

Q a d ı n ı n s ə s i. Yox!

G ə n c k i ş i n i n s ə s i. «Düzünü de, oxşadı, oxşamadı?»

Q a d ı n ı n s ə s i. Lap oxşasın! Bunun heç kimə dəxli yoxdu! Qoy oxşasın!..

Kiçik pauza.

Q a d ı n. Yalan idi... O məktub da yalan idi...

G ə n c k i ş i. Nə məktub?

Q a d ı n *(gülümsəyir).* Uçub getdi... O məktub birdən-birə çox uzaqlara uçub getdi... Qədim məktub!.. Köhnə məktub!..

G ə n c k i ş i *(kitab rəfindəki kitablara baxa-baxa).* Bayron deyib ki, köhnə məktubları oxumaq, heç olmasa, ona görə xoş bir işdir ki, onlara cavab vermək lazım deyil...

Q a d ı n. Sən elə ömrünün sonuna kimi başqalarının sözlərini təkrar edə-edə yaşayacaqsan?

G ə n c k i ş i. Gəl yataq. Sabah danışarıq.

Q a d ı n. Sən necə adamsan? *(İsterik.)* A kişi, bu boyda həngamədən sonra yatmaq olar?

G ə n c k i ş i *(kəskin).* Bəsdi mənim üstümə qışqırdın!.. *(Ona yaxınlaşır).* Sənin dediyin o «başqaları» şagird Həsənzadə deyil, onun anası da deyil, hətta onun atası da!.. Sən yalanı ifşa edirsən, həqiqət sorağındasan, hə? Ancaq nədir həqiqət? Sənin qısqandığın o Dostoyevski, bilirsən, nə deyirdi? Deyirdi ki, əgər, mənə sübut edən olsa ki, İsa başqa şeydi, həqiqət isə tamam başqa bir şey, onda mən həqiqətin yox, İsanın yanında qalacağam... Başa düşdün? Bax, bu da səninçün həqiqətin hörmət-izzəti! Həqiqətin qiyməti! Hər bir insanın öz həqiqəti var! Mənim də içimdə mənim öz həqiqətim var!

Pauza.

Q a d ı n *(elə bil, öz-özü ilə danışır).* O yağışlı gecədə mənim ürəyimdə bir hiss vardı ki, bunlar hamısı bir falşdır... O gecə görüşü də, o sözlər də – hamısı yalançıdır... Amma mən o duyğunu saxlaya bilmədim... Əslində, o duyğunu özüm qovub çıxartdım ürəyimdən... Bu bir ay ərzində o duyğu hərdən baş qaldırırdı, «Ey, mənə bax!» – deyirdi, amma mən o saat onun başından vururdum! O duyğuya deyirdim ki, get, məndən uzaq ol, məndə işin olmasın!.. Qorxurdum o duyğudan, başa düşürsən? Qorxurdum ondan, ona görə də yaxına buraxmırdım!..

G ə n c k i ş i. Gəl yataq, deyirəm!

Q a d ı n *(elə bil, onu eşitmir).* Mən evdə olmayanda, sən hər yeri axtarmısan... Anadan olduğum günü də, pasportumda görmüsən... Köhnə gündəliklərimi çıxarıb oxumusan... Ordan bilmişdin ki, nərgiz güllərini xoşlayıram... Axı... ay çox oxumuş insan... axı, adam başqasının gündəliyini oxumaz... Mən evdə olmayanda, sən siçan kimi otağı axtarırdın, hə?

G ə n c  k i ş i. Bəsdir! Bəs, sən nə edirdin? Mən yatandan sonra, sən də mənim bədənimi yoxlayırdın! Sən məni kitabxanada işə düzəltmək istəyirdin! Çünki səninçün mən kitabxanaçıdan yuxarı deyiləm! Sən məni kitabxana taxtabitilərinin arasında görürdün! *(Onu yamsılayır.)* «Mənim ulduzum!» «Mənim ulduzum!» Sən öz ulduzunla söhbət edə bilirdin, ancaq burdan-bura mənim ürəyimi sındırırdın! Sənin üçün mən, səni təklikdən xilas edən bir adam idim, vəssalam! İt olsun, qurd olsun, bir adam olsun ki, məni gecələr şagird Həsənzadə ilə söhbət eləməkdən qurtarsın! Yox! Mən kiminçünsə it olmaq, qurd olmaq istəmirəm! Elə bilirsən, sənin sözün var deməyə, ancaq mənimki yoxdu? Bəli! Mən sənin evində qalıram! Mənim pulum yoxdu! Bəli! Sən mənə kostyum almısan! Ancaq hər dəfə o kostyuma elə qürurla baxırsan ki, o qürur məni alçaldır! Sən o baxışlarınla az qalır deyəsən: çıx küçəyə, bütün aləmə car çək ki, ay camaat, bu kostyumu mənə, bax, bu xanım alıb! Çıxım qışqırım?

Pauza.

Q a d ı n *(sakit).* Yox!

Pauza.

G ə n c  k i ş i *(ona yaxınlaşır).* Mən deyirdim ki, sabah söhbət edərik... Yataq... *(Onu qucaqlamaq istəyir.)*

Q a d ı n *(onun qolları arasından çıxmaq istəyir).* Yox, istəmirəm!

G ə n c  k i ş i. Məni istəmirsən?

Q a d ı n. İstəmirəm!

G ə n c  k i ş i. İstəyirsən!

Q a d ı n. Yox!

G ə n c  k i ş i. İstəyirsən! Axı, görürəm ki, istəyirsən!

İ ş ı q  s ö n ü r.

Q a d ı n *(qaranlıqdan).* Yox!..

G ə n c  k i ş i *(qaranlıqdan).* Hə!

Q a d ı n *(qaranlıqdan).* Yox!..

G ə n c  k i ş i *(qaranlıqdan).* İstəmirsən?

Kiçik pauza.

Q a d ı n. İstəyirəm...

## DOQQUZUNCU ŞƏKİL

Q a d ı n, Q o n ş u q a d ı n.
Blokda Q a d ı n ı n yaşadığı mənzilin çöl qapı meydançası.
Q a d ı n pilləkəni qalxıb çantasından çıxardığı açarla qapısını açır.
Q o n ş u q a d ı n əlindəki yekə bazar zənbili ilə, öz qapılarından çıxır.

Q o n ş u q a d ı n. Salam, məlimə.

Q a d ı n. Salam! Salam! Necəsən?

Q o n ş u q a d ı n *(əlindəki zənbili göstərir).* Görürsən də...

Q a d ı n *(gülümsəyir).* Həmin zənbil, həmin küçə, həmin bazar...

Q o n ş u q a d ı n. Hə, məlimə. Həmin zənbil, həmin küçə, həmin bazar...

Q a d ı n. Amma bilirsən... İnsan, görəsən, niyə naşükür olur?

Q o n ş u q a d ı n. Nə?

Q a d ı n. Deyirəm ki, görəsən, insan niyə naşükür olur? Bəyəm, pis günlər idi? Mən gecə evdə oturub Həsənzadə ilə danışırdım, sən də elə bilirdin ki, mənim başım, bir az, o söz... *(Gülür.)* Vallah, yaxşı günlər idi!..

Q o n ş u q a d ı n *(çiyinlərini çəkir).* Nə deyim, məlimə?..

Q a d ı n. Qonşular danışır məndən, hə? Deyirlər ki, evinə kişi gəlir?

Pauza.

Düzünü de!

Q o n ş u q a d ı n. Desinlər də!

Q a d ı n. Axı, nə deyirlər?

Q o n ş u q a d ı n. Sən dediyini.

Q a d ı n. «Utanmır!..» «Camaatın gözü qabağında evinə kişi gəlir!..» «Özü də müəllimədir!..» Hə? Belə deyirlər?

Q o n ş u q a d ı n. Hə. Ancaq mən onların cavabını verirəm! Nə olar yanına kişi gəlir? Kimə mane olurlar? Kimlə işləri var? Kim bilir ki, nə, nədir? Adamın yüz cürə, min cürə dərdi-səri olur! Adam var ki...

Q a d ı n *(gülümsəyərək onun sözünü kəsir).* O mahnı necə oldu?

Faytonçuyam, bəxtim qara,
Minən deyir, sür bulvara...

Yaxşı mahnıdı, hə?

Q o n ş u q a d ı n. Nə bilim, vallah...

Q a d ı n. Çox sağ ol də!.. Məni müdafiə etdiyin üçün, çox sağ ol! *(Qapını açıb içəri girir və arxasınca da qapını örtür.)*

Q o n ş u q a d ı n örtülü qapıya baxıb çiyinlərini çəkir.

İ ş ı q s ö n ü r.

## ONUNCU ŞƏKİL

Q a d ı n, G ə n c k i ş i.

Q a d ı n ı n mənzili. Axşam. Q a d ı n pəncərənin qabağında dayanıb şüşədən eşiyə baxır. Qapının zəngi çalınır. Q a d ı n çevrilib qapıya tərəf baxır. Zəng bir də çalınır. Q a d ı n asta addımlarla gedib qapını açır.

G ə n c k i ş i n i n s ə s i *(qapının ardından).* Salam!

Q a d ı n. Salam... Gəldin?

G ə n c k i ş i otağa daxil olur.

G ə n c k i ş i. İstəmirdin gəlim? Gəlməsəydim, darıxmayacaqdın mənimçün? Düzünü de.

Q a d ı n *(otaqdakı pəncərəyə tərəf gedərək).* Bəlkə də darıxacaqdım...

G ə n c k i ş i. Görürsən ki!.. Yeməyə bir şey var?

Q a d ı n. Nə varsa, mətbəxdədi, keç, bax.

G ə n c k i ş i. Axı, mən istəyirəm, sən gətirəsən... Ona görə yox ki, mən ağayam, sən qulluqçu. Yox. Ona görə ki... bir hərarət olsun... Duyğu olsun... Gətirib qoyasan qabağıma... Öpəsən, oturasan yanımda... Sonra da... sonra da keçək divana!

Q a d ı n *(çevrilib şüşədən eşiyə baxır).* Sən özün deyirdin ki, buna layiq deyilsən...

G ə n c k i ş i. Hə, mən deyirdim! Bəs, sən nə deyirdin?

Q a d ı n. Mən? Mən də səndən inciyirdim...

G ə n c k i ş i. Bax, belə!.. *(Get-gedə qızışır.)* Mən bilirəm! Sən məndən məhəbbət umursan! Sevgi umursan! Ancaq başa düş! Sən... sən başqa cürə qadınsan... Mən demirəm, sən pissən, nə bi-

lim, nəsən... Bağışla məni, ancaq deyəcəyəm! Sən... hərdən... gərək sənə deməyim, ancaq deyirəm... sən hərdən maraqsız olursan! Mən uzaqdan-uzağa sənə baxanda, başqa cürə fikirləşirdim... Sən həqiqət axtarırsan, bax, mən də sənə həqiqəti deyirəm: sən... hərdən mənim üçün maraqsız olursan... Yadıma bir söz düşür, ancaq yenə deyəcəksən ki, başqalarının fikrini təkrar edir. Hə, təkrar edirəm! Marina Svetayeva deyirdi ki, ilahələr Allahlara ərə gedirdi, qəhrəmanlar doğurdu, ancaq onlar, yəni o ilahələr çobanları sevirdi. Bax, maraqlı onlar idi, çobanları sevən, macəralar axtaran ilahələr!.. Sən ağıllı adamsan, ona görə bunları deyirəm ki, məni başa düşəsən...

Q a d ı n. Sən ilahə axtarırsan?

G ə n c k i ş i *(gülür)*. İlahə var ki? Olsa, özü gəlib məni tapacaq! Mən heç kimin qapısını döyən deyiləm!

Q a d ı n. Bəs, mənim qapımı niyə döydün?

Pauza.

G ə n c k i ş i. Sən məni gözləyirdin, ona görə!

Pauza.

Gözləmirdin?

Pauza.

Q a d ı n. Gözləyirdim...

G ə n c k i ş i. Bax, belə!..

Q a d ı n. Bu gün Cəfər Elsevərin telefonunu tapdım, ona zəng çaldım. Hə, düzdü, siz universitetdə bir yerdə oxumusuz... Düz demisən mənə, səni, doğrudan da, universitetdən çıxarıblar... Amma heç bir dava-zad olmayıb... *(Gülümsəyir.)* Kimsəsiz qız üstündə ədalət savaşı olmayıb... Sən idmançıların soyunma otağından paltar oğurlamısan, ona görə də səni tutublar, universitetdən də qovublar...

Pauza.

G ə n c k i ş i. Məni yoxlamağa başlamısan? Yoxla! Məni çox yoxlayıblar...

Q a d ı n *(ona tərəf çevrilərək çılğın)*. Sən kimsən? Sən qumarbazsan, aferistsən, oğrusan, kimsən sən?

G ə n c k i ş i *(gülümsəyir)*. Heç özüm də bilmirəm ki, mən kiməm? Vallah, düz sözümdür! Bilirsən, nə fikirləşirəm? Bəlkə

də mənim qarşıma sən yox, gərək Messalina çıxaydı və sənin kimi yazıqların, günahsızların... Hə?.. Sənin kimi bədbəxtlərin, şanssızların... Day nə?.. Sənin kimi aldadılmışların... Hə, hə, görürsən, mən özümü təmizə çıxarmıram, aldadılmışların! Sənin kimi aldadılmışların hayıfını məndən alaydı! Ancaq mənim qarşıma sən çıxdın də! Bilirsən niyə?

Q a d ı n. Yox.

G ə n c k i ş i. Ona görə ki, Messalina bilir, kimin qarşısına çıxmaq lazımdır! *(Var-gəl edir.)* Məni yanında saxlamaq əvəzinə, məndən öz işlərin üçün istifadə etmək, mənə şərait yaratmaq əvəzinə, məni yoxlayırsan!.. Dedim də, yoxla! Ancaq bir az dərindən fikirləş! Bilirsən, Madam de Stal kim idi? Bütün Pariji barmağına dolamışdı! Deyirdi ki, mənim sevmədiyim kişilərin arasında ən yaxşısı mənim birinci ərim idi. *(Gülür.)* O Madam de Stal idi, lotunun biriydi, ancaq sən təmizsən, sənin sevdiyin də mənəm, sevmədiyin də, yaxşın da mənəm, pisin də... Məndən başqa sənin xatirələrin ancaq şagird dəftərləridi, bir də ki, o qəbiristanlıq kimi soyuq məktəbinizdəki müəllimlərin naftalin iyidi! Naftalin iyi təkcə onların kostyumlarından gəlmir, bütün həyatlarından naftalin iyi gəlir, onların bütün xislətlərindən, arzularından, sevinclərindən naftalin iyi gəlir!.. Əslində onlar bütün həyatlarını naftalinə qoyublar ki, güvə yeməsin və onlar tamam mənasız bir ömür sürürlər. O həyatı naftalindən çıxarmaq daha o yazıqlara qismət olmayacaq... Eləcə, boğaza qədər naftalinin içində qalıb, eynəklərinin qalın şüşəsindən, özlərinin yox, başqalarının yaşadığı dünyaya baxacaqlar, miskin həyatlarının sonuna qədər... Ancaq mən sənin həyatını naftalindən çıxartdım. Düz deyirəm, ya düz demirəm?

Q a d ı n. Düz deyirsən!

G ə n c k i ş i. Sən ironiya ilə danışırsan?

Q a d ı n *(sakit).* Yox. Sən çox düz deyirsən!

G ə n c k i ş i. Görürsən, mən sənin fikirləşdiyin qədər də pis deyiləm. Gəl bura. Gəl mənim yanıma!

Q a d ı n. Yox. Artıq qurtardı!

G ə n c k i ş i. Qurtardı? *(Gülür.)* Hələ hər şey təzə başlayır!

Q a d ı n. Yox. Doğrudan, qurtardı! Daha mənim heç nəyim qalmayıb. Bankdakı pulum da bitdi! *(Gülümsəyir.)* Pasportuma baxanda, bank kitabçama da baxmışdın, hə? Baxmışdın ki, görüm

bu səfeh müəllimə maaşından qəpik-qəpik qara gün üçün nə qədər yığıb?

G ə n c k i ş i. Sən məni kim hesab edirsən?

Q a d ı n *(gülümsəyir).* Səni kim hesab edirəm? Onsuz da, daha bunun mənası yoxdur...

G ə n c k i ş i. Deyirsən, «mənim daha heç nəyim yoxdu»?

Q a d ı n. Bəli...

G ə n c k i ş i. Var.

Q a d ı n *(gülümsəyir).* Nəyim var mənim?

G ə n c k i ş i. Bəs, mən? Demirdin ki, məndən başqa sənə heç nə lazım deyil?

Q a d ı n. Deyirdim...

G ə n c k i ş i. Mən həmin adamam də! Ola bilər, hərdən sənin ürəyinə dəyirəm, lazım olmayan sözlər deyirəm, ancaq mən, sənin gözlədiyin həmin adamam. O yağışlı gecədə mənim sənə dediyim o sözlər, hamısı həqiqət idi. Mən səni dəlicəsinə sevirdim. Əslinə baxsan, elə bu gün də elədir. Gəl bura. Gəl mənim yanıma.

Q a d ı n Mən səndən xahiş edirəm, daha rola girmə... Mən yorulmuşam, başa düş! Yorulmuşam!

G ə n c k i ş i. Mənə nifrət edirsən, hə? Bilirəm, bilirəm ki, mənə nifrət edirsən. Ancaq elə buna görə də mənə borclu olmalısan! Hə! Hə! Düz deyirəm! Yenə heç olmasa, bir adam var ki, ona nifrət edirsən! Yoxsa, əvvəlki kimi, ölü bir həyat sürəcəkdin! Nə sevməyə bir adamın olacaqdı, nə də nifrət eləməyə! Mən sənin həyatına məhəbbət də gətirdim, nifrət də! Həyat elə budu də! Canlı həyat budu! Fikirləşsən, görərsən ki, düz deyirəm! Ancaq indi hər şeyi məndən əsirgəyirsən. *(Yamsılayır.)* «Daha heç nəyim yoxdu!» *(Əlləri ilə otağın divarlarını göstərir.)* Bəs, bu? Bu boyda evi var, amma *(Yamsılayır.)* «daha heç nəyim yoxdu!»

Pauza.

Q a d ı n *(sarsılmış).* Sən haradan gəlib mənim həyatıma çıxdın? Axı, dünyada yüz dəfə məndən gözəl, yüz dəfə məndən varlı, əlaqələri məndən yüz dəfə, min dəfə çox qadınlar vardı! Sən nə üçün məhz məni qaraladın? Sən haradan gəlib məni tapdın?

G ə n c k i ş i. Bilmirsən haradan?

Q a d ı n *(isterik).* Yox! Bilmirəm! Bilmirəm!

G ə n c  k i ş i *(pəncərənin qabağına gəlir).* Özün deyirdin ki, məni sənin ulduzun göndərib! *(Hirslə barmağını pəncərəyə tuşlayır.)* Bax, o göndərib məni! Bax!

Q a d ı n. Baxmıram! Baxmıram! Baxmıram! *(Otaqda gəzişərək özünü sakitləşdirməyə çalışır.)* Gəl belə danışaq səninlə... Sən get... Sən get, bir də bura gəlmə... Get... Mən daha səni görmək istəmirəm... Sən yəqin hələ çox adamlara rast gələcəksən... Bəlkə elə bir adama rast gələcəksən ki, hər şey yaxşı olacaq... Get... Bir də buralara gəlmə...

G ə n c  k i ş i. Məni qovursan?

Q a d ı n. Xahiş edirəm səndən, get... Məndə işin olmasın daha, xahiş edirəm...

G ə n c  k i ş i *(onu yamsılayır).* «Məndə işin olmasın...» Mən nə edirəm sənə? Döyürəm, söyürəm, nə edirəm?

Q a d ı n *(qışqırır).* Get! Gəlmə bura! Gəlmə!

İ ş ı q  s ö n ü r.

## ON BİRİNCİ ŞƏKİL

Q a d ı n, G ə n c  k i ş i, Q o n ş u  k i ş i.
Q a d ı n ı n  mənzili. Gecə. Q a d ı n mizin arxasında oturub şagird dəftərlərini yoxlayır, ancaq hiss olunur ki, fikrini bir yerə toplaya bilmir. Qalxıb otaqda var-gəl edir, yenə mizin arxasında əyləşir. Qapının zəngi çalınır. Q a d ı n  başını qaldırıb bir müddət qapıya baxır. Zəng bir də çalınır. Q a d ı n  qalxıb qapını açır.

Q a d ı n. Sən yenə gəldin?

G ə n c  k i ş i içəri daxil olur.

G ə n c  k i ş i. Salam...

Q a d ı n. Yenə gəldin, hə?

G ə n c  k i ş i. Gedim küçədə yatım? *(Arxasınca qapını bağlayıb otağa keçir.)*

Q a d ı n. Sən mənim ömrümə yazılmısan?

G ə n c  k i ş i. Bəs sən bilmirsən ki, yazıya pozu yoxdu?

Kiçik pauza.

Qulaq as, başıma əla bir fikir girib!

Q a d ı n. Sənin əla fikrin də olur?

G ə n c k i ş i *(incimiş).* Görürsən? Sözümü deməmiş, ağzımdan vurursan, sonra da deyirsən ki, elə oldu, belə oldu!.. Mən nəyəm bəyəm? Yəni elə dəhşətli bir məxluqam ki, bir dənə yaxşı söz deyə bilmərəm? *(Var-gəl edir.)* Onda sənə başqa ideya verəcəyəm! Pis adamın əla ideyası! *(Gülür.)* Bir az birtəhərdi, amma əladı! İndi ağlıma gəldi! Bütün problemlərimiz həll olunur! Deyim?

Q a d ı n. De də...

G ə n c k i ş i *(ayaq saxlayır).* Məni götür oğulluğa!

Q a d ı n *(gülümsəyir).* Səni oğulluğa götürüm?

G ə n c k i ş i. Hə! Mən sənə yalan demişəm. Mən məktəbə bir il gec getməmişəm, əksinə, iki il tez getmişəm, beş yaşından. Çünki beş yaşından əlifbanı öyrənmişdim, nağılları oxuyurdum, elə bilirdim ki, bu səfeh dünya da o nağıllar kimi bir şeydi... *(Gülür.)* Nə isə... Mən onuncu sinifdə oxuyanda on beş yaşım var idi. İnanmırsan?

Q a d ı n. Niyə inanmıram? İnanıram.

G ə n c k i ş i. Onda götür məni oğulluğa. Nədi, pisdi? Yoxsa, oğlun olsaydı, məndən yaxşısı olacaqdı? Götür məni oğulluğa... *(Sözünü yarımçıq kəsərək diqqətlə Qadına baxır.)* Mən də... mən də gedib sizin rayonun Təhsil şöbəsinə şikayət etmərəm ki, keçmiş şagirdinin əxlaqını pozmaqla məşğul olmusan! *(Gülür.)* Zarafat edirəm... Kim olsam da, bu səviyyəyə enmərəm... Nə bilim? Bəlkə də, enərəm? *(Gülür.)* İnsan elə əcaib bir məxluqdu ki, ondan nə desən gözləmək olar! Düz demirəm? Sən özün birdən elə bir şey eləyə bilərsən ki, heç ağlına da gəlməz! Hə?

Q a d ı n *(çiynini çəkir).* Bəlkə də...

G ə n c k i ş i. Görürəm!.. Görürəm ki, mənə nifrət eləyirsən!.. Elə!.. Elə bilirsən, belə baxmaqla, məcbur edəcəksən ki, mən vicdan əzabı çəkim? Niyə? Mənim dırnağım olmayanlar vəzifə başındadı! Mən gedib adını yaza bilməyənin birinin, dünyadan xəbəri olmayan bir kütün qapısında dayanıb, boynumu bükürəm, bəs vicdan niyə protest eləmir? Onda nə üçün mən vicdan əzabı çəkməliyəm? Mən acından öləndə vicdan əzabı çəkənlər bəs haradaydı?

Q a d ı n. Sən acından ölmüsən?

G ə n c  k i ş i. Nə bilirsən ki, mənim acından ölən vaxtlarım olmayıb! Hə? Axı, sən nə bilirsən e, mənim haqqımda? Heç nə! *(Get-gedə qızışaraq yamsılayır.)* «Cəfər Elsevər deyib ki, mən paltar oğurlamışam...» Bəli! Oğurlamışam! Ancaq həyatı *(Barmağının ucunu göstərir.),* bax, bu qədər babat olan bir adam gedib idman otağından paltar oğurlayar? Əgər, mənim dəhşətli ehtiyacım olmasaydı, belə bir miskin iş tutardım? Bəs bunu niyə fikirləşmirsən? Cəfər Elsevər!.. Cəfər Elsevər neyləyir? Rüşvət alıb qəzetlərə məqalə yazır! Onu ifşa edir, bunu tərifləyir, hamısı da pulla! O əladır, ancaq mən pisəm! Qoy olsun! Götür məni oğulluğa, tərbiyə et! Sənin üçün də yaxşı olar! Tək qalmazsan. Bir yerdə yaşayarıq. Gəlinə tapşıraram, səni incitməsin. İcazə verərəm nəvələri gözməyə aparарsan!.. Hə, özünü yaxşı aparsan, evdə tək olanda, sənə icazə verərəm ki, hərdən gəlib girəsən yanıma! *(Gülür.)* Amma ayda bir dəfədən artıq yox!

Kiçik pauza.

Q a d ı n. Sən məndən kimin intiqamını alırsan?

G ə n c  k i ş i. Nə?

Q a d ı n *(elə bil, öz-özüylə danışır).* Elə hey fikirləşirəm ki, axı, bu məndən kimin intiqamını alır?.. Nəyin intiqamını alır?.. Axı, mən elə bir iş görməmişəm ki, məndən belə intiqam alsın... Axı, nə etmişəm mən bu həyatda? Mən nə görmüşəm ki, nə də edim?

Kiçik pauza.

Bura bax, sən öz bədbəxtliyinin, öz acizliyinin intiqamını məndən alırsan?

G ə n c  k i ş i. Nə? *(Pərt.)* Mən niyə bədbəxt oluram? Gör, kim mənə aciz deyir?! Səndən aciz adam var, dünyada?

Q a d ı n. Yox.

G ə n c  k i ş i. Bax, belə! Sənin bütün həyatında bircə işıqlı şey olubsa, o da mənəm! Elə bilirsən, görmürəm ki, məndən necə ləzzət alırsan? *(Gülür.)* Ancaq sən də az aşın duzu deyilsən, ha!? *(Qadının qarşısında o baş-bu baş addımlayaraq.)* Kim deyər ki, bu biganə, bu yaşlı xanımın, yox, xanımın yox, bu müəllimənin içində, necə bir görməmiş ehtirası var?!

Pauza.

Q a d ı n *(sakit).* Deyirsən oğulluğa götürüm səni?

G ə n c k i ş i. Bəli-i-i!..

Q a d ı n *(eyni sakitliklə).* Onda bunu yumaq lazımdı...

G ə n c k i ş i *(təəccüblə).* Yumaq lazımdı?

Q a d ı n. Əlbəttə!

G ə n c k i ş i. Vallah, sən mənim fikirləşdiyimdən də ağıllısan! Barışırıq, hə? Məni restorana aparırsan?

Q a d ı n. Restorana niyə? *(Ayağa qalxır.)*

G ə n c k i ş i *(gülür).* Bu fani dünyada restorandan yaxşı yer var?!

Q a d ı n. Sonra baxarıq... Otur. *(Mətbəxə keçir.)*

G ə n c k i ş i *(Qadının ardınca baxaraq).* Doğrudan da, vallah, bu qadınlar bir sirri-xudadı! *(Var-gəl edir.)* Kim deyə bilərdi ki, Anna Karenina özünü qatarın altına atacaq? *(Bərkdən.)* Kömək eləyim sənə?

Q a d ı n *(mətbəxdən).* Yox...

G ə n c k i ş i. Vallah, bu, yaxşı adamdı... Mən də lap əclafın biriyəm!

Q a d ı n əlindəki sinidə iki qədəh şampan şərabı ilə içəri girir.

O-o-o!.. Mən elə bilirdim, zarafat eləyirsən... Bəs, şampanın özü hanı?

Q a d ı n. Soyuducuda. Əyləş. *(Qədəhləri mizin üstünə qoyur və oturur.)*

G ə n c k i ş i. Bunun ayrı ləzzəti var!.. Mən də yapışmışam restorandan! Qozbeli qəbir düzəldər də! *(Gülür.)* Neyləyim? *(Oturaraq qədəhi əlinə alır).* İçək, hə? Ana-bala olmağımızın şərəfinə? *(Bir neçə qurtum içərək göz vurur.)* Ancaq bu gün, deyəsən, ana-bala olmağımızı yaddan çıxaracağıq!.. Sənin sağlığına! *(Yenə bir neçə qurtum içir.)* Pis sözlər deyirəm... Bağışla məni... Özüm də bilirəm ki, pis sözlər deyirəm... Səninlə çox qəddar zarafat edirəm... Ancaq hər şey keçib-gedir... Sənin də ağrın keçəcək... Bilmirəm, sən görmüsən, yoxsa, yox? Ağacın budağını kəsəndə, bir müddət ağlayır, şirəsi tökülür, ancaq sonra hər şeyi yadından çıxarır, o kəsik yerinin üzünü qabıq örtür, ağac daha da cavanlaşır, sağlam olur!..

Pauza.

*(İçir.)* Yaxşı, bağışla də məni...

Q a d ı n. Gecdir.

G ə n c  k i ş i. Bağışlamaq heç vaxt gec deyil. Sadəcə, bağışlamağı bacarmaq lazımdır!.. Bilirəm, ürəyinə toxunuram sənin... Amma sən məndən uca ol də! Sən yüksəkdə dayan! Sən bağışla!.. Axı, sən də mənim ürəyimə dəyirsən... *(İçir.)* Yoxsa elə bilirsən, mənim ürəyim daşdandı? Yox... Mənim ürəyim də, təəssüf ki, daşdan deyil... Deyirsən, mən öz bədbəxliyimin intiqamını səndən alıram... Bundan dəhşətli söz olar, mənə deyirsən?..

Pauza.

Nə bilim... Amma xoşbəxtlik də çox nisbi bir şeydi... Kimdi xoşbəxt? Göstər mənə!.. Mən, doğrudan, sənin sağlığına içirəm! (İçir.) Vallah, mən səni həqiqətən sevirəm!.. İnanmırsan?

Pauza.

*(Barmağının ucunu göstərir.)* Heç bu qədər də inanmırsan? Hə?

Q a d ı n  başını bulayır.

Nahaq! Dünyada pis adam yoxdu! Sadəcə, insanları başa düşmək lazımdı... Sən elə bilirsən ki, məni tanıyırsan? Bəlkə mənim də elə arzularım olub ki, sənin o ulduzlar aləmindən də yuxarıda dayanıb?! Sən nə bilirsən ki, mən ürəyimdə nə çəkirəm? Bəlkə mən özümə səndən də artıq nifrət edirəm? Nə bilirsən? Düz demirəm?

Q a d ı n *(çiyinlərini çəkir)*. Nə bilim?..

G ə n c  k i ş i. Yox, düz deyirəm! Məsələn, mən yüz faiz bilirəm ki, sən pis adam deyilsən!

Q a d ı n *(gülümsəyir)*. Bilmək olmaz...

G ə n c  k i ş i. Yüz faiz!

Q a d ı n. Bəs, sən?

G ə n c  k i ş i. Mən?

Q a d ı n. Hə. Sən neçə faiz?

G ə n c  k i ş i *(gülür).* Nə bilim?.. Bilmirəm... *(Bir az tutulmuş.)*

Q a d ı n. Sənin öz ürəyindən xəbərin yoxdu? Niyə bilmirsən?

G ə n c  k i ş i. Sən elə bilirsən ki, adam öz-özünü tanıyır? Nə isə... Amma onu bilirəm ki, səninlə yaxşı rəftar eləmirəm...

Pauza.

Deyəsən sentimental olmuşam... Səndən keçib də, mənə... *(Gülür.)* Əgər, insan sentimental adamdırsa, deməli, yaxşı adamdır! Hə?

Q a d ı n *(yenə çiyinlərini çəkir).* Nə bilim?..

G ə n c  k i ş i. Axı, dedim ki... səndən xahiş etdim ki, məni bağışla də!.. Səni heç belə fikirli görməmişəm... İstəyirsən, diz çöküb ayaqlarını qucaqlayım?

Q a d ı n. Yox, istəmirəm...

G ə n c  k i ş i. Mən səni tanıyıram, əvvəl-axır bağışlayacaqsan... Lap elə bu gecə bağışlayacaqsan!.. *(İçir.)* Mən deyirəm də, sənin əlin dadlı əldir!

Q a d ı n  gülümsəyir.

Şampan da, elə bil, adi şampan deyil. Sən süzmüsən qədəhlərə, ona görə dadlı olub!..

Q a d ı n  gülümsəyir.

Gəl, hər şeyi təzədən başlayaq! Vallah, yaxşı olar!.. Mən çox şey başa düşmüşəm... Sənin ürəyinə toxunmağıma baxma... Bəlkə də sən düz deyirsən... Həyatda mənimki gətirmədi... Bəlkə elə o kompleksdi, məni məcbur edir ki, səninlə belə rəftar edim? Bəlkə, sənə baxanda, özümü daha dərindən görürəm, özüm özümdən qorxuram, özüm özümü bağışlaya bilmirəm, ona görə belə edirəm? Elə bilirsən, mən heç bir əzab çəkmirəm? Bəlkə mən səndən də çox əzab çəkirəm, nə bilirsən?

Kiçik pauza.

Gəl, gəl, təzədən başlayaq! Doğru deyirəm!

Q a d ı n. Sənin doğru sözün var?

G ə n c  k i ş i *(gülür).* Niyə yoxdu? *(Şampanı axıra qədər içib*

*piyaləni mizin üstünə qoyur.)* Mən, deyəsən, sənin yanında o çobana dönmüşəm!?

Q a d ı n. Hansı çobana?

G ə n c k i ş i. Bir çoban qışqırır ki, ay-haray, sürüyə canavar girib! Camaat axışıb haraya gəlir, görürlər ki, canavar-zad yoxdu. Çoban bir dəfə də hay-küy salır ki, ay aman, sürüyə canavar girib! Camaat yenə axışıb haraya gəlir. Yenə görürlər ki, canavar yoxdu. Bir müddət keçir, çoban üçüncü dəfə təzədən qışqırır ki, ay camaat, kömək eləyin, sürüyə canavar girib! Daha heç kim haraya gəlmir, hamı elə bilir ki, çoban yenə yalandan qışqırır. Ancaq, sən demə, bu dəfə doğrudan da sürüyə canavar giribmiş! Sürünü də dağıdır, o yazıq çobanın da boğazını gəmirir. *(Gülür.)* İndi, deyəsən, mən də o çobanam!

Q a d ı n. Mən də canavar!

G ə n c k i ş i *(gülür).* Səndən canavar çıxmaz!

Q a d ı n. Bilmək olmaz!

G ə n c k i ş i *(elə bil, nədənsə şübhələnir).* Bilmək olmaz?

Q a d ı n *(başı ilə təsdiq edərək).* Hə.

Pauza.

G ə n c k i ş i *(birdən boğazını tutaraq öyüməyə, yerində qıvrılmağa başlayır).* Mənə... mənə nə oldu?.. *(Dəhşətlə Qadına baxaraq qışqırır.)* Nə etmisən?

Q a d ı n *(sakit).* Demirdin ki, sənin qarşına gərək Messalina çıxaydı?

G ə n c k i ş i *(boğula-boğula).* Mənə... mənə nə vermisən?

Q a d ı n *(eləcə sakit).* Sənin yadından çıxıb ki, mən kimya müəllimiyəm?

G ə n c k i ş i *(iki əli ilə də boğazını tutub ayağa qalxaraq Qadına hücum etmək istəyir).* Ay... ay... qancıq! Mənə... mənə əlin qalxdı? Elə bilirsən... elə... bilirsən... *(Yerində səndələyir.)* Canavar!.. Canavarmışsan... sən!.. Kim deyərdi? Kim deyərdi ki, sən canavarsan?.. *(Əlləri ilə kitab rəflərindən yapışır və rəflərlə birlikdə gurultuyla yerə sərilir.)* Kömək elə... *(Qışqırır.)* Mənə kömək edin!.. Həkim çağırın!.. *(Yerində qıvrılır.)* Qoyma!.. Qoyma ölüm... Sən özünü də məhv edirsən... Qoyma!.. *(Xırıldayan səsi ilə var gücüylə qışqırmaq istəyir.)* İstəmirəm!.. Ölmək istəmirəm!.. *(Ağlayır.)* Mən... yaxşı adamam... sən bilmirsən... sən mə-

ni tanımırsan... mən yaxşıyam... mən... mən səni sevirəm... Qorxuram!.. Qorxuram!.. Ölürəm... *(Güclə xırıldayır.)* Kömək... elə... Mən bilmirdim ki... sən beləsən... Bağışla məni... Yazığın... Yazığın gəlsin... *(Xırıldayaraq yerində çapalayır və hərəkətsiz donub qalır.)*

Uzun pauza.

Q a d ı n. Sən düz deyirdin! Sən *(Əlini pəncərənin şüşəsinə tərəf qaldırır.)* oradan gəlmişdin! Çünki sən mənim taleyimə yazılmışdın! Hə, sən oradan gəlmişdin, çünki, bunu da düz deyirdin, yazıya pozu yoxdur! Yəqin... yəqin mən də sənin taleyinə yazılmışdım... *(Güclə yerindən qalxıb pəncərəyə yaxınlaşır və şüşələri taybatay açaraq qışqırır.)* Amma niyə? Nə üçün?

Q o n ş u k i ş i *(qapı arxasından).* Olar? Bu nə səs-küydü belə? *(İçəri daxil olur.)* Nə olub, məlimə? *(Heyrət içində gah Qadına, gah da yerə sərilmiş cəsədə baxır.)*

Q a d ı n *(ona tərəf çevrilir, gülümsəyərək sakit).* Sizi təbrik edirəm!..

Q o n ş u k i ş i. Məni?

Q a d ı n. Hə!..

Pauza.

*(İki biləyini də Qonşu kişiyə tərəf uzadır.)* Axır ki, qatil həbs etdiniz!

Q o n ş u k i ş i *(yerdə uzanmış Gənc kişiyə baxaraq dəhşət içində geriyə addımlaya-addımlaya)* İstəmirəm!.. İstəmirəm!.. İstəmirəm!..

İ ş ı q s ö n ü r .

*10 – 17 avqust 2002.*
*Zuğulba.*